QARABAĞ AZƏRBAYCANDIR!

## Tanrının xalqımıza bəxş etdiyi bəsirətli Şəxsiyyət



8

Səs
№ 013 (6696) 25 yanvar 2023-cü il. Qiymәti 60 qәpik

## Azərbaycan - Avropanın enerji təhlükəsizliyi üçün etibarlı və dayanıqlı tərəfdaş!



2

### İlham Əliyev:
"Bugünkü reallıqlar fonunda tranzit ölkəsi olmaq vacibdir"

# Cənubi Qafqazda sülhü kim istəmir?



4

### AVROPA PARLAMENTİ "SİYASİ ŞOU-BİZNES SƏHNƏSİ" KİMİ




7

### Köhnə maşın parkımız necə təzələnəcək?



15

### Xərçəngdən necə yaxa qurtarmalı?



13



# Fransa
"demokratiyasının" antidemokratiya siyasəti

12

# O 44, bu 44...



11

# Azərbaycan - Avropanın enerji təhlükəsizliyi üçün etibarlı və dayanıqlı tərəfdaş!

## *İlham Əliyev: "Bugünkü reallıqlar fonunda tranzit ölkəsi olmaq vacibdir"*

44 günlük Vətən müharibəsində qazandığımız şanlı Zəfərdən sonra yaranmış yeni reallıqlar fonunda Azərbaycan gələcək inkişaf strategiyasını dövrün tələblərinə uyğun olaraq müəyyənləşdirib. Uzaqgörən qərarları ilə Azərbaycan Cənubi Qafqazın və ətraf regionların iqtisadiyyatlarını dəyişdirməyə qadir irimiqyaslı layihələri ilə müasir dünyamızda dünyanın enerji təhlükəsizliyinin etibarlı tərəfdaşlarından birinə çevrilib. İqtisadi cəhətdən qüdrətli dövlətə çevrilən ölkəmizin coğrafi mövqeyi, böyük tranzit potensialı, nəhəng regional layihələri, eləcə də əlverişli biznes mühiti dünya ölkələri ilə qarşılıqlı etimad əsasında əməkdaşlığın qurulmasında mühüm amillər sırasındadır. Azərbaycanda iqtisadiyyatın intensiv inkişaf edən nəqliyyat sektoruna xüsusi önəm yetirilir. "Şimal-Cənub", "Şərq-Qərb" və Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu kimi layihələrin həyata keçirilməsi mühüm töhfələr verir. Böyük İpək yolunun yenidən canlandırılmasına yönələn Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu olan Orta Dəhliz təkcə Azərbaycana deyil, bütün dünyaya böyük perspektivlər açır. Yüklərin Çindən Avropaya və Yaxın Şərqə daşınması üçün ən təhlükəsiz marşrutlardan hesab edilən "Orta Dəhliz" Qərb və Şərq arasında təbii körpü rolunu oynayan Azərbaycan üçün də böyük əhəmiyyət daşıyır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 19-da Davos Dünya İqtisadi Forumu çərçivəsində keçirilən "Avrasiya Orta Dəhlizi: Yoldan magistrala" mövzusunda panel iclasında moderatorunun suallarını cavablandırarkən Orta Dəhlizin üstünlüklərindən biri kimi bu nəhəng layihədə iştirak edən ölkələrin öz aralarında yaxşı münasibətlərə malik olduqlarını bildirib: "Hesab edirəm ki, istənilən çoxmillətli təşəbbüsdə uğurun qazanılması üçün bu, ilkin şərtlərdən biridir. Azərbaycan özünün Qərbində olan qonşuları Gürcüstan və Türkiyə, Şərqində isə Mərkəzi Asiya ilə gözəl münasibətlərə malikdir. Qərb və Şərq arasında təbii coğrafi bağlantıya malik olduğumuz üçün biz ötən illər ərzində nəqliyyat infrastrukturuna böyük sərmayə yatırmışıq. Azərbaycanda bütün zəruri infrastruktur obyektləri daha çox yük qəbul etməyə hazırdır". Yükaşırma qabiliyyəti 15 milyon ton olan dəniz limanımızın 25 milyon tona qədər genişlənəcəyini bildirən dövlət başçısı bunun üçün artıq vəsait ayrıldığını qeyd edib: "Biz artıq Mərkəzi Asiyadan böyük həcmdə yükün istiqamətinin dəyişilməsini müşahidə edirik və bu, sadəcə, başlanğıcdır. Həmçinin əlavə etmək istərdim ki, biz bu ildən etibarən artıq neçə illərdir neftin tranzitini təkcə Türkmənistandan yox, Qazaxıstandan da etməyə başlamışıq və bu dəhlizdən, həmçinin karbohidrogenlər üçün də istifadə etmək potensialı mövcuddur".





### "BAKIDA DƏNİZ LİMANININ YAXINLIĞINDA YERLƏŞƏN AZAD ZONANIN AÇILIŞI OLACAQ"

Prezident İlham Əliyevin yorulmaz siyasi fəaliyyəti və qətiyyətli mövqeyinin məntiqi nəticəsidir ki, siyasi müstəvidə dövlətlərarası münasibətlər yüksək formalaşıb ki, bu da iqtisadi və digər sahələrdə əlaqələrin daha da gücləndirilməsinə müsbət təsirini göstərməkdədir. Əlbəttə ki, Azərbaycanın beynəlxalq nəqliyyat dəhlizində artan rolu tərəfdaşlığımızı möhkəmləndirir. "Bugünkü reallıqlar fonunda tranzit ölkəsi olmaq vacibdir", - deyən Cənab Prezident bizim üçün bunun əhəmiyyətinin yeni iş yerləri və yerli istehsalatla bağlı olduğunu bildirib: "Bu səbəbdən biz iqtisadiyyatımızın şaxələndirilməsi üzərində ciddi işləyirik. Hesab edirik ki, nəqliyyat sahəsi bizə ixracımızı şaxələndirməyə imkan verəcək, çünki biz xidmət ixrac edəcəyik. Bununla yanaşı, Orta Dəhliz üzərində və Şimal-Cənub marşrutu boyu yerləşmə Azərbaycanda əlavə biznes imkanları yaradır. Tezliklə Bakıda dəniz limanının yaxınlığında yerləşən azad zonanın açılışı olacaq. Ümidvarıq ki, bu azad zona istehsal yeri və şirkətlərin investisiya yatırması üçün əlverişli yer olacaq. Biznes mühitinin təkmilləşdirilməsi, sözsüz ki, uğurun əsas amillərindən biridir, çünki dünyanın bütün ölkələrinin, hətta ən inkişaf etmiş ölkələrin də əlavə investisiyalara ehtiyacı var Düşünürəm ki, bu, həqiqətən də unikal vəziyyətdir, zənnimcə qlobal miqyasda ən mehriban mühitlərdən biri Azərbaycanla Gürcüstan arasında, Azərbaycanla Türkiyə arasında, Gürcüstan və Türkiyə arasında münasibətlər və üçtərəfli əlaqələrdir". Məlumdur ki, ölkələrarası bir neçə üçtərəfli əməkdaşlıq formatı mövcuddur. "Xarici işlər, müdafiə, iqtisadiyyat nazirləri səviyyəsində, həmçinin liderlər sammiti olub" - deyən Cənab Prezident bunun artıq bəhrəsini gördüyümüzü bildirib: "Biz enerji layihələrindən başladıq - istehsalçı, tranzit ölkəsi və istehlakçı arasında balans olmalıdır. Biz qarşılıqlı uduşlu vəziyyət yaratmağa müvəffəq olduq və maraqların balansı qorunub saxlanıldı. Əslində, nisbətən bu yaxınlarda qurduğumuz, indi Azərbaycandan, Gürcüstandan, Türkiyədən Avropaya qədər uzadacağımız dəmir yolu əlaqələri bizim neft-qaz kəmərləri layihələrinin uğurlu icrasından qaynaqlanıb. Beləliklə, düşünürəm ki, dəhlizin bu tərəfində bütün məsələlər həll olunub".

### "2027-Cİ İLƏ QƏDƏR TƏCHİZATI İKİ DƏFƏ ARTIRACAĞIMIZ NƏZƏRDƏ TUTULUR"

"Avrasiya Orta Dəhlizi: Yoldan magistrala" mövzusunda panel iclasında Azərbaycan Prezidenti İlham Əliyevə ünvanlanan suallar sırasında enerji ilə bağlı fikirlər də maraq doğurur. Bildiyimiz kimi Azərbaycan Avropaya enerjinin təchizatını artırıb. Bu möcüzə kimi dəyərləndirilib. "Lakin bu il üçün və strateji olaraq növbəti onillik üçün həm qazla, həm də Azərbaycanın yaşıl enerji ilə bağlı planları haqqında düşüncələriniz barədə bizə məlumat verə bilərsinizmi?" sualını Cənab Prezident ətraflı şəkildə və reallıqlar çərçivəsində diqqətə çatdırıb. Təbii qazla bağlı Avropa Komissiyasından müraciət daxil olan kimi biz dərhal müxtəlif istiqamətlər üzrə işləməyə başladıq, deyən dövlətimizin başçısı bildirib ki, birincisi, hasilatın fiziki artımını, sonra səmərəliliyi, itkilərin azaldılmasını və daxildə istifadə etdiyimiz qaza harada qənaət edə biləcəyimizi və onun Avropa bazarına ötürülməsini nəzərdə tuturam. Azərbaycanın 2021-ci ildə Avropa bazarına ixracı təqribən 8 milyard kubmetrdən çox olub. Bu il isə ixrac ən azı 11,6 milyard kubmetr olacaq. Ümumi həcm isə 24 milyard kubmetrdir. "Ötən yay Avropa Komissiyası və Azərbaycan arasında imzalanmış anlaşma memorandumunda bizim 2027-ci ilə qədər təchizatı iki dəfə artıracağımız nəzərdə tutulur" - deyən Cənab Prezident Avropa İttifaqına təchizatın minimum 20 milyard kubmetr səviyyəsində olacağını qeyd edib: "Bunun üçün Avropada daha çox interkonnektorlar olmalıdır. Onlardan biri - Yunanıstan-Bolqarıstan interkonnektoru keçən ilin sonlarında açılmışdır. Bu, bizə Bolqarıstana və bu ildən etibarən Rumıniyaya təbii qazı təchiz etməyə başlamaq imkanını verdi. Eyni zamanda, biz Limakın da töhfə verdiyi yeni layihəni - TANAP-ı 16 milyard kubmetrdən 32 milyard kubmetrə, TAP-ı isə 10 milyard kubmetrdən 20 milyard kubmetrə qədər genişləndirməliyik. Təsəvvürünüzə gətirin, TAP yalnız iki il bundan əvvəl açılmışdır. Biz düşündük ki, bu, Avropa üçün uzun müddətə tələb edilən həcm olacaq".

### ENERJİ SİYASƏTİMİZİN YENİ FƏSLİ

Ölkəmizdə yaşıl enerji ilə bağlı potensialın çox böyük olması diqqəti çəkən məqamlardan biridir. Xəzər dənizinin külək potensialı 157 qiqavat və qurudakı potensial 27 qiqavatdır. İşğaldan azad olunan ərazilərimizdə isə 10 qiqavat potensial vardır. Ötən ilin dekabrında Azərbaycan Gürcüstandan Rumıniyaya sualtı kabel xəttini çəkmək üçün Buxarestdə müqavilə imzalayıb ki, bunun da gücü 4 qiqavatdır. "Hazırda texniki-iqtisadi əsaslandırma işləri aparılır. Hazır olduqdan sonra biz maliyyələşmənin strukturu barədə düşünəcəyik və əlbəttə ki, Avropa maliyyə institutlarının dəstəyinə ehtiyac olacaq. "Masdar"la imzalanmış razılaşma külək və günəş enerjisi hasilatını 2027-ci ilədək 4 qiqavat və 2037-ci ilədək 6 qiqavat artıracaq. "Fortescue Future Industries"lə imzalanmış Anlaşma Memorandumuna əsasən 12 qiqavatadək hasilat üçün Azərbaycana investisiya yatırılacaq. Bu, həqiqətən də enerji siyasətimizin yeni fəslidir. Neftlə, qazla bağlı işlər yekunlaşıb. Elektrik enerjisi, yaşıl hidrogen və bütün bunlar bizim planlarımızda var" - deyə Prezident bildirib.

Zəngin potensiala malik olan Azərbaycanın təşəbbüsü və iştirakı ilə həyata keçirilən mühüm regional nəqliyyat və enerji layihələri dünya ölkələrinin diqqətindədir. Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində etibarlı və dayanıqlı tərəfdaş kimi Azərbaycanın rolu əhəmiyyətli dərəcədə artıb.

***Zümrüd BAYRAMOVA***

## *Rəsmi xronika*

Prezident İlham Əliyev "Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında dövlət sərhədindən buraxılış məntəqələrinin və onlara nəqliyyat giriş yollarının əlaqələndirilmiş inkişafı məqsədilə əməkdaşlıq və qarşılıqlı fəaliyyət haqqında Saziş"in təsdiq edilməsi barədə Fərman imzalayıb.

***

Prezident İlham Əliyev "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və İstehlakçıların Hüquqlarının Müdafiəsi və İnsan Rifahı sahəsində Nəzarət üzrə Federal Xidmət (Rusiya Federasiyası) arasında Beynəlxalq tibbi sanitariya qaydalarının (2005-ci il) tətbiqi sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Fərman imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərin xüsusi sənədləri haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" 1998-ci il 13 mart tarixli 684 nömrəli, "Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestrinin aparılması qaydası haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2004-cü il 14 oktyabr tarixli 134 nömrəli, "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2006-cı il 24 fevral tarixli 373 nömrəli, "Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2006-cı il 2 avqust tarixli 438 nömrəli, "Qüvvədən düşmüş sənədlərin dövlət reyestrinin yaradılması haqqında" 2007-ci il 12 mart tarixli 543 nömrəli, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi və "Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti haqqında Əsasnamə"nin təsdiqi barədə" 2012-ci il 13 fevral tarixli 593 nömrəli və "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

# "Böyük Qayıdış" proqramı uğurla reallaşacaq!

*İlham Əliyev: Keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qayıdışı prosesinə başlamışıq*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev hansı məqamda, hansı şəraitdə, ən çətin anlarda vətəndaş amilinə, insan faktoruna qayğı, onun maddi, mənəvi tələbatlarının ödənilməsi üçün zəruri şəraitin yaradılması apardığı siyasətin mühüm prinsiplərindəndir. Məhz bu baxımdan, Prezident İlham Əliyev cənablarının rəhbərliyi ilə ölkəmizdə uğurlu sosial siyasətin həyata keçirilməsi, ilk növbədə, belə qənaətə gəlməyə kifayət qədər zəmin yaradır ki, bu siyasətin əsas məqsədi Azərbaycanda sosialyönümlü dövlət quruculuğunu təmin etməkdir. Söz yox ki, bu istiqamətdə də son 19 ildə mühüm və ardıcıl addımlar atılmaqdadır. O da əbəs deyil ki, Prezident İlham Əliyev hər zaman öz çıxışlarında sosial siyasəti dövlət siyasətinin ən zəruri sahələrindən biri kimi dəyərləndirərək vurğulayıb ki, layiqli sosial siyasət qarşıdakı illərdə də Azərbaycan hökumətinin fəaliyyətinin prioriteti olaraq qalacaq. Demək olar ki, hər il vətəndaşların əməkhaqlarının, pensiyaçıların təqaüdlərinin, aztəminatlı ailələrə, şəhid ailələrinə, Qarabağ əlillərinə, eyni zamanda, sağlamlığın məhdud olan vətəndaşlara verilən sosial müavinətlərinin artırılması da buna olan bariz sübutdur. Bu, Azərbaycanda insanların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində atılan zəruri addım kimi qiymətləndirilir.

## ÖLKƏMİZDƏ QAÇQIN VƏ MƏCBURİ KÖÇKÜNLƏRƏ DÖVLƏT QAYĞISININ TƏZAHÜRÜ

Prezident İlham Əliyev hələ 2003-cü il oktyabrın 1-də prezident seçkiləri ərəfəsində ilk görüşünü Biləsuvar rayonu ərazisində məcburi köçkünlər üçün salınmış yeni qəsəbələrdə keçirərkən bir dənə də olsun çadır düşərgəsinin qalmayacağını bəyan etmişdi. 2006-cı ildə Bərdə və Ağcabədi rayonlarındakı 4 çadır düşərgəsinin, 2007-ci ilin dekabrında isə Saatlı və Sabirabad rayonları ərazisindəki 3 çadır düşərgəsinin ləğvi də təmin edilərək Prezident İlham Əliyevin tapşırığı vaxtından bir il əvvəl yerinə yetirildi.

2004-cü ildə təsdiq edilən "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı" ölkəmizdə qaçqın və məcburi köçkünlərə dövlət qayğısının növbəti təzahürü idi. Proqram nəticəsində 2004-cü ildən başlayaraq qaçqın və məcburi köçkünlər üçün respublikamızın müxtəlif bölgələrində yeni yaşayış qəsəbələrinin inşası prosesinə start verildi. Sonrakı illərdə proqrama əlavələr edildi və buna müvafiq olaraq qaçqınların və məcburi köçkünlərin sosial durumunun, yaşayış şəraitinin daha da yaxşılaşdırılması məqsədilə xeyli sayda tədbir həyata keçirildi.

Ümumilikdə qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həlli məqsədilə son 20 ildə 5,1 milyard manatdan çox vəsait ayrılıb ki, bunun da 2 milyard manatdan çoxu mənzil şəraitinin yaxşılaşdırılmasına sərf olunub. Bu illərdə məcburi köçkünlərə aylıq yemək xərci üçün verilən müavinətin məbləği 3,6 dəfə, kommunal xidmətlərə görə vəsaitin miqdarı 4,5 dəfə artıb. Əməkqabiliyyətli 380 min məcburi köçkündən 160 mindən çoxu daimi işlə təmin edilib, 200 min nəfəri isə mövsümi işlərə cəlb olunub.

Bütün bu uğurların təmin olunmasında heç şübhəsiz, bu təbəqədən olan soydaşlarımızın kompleks həllini nəzərdə tutan və Azərbaycan Prezidentinin sərəncamları ilə təsdiq olunmuş məlum Dövlət Proqramı və ona edilmiş əlavələr, həmçinin digər fərman və sərəncamlar, hökumət tərəfindən qəbul olunmuş müvafiq qərarlar xüsusi önəm daşıyır. Çünki əhalinin rifahının yüksəldilməsini, sosial vəziyyətinin yaxşılaşdırılmasını şərtləndirən amillərdən biri də məhz verilən sərəncamların, hökumətin qərarlarının yerlərdə vaxtında və yüksək səviyyədə icra olunmasıdır. Əhalinin sosial durumunun yüksəlməsi həm də ölkədə sabitliyə və davamlı inkişafa təminatdır. Azərbaycan Respublikasının sosial-iqtisadi həyatında görülən işlər ölkəmizdə iqtisadi islahatların dərinləşməsini və bu sahənin müvəffəqiyyətlə irəliləməsini, xalqın həyat səviyyəsinin dinamik olaraq yaxşılaşmasını bir daha sübut edir.

## DÜNYADA AZƏRBAYCAN QƏDƏR QAÇQINLARA DİQQƏT YETİRİLMİR

Bəli, bu, reallıqdır. Bu reallığı bir anlığa beynəlxalq təşkilatların hesabatlarına diqqət yetirməklə aydın görmək olar. Rəsmi məlumata əsasən, hazırda dünyanın bütün münaqişə zonalarında 1 qaçqına 1 ildə sərf olunan ən yüksək vəsait Azərbaycandadır. Elə buna görədir ki, BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı 2012-ci ildə Azərbaycanı özünün İcraiyyə Komitəsinə üzv seçib. İndi beynəlxalq təşkilatlar tərəfindən dinamik sosial-iqtisadi inkişaf yolunda davamlı uğurların müəllifi olan Azərbaycanın qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həlli istiqamətində gördüyü irimiqyaslı işləri dünyanın oxşar problemlə qarşılaşan əksər ölkələri üçün nümunə hesab edilir. Bu isə Ulu Öndər Heydər Əliyevin siyasi, sosial-iqtisadi strategiyasını uğurla həyata keçirən Prezident İlham Əliyevin sözügedən istiqamətdə tədbirləri ardıcıl və məqsədyönlü şəkildə davam etdirməsinin, doğma ocaqlarından didərgin salınan soydaşlarımızın bütün problemlərinin Azərbaycan dövlətinin gündəlik qayğısına çevrilməsinin bariz ifadəsidir.

Verilən sərəncam və fərmanlar, real nəticələr... Və indiyədək 300 minə yaxın qaçqının və məcburi köçkünün mənzil şəraiti yaxşılaşdırılması deyilənlərin təsdiqidir. Ən əsası isə, 2007-ci ildən etibarən Azərbaycanda çadır düşərgələrinin ləğvi prosesi başladı və bu proses çox uğurla başa çatdı. Qeyd etdiyimiz kimi, qaçqın və məcburi köçkünlər üçün həm paytaxtda, həm paytaxtyanı qəsəbələrdə, həm də rayon və kəndlərdə böyük qəsəbələr salınıb. Kürdəxanıda, Qaradağ rayonunda, Abşeronun Masazır, Mehdiabad, Sabunçunun Ramana qəsəbələrində müasir tipli binalar inşa olunub. İndiyə qədər azad edilən ərazilərimizdə qəsəbələr salınıb. Horadiz şəhəri, demək olar ki, yenidən qurulub və bu gün ən gözəl yaşayış yerlərindən biridir. Şıxarx qəsəbəsində mindən çox köçkün ailəsi məskunlaşıb. Yüz əlli evlik Cocuq Mərcanlıda müasir infrastruktur, iş yerləri, kommunikasiyalar yaradılıb.

## İNDİYƏDƏK 300 MİNƏ YAXIN QAÇQININ VƏ MƏCBURİ KÖÇKÜNÜN MƏNZİL ŞƏRAİTİ YAXŞILAŞDIRILIB

Göründüyü kimi, indiyədək 300 minə yaxın qaçqının və məcburi köçkünün mənzil şəraiti yaxşılaşdırılıb. Prezident İlham Əliyevin rəhbərliyi altında yaşanan sürətli inkişaf, məşğulluq, sosial problemlərin effektiv həlli qaçqın və məcburi köçkünlərin üzləşdikləri çətinliklərin böyük miqyasda aradan qalxmasına rəvac verib. Əlverişli sosial atmosferin yaradılması, bütün ölkə miqyasında tərəqqinin sürətlənməsi, yeni iş yerlərinin açılması və əhalinin məşğulluqla təmin edilməsi bu gün məcburi köçkünlərin də davamlı, sabit gəlirləri üçün əsas yaradıb. Onların qarşılaşdıqları mənzil probleminin həllinə də dövlət ən yüksək səviyyədə daim böyük diqqət və qayğı göstərib. Elə bunun nəticəsidir ki, təkcə keçən il 5 min 901 ailə və ya 27 minə yaxın məcburi köçkünün mənzil-məişət şəraiti yaxşılaşdırılıb. Bundan əlavə, müvəqqəti məskunlaşma yerlərində aparılmış təmir işləri nəticəsində 158 ailənin mənzil-məişət şəraiti yaxşılaşdırılıb. Son 19 il ərzində qaçqın və məcbururi köçkünlər üçün ölkənin 30-dan çox şəhər və rayonunda Dövlət Neft Fondundan və digər mənbələrdən ayrılmış vəsait hesabına 3,5 milyon kvadratmetr sahəsi olan, bütün sosial-texniki infrastruktura malik fərdi evlərdən, çoxmərtəbəli binalardan ibarət bu sahədə aparılan işlər nəticəsində artıq 300 min qaçqın və məcburi köçkün yeni mənzillərə köçürülüb, 103 yeni qəsəbə salınıb. Bunun da 3,3 milyon kvadrat metr yaşayış sahəsinə malik 97-si və yaxud 95 faizi son 15 ildə inşa edilib.

## HEYDƏR ƏLİYEV FONDUNUN HƏYATA KEÇİRDİYİ HUMANİST XARAKTERLİ UĞURLU LAYİHƏLƏR

Məcburi köçkünlərin məişət problemlərinin həlli işində dövlətlə yanaşı, artıq özəl sektor da yaxından iştirak edir. "Qobu Park" köçkün şəhərciyinin açılışı bunun bariz nümunəsi oldu. Xatırladaq ki, burada mindən çox ailə üçün yeni binalar, evlər tikilib, bütün infrastruktur yaradılıb. Ən əsası isə həmin layihə özəl sektor tərəfindən təmin edilib, tikilib və maliyyələşdirilib. Həmçinin, onu da qeyd etmək lazımdır ki, qaçqınların və məcburi köçkünlərin sağlamlıqlarının təmini, sosial durumlarının yaxşılaşdırılması, məşğulluqlarının artırılması və digər məsələlərlə bağlı da bir sıra mühüm işlər görülüb. Bu işlərə Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələr də töhfə verir. 2017-2018-ci illərdə Heydər Əliyev Fondunun təşəbbüsü ilə 1481 mənzil, Qaradağ rayonu ərazisindəki "Qobu Park" yaşayış kompleksinin yanında 2-ci yaşayış kompleksində 1300, Dövlət Proqramının icrası üzrə Sabunçu rayonunun Kürdəxanı qəsəbəsində 810, Pirallahı rayonunda 306, Şirvan şəhərində 685, Beyləqan rayonunda 146 ailəlik qəsəbə və yaşayış kompleksləridir.

Azərbaycan Prezidenti İlham Əliyev bütün çıxışlarında, müsahibələrində dəfələrlə bildirib ki, keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qayıdışı üçün bütün uğurlu addımlar atılır. Dövlət başçımızın 16 noyabr 2022-ci ilda imzaladığı "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" Sərəncamı da deyilənlərin göstəricisidir. Astanada keçirilən AQFET-in VI Zirvə Toplantısında dövlətimizin başçısı bildirmişdir: "Biz, həmçinin keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qayıdışı prosesinə başlamışıq. "Böyük Qayıdış" adlanan proqram artıq başlayıb".

Dövlət proqramında nəzərdə tutulan tədbirlər hədəf göstəricilərinə uyğun olaraq 2026-cı ilədək həyata keçiriləcək. Sənədin əsas məqsədləri "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də işğaldan azad edilmiş ərazilərə Böyük qayıdışla bağlı təsbit olunmuş 2 məqsəd: Əhalinin dayanıqlı məskunlaşması və Ərazilərin iqtisadi fəaliyyətə reinteqrasiyası çərçivəsində müəyyən edilib.

Bu məqsədlər ilk növbədə ərazilərdə təhlükəsiz yaşayışı və dövlət idarəetməsini təşkil etmək, şəhər, qəsəbə və kənd yaşayış məntəqələrinin tikintisini və dayanıqlı infrastrukturla təminatını həyata keçirmək, müasir standartlara uyğun xidmətlərin yaradılmasını təmin etmək, ərazilərdə məskunlaşacaq əhalinin sosial müdafiəsini gücləndirmək, əhalinin məşğulluq imkanlarını artırmaq, sosial xidmətlərin əhatə dairəsini genişləndirmək və əlçatanlığı təmin etmək, dayanıqlı sosial-iqtisadi inkişafı təmin etmək, sahibkarlıq mühitinin əlverişliliyini artırmaq və biznes fəaliyyətinin inkişafına dəstək vermək, ərazilərin kənd təsərrüfatı potensialından səmərəli istifadə olunması üçün müasir suvarma infrastrukturu formalaşdırmaq, dayanıqlı və mütərəqqi kənd təsərrüfatı təcrübələrini tətbiq etmək, "ağıllı şəhər", "ağıllı kənd" və "yaşıl enerji zonası" konsepsiyalarının tətbiqini təşviq etmək nəzərdə tutulur.

***RƏFİQƏ KAMALQIZI***

### Rusiya, Avropa İttifaqı, Fransa, yoxsa ABŞ?

# Cənubi Qafqazda sülhü kim istəmir?



44 günlük müharibə bütün daşları yerinə oturtdu, bölgədə yeni geosiyasi mənzərə yaratdı. 30 illik erməni işğalının sona çatması Ermənistana və Azərbaycana beynəlxalq münasibəti kökündən dəyişdirdi. Qaliblər mühakimə olunmur, ifadəsi Ermənistanın ifasında tam ədalətsizliklə şəkillənsə də, 2020-ci ildə Azərbaycanın bütün dünya ölkələri tərəfindən tanınan suveren ərazilərini işğaldan azad etməsi və əldə etdiyi qələbə tam qanuni idi, separatizmi məhv etməkdə haqlı idi. Müharibənin elə ilk günündə bəlli oldu ki, dünyanın heç bir ölkəsi, heç bir beynəlxalq təşkilat Azərbaycanın öz ərazisində apardığı antiterror əməliyyatına qarşı çıxmağa hazırlaşmır. Bəzi təşkilatların arqumenti isə o qədər əsassız və reallıqdan uzaq idi ki...

Müharibə başa çatsa da erməni təxribatları səngimək bilmir, başqa formada regionun və dünyanın başqa-başqa nöqtələrində özünü göstərir. Üçtərəfli bəyanatın müddəalarından biri Rusiya sülhməramlılarının yerləşdirilməsi ilə paralel olaraq erməni silahlı birləşmələrinin Qarabağdan çıxarılması ilə bağlı olsa da, adıçəkilən Azərbaycan ərazilərində xeyli miqdarda, təxminən 10 mindən çox Ermənistan vətəndaşı hələ də hərbi xidmət keçməkdədir. Laçın yolu yalnız humanitar yüklərin daşınması, Qarabağda yaşayan ermənilərin isə Ermənistanla əlaqələr yaratması üçün nəzərdə tutulsa da, ötən iki il ərzində bu yolla ermənilər Azərbaycan ərazilərinə qanunsuz yüklər, hərbi sursat və işğalçı ölkədə 2021-ci ildə istehsal olunmuş minalar daşıyır. Deməli, məğlubiyyət Ermənistana və Qarabağda yaşayan ermənilərə dərs olmadı, deyə bilərik. Əgər ermənilər baş verən hadisələrdən, itkilərdən nəticə çıxarmış olsaydılar bir daha müharibə hazırlığına başlamazdılar.

İrəvana dərs olsaydı sülhməramlıların himayəsi altında erməni separatçıları vasitəsilə Azərbaycan ərazilərindəki yataqlardan çıxardıqları qiymətli metalları, təbii sərvətlərimizi Laçın yolu ilə Ermənistana daşımazdılar. Qarabağda "Qızılbulaq" və "Dəmirli" faydalı qazıntı yataqlarının qanunsuz istismarı nəticəsində ətraf mühitə vurulmuş ziyanın monitorinqinin aparılmasına icazə verilməsini tələb edən azərbaycanlı ekoloqların, qeyri-hökumət təşkilatlarının nümayəndələrinin və fəallarının ötən il dekabr ayının 12-də Şuşa ərazisindən keçən Laçın-Xankəndi yolunda təşkil etdikləri etiraz aksiyası isə ermənilərin "kürkünə birə salıb". Ötən 44 gün ərzində ermənilər dünya birliyinə yalan məlumatlar verərək guya "blokada" səbəbindən Qarabağda, ermənilərin yaşadığı ərazilərdə humanitar böhran yaşanır. Azərbaycan tərəfi isə məsələ ilə bağlı yanlış mövqe tutanlara həqiqəti söyləməklə bərabər, həm də diqqəti Ermənistanın sadə ermənilər üzərindən oyun qurduğuna, Qarabağda taleyin ümidinə buraxılmış, separatçıların təzyiqi altında yaşamaq zorunda qalmış ermənilərin düşdüyü ağır vəziyyətə yönəltməyə çalışır.

Ermənistanla Azərbaycan arasında 30 ildən artıq davam edən münaqişənin sona çatmasında maraqlı tərəflər gözə dəyir. Bunlardan biri Rusiyadır. Rusiya sanki hadisələrə nəzarət edirmiş kimi yanlış təsir bağışlayır. Əslində isə Rusiya 30 ildən qabaq, yəni münaqişə başlamamışdan əvvəl də hadisələrin içində, bölgədə idi. Hadisələrin əsas günahkarının da Rusiya olduğu heç kimdə şübhə doğurmur. Ermənilərin Cənubi Qafqaza köçürülməsində, məskunlaşdırılmasında, onlara Ermənistan adlı dövlətin qurulmasında Rusiya birbaşa iştirak edib. Eyni zamanda münaqişə ocaqları və bu ocaqları alovlandırmaq üçün vasitələr də yaradıb. Birinci Qarabağ münaqişəsi dövründə Ermənistana qələbənin qazanmasında Rusiya çox yaxından yardımçı olub. Bunu Ermənistanın keçmiş baş naziri Hrant Baqdasaryan da öz açıqlamasında deyib. Bildirib ki, 1992-ci ildə bizim ağır məğlubiyyətə uğramağımız an məsələsi idi. Lakin Rusiyanın, xüsusən də Rusiyanın o zamankı müdafiə nazirinin müavini Qaydayın bilavasitə rəhbərliyi altında hərbi yardımın təşkili Ermənistanın Qarabağda qələbə əldə etməsi üçün yetərli oldu. Keçmiş Muxtar Vilayətin inzibati ərazilərindən kənarda olan Azərbaycanın daha 7 rayonu da ələ keçirildi.




Bu gün Rusiya özünün yaratdığı problemləri həll etmən kimi imitasiyalarla məşğuldur. Başı Ukraynada müharibəyə qarışıb, dünya gücləri üstünə gəlir, çoxsaylı sanksiyalar bu ölkənin Qərblə iqtisadi əlaqələrini demək olar ki, sıfıra endirib. Moskva ölkədə başlanan sosial problemin daha da dərinləşməməsi üçün yollar axtarır. Bu yollardan biri də yeni partyorlar axtarmaqdır ki, bunun üçün də şərqə üz tutub. Bir sözlə Rusiya Cənubi Qafqazda 30 il davam edən münaqişəyə bütün gücü ilə diqqət ayıra bilmir. Çəkilib getmək də istəmir. Suriyada olduğu kimi, ara-sıra özünün varlığını göstərməklə böyük güclərə bu bölgələri asanlıqla əldən verməyəcəyini deyir. Amma Qərb koalisiyası Ukraynada oyuna gətirdikləri Rusiyanı təsir dairəsində qalan regionlardan qovub çıxarmaq üçün hər cür vasitələrdən yararlanmaq istəyir.

Ermənistanla Azərbaycan arasında hələ də imzalanmamış sülh müqaviləsinin reallaşması üçün Rusiyadan sonra Avropa İttifaqı (Aİ) da test etmək niyyətini ortaya qoymuşdu. Aİ Şurasının prezidenti Şarl Mişelin təşkilatçılığı ilə 3 görüş də keçirildi. İlk baxışda elə təəssürat yaranmışdı ki, bu formatda görüş Ermənistanla Azərbaycanın barışını təmin edə biləcək. Üçtərəfli görüşə dördüncü tərəfin, daha doğrusu Avropanın subyektlərindən birinin - Fransanın prezidentinin qoşulması görülən işlərin üstündən birdəfəlik xətt çəkdi. Şarl Mişel tərəfsiz bir lider təsiri bağışlasa da Emmanuel Makronun ermənipərəstliyi, "böyük haxçi" olması danışıqları dalana dirədi. Hətta sonuncu görüş keçirilmədən sona çatdı. Fransa Senatının və Milli Assambleyasının qətnamələri sülh danışırlarında Fransanın vasitəçilik missiyasına öldürücü zərbə vurdu. Əslində Rusiyanın başlatdığı və 3 dəfə keçirdiyi üçtərəfli görüşlərdə əvvəlki illərə nisbətən irəliləyiş gözə dəyirdi. Tam olmasa da, hər halda işğal müddətində yaranmış mənzərədən fərqli



bir tablo çəkilmişdi. Avropa İttifaqının danışıqlara yeni rəng verməsi Rusiya farmatını da canlandırmışdı, yəni Moskvanın təşəbbüsü əldən vermək istəməməsi danışıqların keyfiyyətinə müsbət təsir göstərmişdi. Rəqabət öz sözünü deyirdi. Makronun lüzumsuz müdaxiləsi isə...

Yeri gəlmişkən Azərbaycanın Fransadakı səfiri Leyla Abdullayeva özünün "Twitter" səhifəsində yazıb ki, Avropa İttifaqının Ermənistana missiya göndərməsi bu ölkənin öhdəliklərini yerinə yetirməkdən yayınması üçün bəhanə olmamalıdır. O qeyd edib ki, missiya sərhədlərin delimitasiyası prosesi də daxil olmaqla, Azərbaycan və Ermənistan arasında normallaşma prosesini pozmaq üçün istifadə edilməməlidir. Xatırladaq ki, Avropa İttifaqı Ermənistan-Azərbaycan sərhədinə növbəti missiyanın göndərilməsi barədə razılıq verib. Missiyanın ilkin mandatı iki illik nəzərdə tutulacaq, operativ qərargahı isə Ermənistanda yerləşəcək. Mülki əməliyyatlara Aİ-nin Xarici Fəaliyyət Xidmətinin Mülki Planlama və Davranış (CPCC) üzrə idarəedici direktoru Stefano Tomat rəhbərlik edəcək. Yaxın gələcəkdə yerli səviyyədə əməliyyatlara nəzarət etmək üçün missiya rəhbəri təyin ediləcək.

Bu arada isə Fransa prezidenti Emmanuel Makron Fransanın Erməni Təşkilatları Koordinasiya Şurasının (CCAF) həmsədrləri Ara Toranyan və Murad Papazyanla görüşüb. Görüş zamanı qondarma erməni soyqırımı, Laçın yolu ilə bağlı məsələlər və Ermənistanın təhlükəsizliyi ətrafında müzakirələr aparılıb. Təbii ki, erməni təşkilatlarının rəhbərlərinin prezident səviyyəsində qəbul olunmasını Parisin anti-Azərbaycan siyasətinin bir parçasıdır. Əslində Toranyan və Papazyan siyasi meydanda erməni diasporunun təmsilçiləri kimi maskalansalar da, onların terrorçuluq fəaliyyəti, qaranlıq siyasi keçmişi bir çoxlarına məlumdur. Yelisey sarayında qəbul olunan Ara Toranyan və Murad Papazyan əslində kimdir?




Ara Toranyan (Jan-Mark Ara Toranyan) - ASALA terror təşkilatının rəhbəridir. Terrorçu Monte Melkonyan öldürüldükdən sonra təşkilatın lideri Ara Toranyan olub. O, Türkiyə əleyhinə ciddi fəaliyyəti ilə tanınır. Fransada erməni lobbisinin rəhbəri Jan-Mark Ara Toranyan 1980-ci illərdə Orli hava limanında 1983-cü ildə törədilmiş dəhşətli təxribatın arxasında duran ASALA-nın (Ermənistanın Azadlığı Naminə Gizli Erməni Ordusu) sözçüsü idi. Həmin terror aktında ikisi türk, dördü fransız olmaqla səkkiz nəfər ölümüşdü, 55 nəfər isə yaralanmışdı.

*Ardı Səh. 5*







# Cənubi Qafqazda sülhü kim istəmir?

Əvvəli Səh. 4



Toranyanın Fransanın hazırki hakimiyyəti ilə yaxın əlaqələri var. 2021-ci ilin 25 aprel tarixində Fransa prezidenti qondarma erməni soyqırımı abidəsini ziyarət edərkən Toranyan da onun yanında olub. Jan-Mark Ara Toranyan Avropada Azərbaycan əleyhinə qəbul olunan qətnamələrin əsas təşəbbüskarlarındandır. O, hazırda Fransada erməni lobbisinə də rəhbərlik edir.

Murad Papazyan - Fransada Azərbaycan əleyhinə təşkil olunan kampaniyaların əsas rəhbərlərindəndir. Ötən il iyulun 19-da Fransadakı erməni təşkilatları koordinasiya şurasının (CCAF) həmsədri, "Daşnaksütyun" təşkilatının bürosunun üzvü Murad Papazyanın rəhbərliyi ilə "Daşnaksutyun" partiyasının və beynəlxalq səviyyədə terror təşkilatı kimi tanınan ASALA-nın ideoloji tərəfdaşları və davamçıları olan "Gənc daşnaklar" (FRA Nor-Seround) fraksiyasının üzvləri Parisdəki Azərbaycan səfirliyi qarşısında mitinq keçirmişdi. Həmçinin Papazyan Azərbaycan diasporunun Ermənistan səfirliyi qarşısında təşkil etdiyi qanuni aksiyanın qarşısını almağa çalışan şəxslərdən biri olub. Papazyan bu məqsədlə Parisin meriyasından başlayaraq bütün aidiyyəti instansiyalara yazılı müraciət etmişdi. Amma onun diasporamızın qanuni aksiyasına mane olmaq cəhdləri alınmayıb və əksinə, aksiya polis və jandarmlar tərəfindən mühafizə olunub. Papazyan həmçinin baş nazir Nikol Paşinyanın əsas əleyhdarlarındandır. O, 2022-ci ilin avqustunda verdiyi açıqlamada Nikol Paşinyana qarşı sərf fikirlər səsləndirmişdi. Bildirmişdi ki, Paşinyan Ermənistanı avtoritar dövlətə çevirir. Ötən il İrəvana səfərə gələn Murad Papazyan "arzuolunmaz şəxs" elan olunduğu üçün hava limanından geri qaytarılmışdı.

Göründüyü kimi, Ara Toranyan ASALA, Murad Papazyan isə "Daşnaksutyun" terror təşkilatının siyasi meydandakı əsas fiqurlarıdır. Makronun isə terrorçuları, siyasi fəaliyyəti anti-Türkiyə və anti-Azərbaycan məqamlarla dolu olan şəxsləri Yelisey sarayında qəbul edir. Rəsmi Paris Azərbaycana qarşı hətta terrorçularla da ittifaq yaratmaqdan belə çəkinmir, onlarla bir masaya əyləşir. Makronun Murad Papazyanla görüşü Paşinyan hakimiyyəti üçün də açıq mesajdır. Çünki Papazyan Paşinyanın əsas əleyhdarlarından hesab olunur. Məlum olur ki, Makron Cənubi Qafqaza daxil olmaq üçün anti-Paşinyan ittifaqı ilə də əməkdaşlıq etməyə hazırdır. Beləliklə, bu faktlar sübut edir ki, rəsmi Paris Cənubi Qafqazda sülhə heç bir töhfə vermək niyyətində deyil. Əksinə yeni münaqişə ocağı yaratmaq, gərginliyi artırmaq üçün terrorçularla ittifaq qurmağa çalışır. Ona görə də Parisin Azərbaycan-Ermənistan sülh prosesində iştirakı, ona hər hansı söz haqqının verilməsi mümkünsüzdür.

Yanvarın 23-də ABŞ dövlət katibi Antoni Blinken Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib. Telefon söhbəti zamanı ABŞ dövlət katibi Azərbaycan ərazisində Laçın dəhlizində yaranmış vəziyyətlə bağlı narahatlığını bildirib. Antoni Blinken ABŞ-ın Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılmasına sadiqliyini ifadə edib və sülh müqaviləsi üzrə danışıqları dəstəklədiyini bildirib. Prezident İlham Əliyev Laçın-Xankəndi yolunda hər hansı blokadanın olmadığını qeyd edərək, 2022-ci il 12 dekabr tarixindən etibarən 980-nə yaxın nəqliyyat vasitəsinin bu yoldan keçidinin təmin olunduğunu vurğulayaraq, onların 850-dən çoxunun Rusiya sülhməramlılarına, 120-dən artığının isə Beynəlxalq Qızıl Xaç Komitəsinə məxsus olduğunu deyib. Eyni zamanda, Azərbaycan Prezidenti Qarabağda yaşayan 90-a yaxın xəstə və tibbi yardıma ehtiyacı olan şəxsin Beynəlxalq Qızıl Xaç Komitəsinin vasitəsilə Ermənistana aparılmasının təmin edildiyini vurğulayıb. Prezident İlham Əliyev bildirib ki, bütün bunlar Laçın-Xankəndi yolunun Azərbaycan tərəfindən bağlanmadığını göstərir.

Dövlətimizin başçısı vurğulayıb ki, Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində Azərbaycanın faydalı qazıntı yataqlarının qanunsuz istismarı dayandırılmalı və həmin ərazidə Azərbaycanın daimi monitorinq və təftiş aparmaq imkanı təmin edilməlidir. Azərbaycan Prezidenti Ermənistan tərəfindən 2021-ci ilin istehsalı olan minaların qanunsuz olaraq Laçın yolundan istifadə edilərək daşındığını bildirib. Prezident İlham Əliyev ölkəmizin sülh prosesinə və Ermənistan ilə Azərbaycan arasındakı münasibətlərin normallaşdırılmasına sadiq olduğunu qeyd edib. Dövlətimizin başçısı vurğulayıb ki, Ermənistan ilə Azərbaycan arasında imzalanacaq sülh müqaviləsi beynəlxalq hüququn norma və prinsipləri, Azərbaycanın təqdim etdiyi beş prinsip əsasında yalnız ikitərəfli münasibətlərin normallaşdırılmasını özündə ehtiva etməlidir.

Prezident İlham Əliyev Azərbaycanın Qarabağ iqtisadi zonasında yaşayan mülki erməni əhalisinin hüquqlarının və təhlükəsizliyinin Azərbaycan Respublikasının Konstitusiyası və qanunları əsasında təmin olunacağını qeyd edib. Telefon söhbəti əsnasında qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Azərbaycanın xarici siyasətinin əsas amili tərəfdaş dövlətlərin maraqları ilə milli mənafelərimizi qarşılıqlı əməkdaşlıq sahəsində inkişaf etdirməkdir. Bu gün respublikamızın Amerika Birləşmiş Ştatları və Avropa Birliyi ölkələri ilə münasibətlərinin qarşılıqlı tərəfdaşlıq səviyyəsində davam etdirilməsi Prezident İlham Əliyevin dünyada möhkəmlənən şəxsi nüfuzunun, siyasi qətiyyət və hazırlığının nəticəsidir. Cənubi Qafqazda siyasi, hərbi, iqtisadi qüdrəti ilə liderliyini qoruyan Azərbaycan artıq bölgədə sabitliyin təminatı üçün önəmli reallıqların müəllifi, təşəbbüskarıdır.

Amerika Birləşmiş Ştatları ilə münasibətlərin tərəfdaşlıq səviyyəsində inkişafı Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərindəndir. ABŞ Prezidenti Co Baydenin xalqımızın milli bayramlarında, o cümlədən Müstəqillik Günündə dövlət başçımız İlham Əliyevə göndərdiyi təbrik məktubları qarşılıqlı əməkdaşlığın 30 illik uğurunun ifadəsidir. Bu etimad o deməkdir ki, ABŞ-ın Cənubi Qafqazdakı siyasətində Azərbaycan amili, Prezident İlham Əliyevin qətiyyəti xüsusi önəm daşıyır. ABŞ Prezidentinin Avropa və dünyanın enerji təhlükəsizliyinin təminatında Azərbaycanın roluna verdiyi yüksək qiymət azərbaycanlı həmkarı İlham Əliyevin enerji mənbələrini şaxələndirmək siyasətinin Qərbdə çox ardıcıl izləndiyinin etirafıdır.

Azərbaycanın tam potensialına nail olunması, o cümlədən şaxələndirilmiş iqtisadiyyatın təşviqi, bərpaolunan enerji mənbələrinə investisiyaların yatırılması ilə iqlim dəyişikliyinə qarşı mübarizədə qlobal məqsədlərə töhfənin verilməsi, qanunun aliliyi və hesabatlılığın möhkəmləndirilməsi, Azərbaycan xalqının yaşayış standartlarının yüksəldilməsi istiqamətində İlham Əliyevin davamlı addımları ABŞ tərəfindən alqışlanır.

Cənubi Qafqazda davamlı sülhün, iqtisadi tərəqqinin bərqərar olması üçün əlverişli şəraitin formalaşdığı bir zamanda ABŞ-ın Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılmasında, kommunikasiyaların açılmasında, insanlararası təmasların yaradılmasında mühüm rol oynaya biləcəyi real görünür. Azərbaycan tərəfimizdən təqdim olunan beş prinsip əsasında Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin hazırlanması prosesinə ABŞ-ın dəyərli töhfə verə biləcəyi qənaəti də aktuallığını qoruyub saxlayır. Ermənistanın işğalından azad edilən ərazilərin minalardan təmizlənməsinə yardım edən ABŞ-ın Ermənistan-Azərbaycan münaqişəsi zamanı itkin düşmüş 4000-ə yaxın soydaşımızın taleyinin aydınlaşdırılması məsələsində ölkəmizə dəstək göstərəcəyinə ümid edilir. İnanmaq olar ki, Azərbaycanla ABŞ-ı birləşdirən dostluq və qarşılıqlı faydalı əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq birgə səylərimizlə bundan sonra da müvəffəqiyyətlə davam edəcək və genişlənəcək.

***V.VƏLİYEV***

# Multikulturalizm həyat tərzimizdir



Dünyanın aparıcı güc mərkəzləri, bəzi iddialı ölkələr insan hüquqları, din azadlığı anlayışından öz geosiyasi, geoiqtisadi maraqlarını təmin etmək üçün bir vasitə kimi istifadə edirlər. Belə bir zamanda Azərbaycan əsası Ulu Öndər tərəfindən qoyulan nümunəvi dövlət-din münasibətləri və müasir multikulturalizm siyasəti həyata keçirir. Bu siyasət bəşəri dəyərlər sisteminə, xüsusilə beynəlxalq təhlükəsizliyə qarşı yaranmış təhdidlərin qarşısının alınmasında çox önəmli strategiyaya çevrilib. Dünyada radikalizmin, ekstremizmin fəsadlarına yönəlik mübarizədə Azərbaycan strategiyasının alternativi yoxdur. Dini dözümlülük, tolerantlıq, multikulturalizm artıq Azərbaycanın dövlət siyasətinin prioritet istiqamətlərindən biri, xalqımızın həyat tərzidir. Bu istiqamətdə görülən işlər milli-mənəvi və tolerantlıq dəyərlərinin təbliği və təşviqində, eləcə də ayrı-ayrı dini konfessiyalar arasında sağlam münasibətlərin formalaşmasında müstəsna əhəmiyyət kəsb edir.

Əsas Qanunumuzda irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi mövqeyindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyi nəzərdə tutulmuş, insan və vətəndaş hüquqlarının və azadlıqlarının göstərilən əsaslara mənsubiyyətinə görə məhdudlaşdırılması qadağan edilib. Ölkəmizdə yaşayan qeyri-xalqların nümayəndələri ilə xalqımız əmin-aman şəraitdə yaşayır, birlik, həmrəylik nümayiş etdirirlər. Çətin, ağır, eləcə də xoş günlərdə bir-birinin yanındadırlar. Azərbaycan Respublikasındakı etnik icma rəhbərləri Ermənistanın 2020-ci il iyul ayının 12-dən etibarən, Azərbaycanın Tovuz bölgəsində törətdiyi hərbi təcavüz aktlarını, təxribatları qətiyyətlə pislədilər. Bununla bağlı Azərbaycan Respublikasındakı etnik icma rəhbərləri birgə bəyanat yaydılar. Belə ki, Talış Mədəniyyət Mərkəzi, Azərbaycanda Rus İcması, Azərbaycan-Avar İcması İctimai Birliyi, Bakı Dağ Yəhudiləri Dini İcması, Azərbaycan Respublikasının Alban-Udi Xristian Dini İcması, Avropa Yəhudilərinin Bakı Dini İcması və digər icma rəhbərləri təmsil etdikləri Azərbaycan xalqları adından Azərbaycanın Tovuz bölgəsində törətdiyi hərbi təcavüz aktlarını, təxribatları qətiyyətlə pislədilər. Həmin təcavüz aktları nəticəsində Azərbaycanın ondan çox hərbi qulluqçusu, o cümlədən yüksək rütbəli zabitlər və bir dinc sakini həlak olmuşdur. Milli ordumuzun sıralarında Azərbaycanda yaşayan xalqların yüzlərlə nümayəndələri - əsgər və zabitləri var. Vətən Müharibəsi dövründə müxtəlif xalqların övladları da Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin çağırışına səs verərək, könüllü olaraq orduda xidmət etmək, Azərbaycanın ərazi bütövlüyünü qorumaq, torpaqlarımızı mənfur düşməndən təmizləmək istəyi ilə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə müraciət etmişdilər. Azərbaycanda elə bir xalq yoxdur ki, bu müqəddəs amal uğrunda mübarizədə şəhid verməsin. Torpaqlarımızın azadlığı uğrunda canlarından keçən qəhrəmanların hər birinin ruhu qarşısında ehtiramla baş əyirik.

Ermənistan dəfələrlə Azərbaycanda yaşayan xalqların içərisinə ədavət toxumu səpməyə, süni qarşıdurma yaratmağa çalışmış, lakin öz mənfur niyyətinə nail ola bilməmişdir. Əksinə, onların çirkin təxribatları, dinc əhaliyə qarşı törətdikləri cinayətlər, döyüş bölgələrində verdiyimiz şəhidlər bizim sıralarımızı daha da genişləndirir. Azərbaycanın ən böyük sərvəti onun etnik müxtəlifliyi, burada yaşayan bütün xalqların tarixi birliyi və qardaşlığıdır. Ölkəmizdə indiyədək etnik və dini zəmində qarşıdumaların baş verməməsi Azərbaycanın yürütdüyü milli siyasətin parlaq təzahürüdür.

Azərbaycan Prezidenti çıxışlarının birində bildirdiyi kimi, tarix və coğrafiyamız nümayiş etdirir ki, biz yalnız tərəfdaşlıq və qarşılıqlı hörmət ruhunda uğura nail ola bilərik. "Azərbaycanın bugünkü sürətli inkişafı da məhz bu mədəni irsimizə və cəmiyyətimizin bütün nümayəndələrinin nümayiş etdirdiyi həmrəyliyə əsaslanır. Biz tariximiz, tarixi abidələrimizlə fəxr edirik. Onlar da əsrlər boyu müxtəlif dinlərin nümayəndələrinin Azərbaycanda yaşayıb-yaratdıqlarını göstərir. Biz qədim tariximizlə fəxr edirik", - deyən dövlət başçısı bildirib ki, dünyanın ən qədim məscidlərindən biri qədim Şamaxı şəhərində yerləşir:"Qafqazın ən qədim kilsələrindən biri olan Qafqaz Albaniyasına məxsus kilsə bizim qədim Şəki şəhərindədir. Bizim tariximiz mədəni müxtəliflik tarixidir və bu gün həmin tarixi irs əsasında Azərbaycan dünyaya mədəniyyətlərarası dialoqun ölkələri yaxınlaşdırmağın, müxtəlif mədəniyyət və sivilizasiya nümayəndələri arasında yeni körpülərin qurulmasının yeganə yol olduğunu nümayiş etdirir".

***Zümrüd BAYRAMOVA***

# Avropa Parlamentinin "erməni sevgisi"

## Qərəzli qətnamə Azərbaycan üçün bir kağız parçasıdır



Bəli, yenə də eyni ssenari, eyni istiqamət - Avropa Parlamenti növbəti dəfə ermənipərəst mövqe nümayiş etdirərək, Azərbaycana qarşı tamamilə yalanlardan ibarət növbəti qətnamə qəbul edib. Prezident İlham Əliyev cənablarının söylədiyi kimi, bu mənasız kağız parçaları o qədərdir ki, sayı da yaddan çıxıb. "Mən hətta Avropa Parlamentinin müxtəlif vaxtlarda qəbul etdiyi anti-Azərbaycan qətnamələrinin sayını da yaddan çıxarmışam". Bunu Prezident İlham Əliyev Avropa Parlamentinin Xarici Əlaqələr Komitəsinin sədri Devid MakAlisterin başçılıq etdiyi nümayəndə heyətini qəbul edərkən çıxışı zamanı deyib. Dövlət başçısı bildirib: "Uzun müddət idi ki, Avropa Parlamentindən nümayəndə heyəti gəlmirdi. Yadımdadır, sonuncu nümayəndə heyəti 2018-ci ildə gəlmişdir. Səmimi desək, mən Azərbaycana səfərinizi planlaşdırdığınızı eşidəndə, hətta bir az təəccübləndim. Ola bilsin, səbəb sizə məlumdur. Əməkdaşlığın inkişafı ilə bağlı geniş şəkildə müzakirə etdiyimiz görüş yadımdadır. Lakin əfsuslar olsun ki, bu, baş tutmadı. Səbəb bizimlə yox, Avropa Parlamentinin bəzi üzvlərinin mövqeyi ilə bağlı idi. Biz həmin mövqeni tamamilə əsassız hesab edirik. Bizə qarşı ittihamlar, təhqirlər səsləndirildi və yalan məlumatlar yayıldı. Mən hətta Avropa Parlamentinin müxtəlif vaxtlarda qəbul etdiyi anti-Azərbaycan qətnamələrin sayını da yaddan çıxarmışam. Ola bilsin, 10-dan artıq qətnamədən söhbət gedir. Xüsusən də, Vətən müharibəsindən sonra bir qətnamə qəbul edilmişdir. Bu, ayrıca narahatlıq doğurur, çünki həmin qətnamədə Qarabağda erməni mədəni irsinin dağıdılmasına istinad edilir. Bu isə həqiqətə uyğun deyil".

Bu sözügedən təşkilatın həqiqətləri görməzdən gələrək ölkəmizə qarşı nə birinci, nə də sonuncudur. Burda yadıma küçə uşaqlarının işlətdikləri söz düşdü: "bez prizovnıy" Əvvəldən sona qədər yalanlardan ibarət olan kağız parçasında guya ötən ilin sentyabr ayında Azərbaycanın Ermənistana "təcavüz etdiyi" yazılıb. Əslində isə, həmin tarixdə Ermənistan üçtərəfli Bəyanatın müddəalarını kobud şəkildə pozaraq, bizə qarşı hücuma keçməyə cəhd göstərmişdi. Nəticədə Azərbaycanın güclü Ordusu növbəti dəfə onları darmadağın edi və bu gün əldə etdiyimiz uğurlar, o cümlədən 44 günlük Vətən müharibəsindəki tarixi faktları, real həqiqətləri inkar etməklə nəyəsə nail olmağın mümkünsüzlüyü 44 gündə 30 ilin işğalına son qoyulması ilə tarixi Zəfər düşmənlərimizi və onların xarici havadarlarını yasa qərq edib. Buna görə də hər fürsətdə Azərbaycana qarşı addıma, müxtəlif çirkin vasitələrə əl atan Avropa Parlamenti "erməni sevgisini" nümayiş etdirmək üçün 18 yanvar tarixində qəbul edilmiş qətnaməsi də buna daha bir sübutdur. Mənasız və qərəzli cəfəng qətnamədə həmçinin, Azərbaycanın Laçın dəhlizini guya "blokadaya alması" pislənilib. Bu fakt da, orada yazılanların necə reallıqdan uzaq olduğunun sübutudur. Çünki yolun bağlı olmadığını bütün dünya görür və bölgəyə gələn xarici nümayəndələr də bunu təsdiqləyir. Eyni zamanda, bu yerdə soruşmaq lazımdır ki, yol necə bağlıdır ki, hər gün oradan onlarla avtomobil bu yoldan keçir?

### AVROPA PARLAMENTİ AZƏRBAYCANLA BAĞLI SON QƏRƏZLİ QƏTNAMƏNİ

### QƏBUL ETMƏKLƏ ÖZ RİYAKARLIĞINI BİR DAHA NÜMAYİŞ ETDİRDİ

Çünki bu qətnamə də əvvəlki qətnamələrdən fərqlənmir və qətnamədə əksini tapan fikirlərin tamamilə əsassız ittihamlar və tələblədir. Hamıdan qanun tələb edən bu "qoca təşkilat" niyə özü qanunlara tabe deyil. Avropa Parlamentinin üç əsas səlahiyyəti var: Avropa İttifaqına dair qanunlar qəbul etmək, həmin qanunların yerinə yetirilməsinə nəzarət etmək və Avropa İttifaqının büdcəsinin icrasına nəzarət etmək. Bu səlahiyyətlər Avropa İttifaqına üzv ölkələr tərəfindən müəyyənləşdirilib. Azərbaycanla bağlı qətnamə qəbul etmək isə Avropa Parlamentinin səlahiyyətlərinə daxil deyil. Buna görə də bu qətnamənin qəbulu yersizdir və suveren bir dövlətin daxili işlərinə müdaxilədir. Diqqətə çatdırılıb ki, Avropa Parlamentinin belə addım atması, ümumiyyətlə son illər Avropanın bəzi ölkələrində Azərbaycana qarşı münasibətin dəyişməsi respublikamızın əldə etdiyi böyük nailiyyətlərlə əlaqədar yaranan qısqanclıqdan, paxıllıqdan irəli gəlir. Avropanın ən böyük tədbirləri Azərbaycanda keçirilir. Azərbaycan dünyada görünməmiş qələbəyə - 30 il həsrətə 44 gündə qalib gəlməsi, işğaldan azad olunan torpaqlarda böyük bərpa və quruculuq işlərinin aparılması, özü də öz gücünə, heç kimdən kömək istəmədən. Bu, qısqanclığın, paxıllığın və xüsusilə erməni diasporunun təsirinin nəticəsidir. Avropa Parlamentinin özü korrupsiyaya bulaşmış bir qurumdur. Bu qurumun üzvlərinin nə ilə məşğul olduqları hamımıza çox yaxşı məlumdur.

Bu gün biz Avropada qaçqınlarla nə dərəcədə kobud rəftar edilməsinin şahidi oluruq. Özləri isə insan hüquqlarından, demokratiyadan danışırlar. 30 ildən çoxdur ki, bizim 1 milyondan çox qaçqın və məcburi köçkünümüzün hüquqları pozulur. Avropa Parlamenti niyə susur?! Avropa Parlamenti Azərbaycanda konkret cinayət əməllərinə görə qanunvericiliklə mühakimə olunan iki-üç nəfərin hüquqlarının pozulduğunu deyir. Məgər Avropa ölkələrində cinayət törədənlər məhkəmə qanunu ilə mühakimə olunanda onların hüquqları pozulur?! Niyə onlar Avropa ölkələrində polisin insanlara qarşı tətbiq etdiyi zorakılıqdan, Ermənistanda insanlara qarşı həyata keçirilən kütləvi zorakılıqdan danışmırlar?! Budur onların iç üzü. Bu, riyakarlıqdır, ikiüzlülükdür. Azərbaycanda insan hüquq və azadlıqlarının, söz və mətbuat azadlığının tam təmin olunduğu bir vaxtda reallığı əks etdirməyən belə bir qətnamənin qəbul olunması yolverilməzdir. Bir sözlə, Azərbaycan dövlətinin və xalqının qarşısını belə uydurma qətnamələrlə almaq mümkün deyil.Çünki

### BU QƏRƏZLİ QƏTNAMƏLƏR AZƏRBAYCAN ÜÇÜN KAĞIZ PARÇASINDAN BAŞQA BİR ŞEY DEYİL

Çünki artıq Qarabağ münaqişəsinin iki ildir ki, tarixin arxivinə atıldığı və bölgədə dayanıqlı sülhün, təhlükəsizliyin təmin olunması üçün Cənubi Qafqaz ölkəsi olan Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanması istiqamətində səylərin göstərildiyi bir zamanda Avropa Parlamentinin belə qərəzli, necə deyərlər, erməni dəyirmanına su tökən qətnamə qəbul etməsi bu qurumun qərəzli niyyətlərində olduğunu bir daha sübut edir. Və Avropa Parlamentinin belə bir mövqeyi nəinki artıq xeyli müddətdir davam edən sülh prosesinə zərbə vurur, həm də işğalçı ölkədə hər vəchlə suyu bulandırmağa çalışan revanşist qüvvələri ruhlandırır. Ancaq Avropa Parlamenti kimi məqsədi, məramı sülhə mane olmaq olan beynəlxalq qurumlar unudurlar ki, Azərbaycan 44 günlük İkinci Qarabağ müharibəsində tarixi Qələbəsi ilə ölkəmizə qarşı 30 il sürən bütün qərəzli yanaşmalara son qoydu, Ermənistana və ona havadarlıq edən dövlətlərə, beynəlxalq təşkilatlara tarix, hüquq dərsi keçdi. Və sözügedən biabırçı qətnamədə Azərbaycan Laçın-Xankəndi yolunu blokadaya almaqda ittiham etməsi bir daha Avropa Parlamentinin və onun kimi qərəzli mövqedə olan təşkilatların sonu mənasız olduğu kimi, qəbul etdikləri qərəzli qətnamələri də Azərbaycan üçün bir kağız parçasıdır. Bir sözlə, Avropa Parlamentinin bizimlə bu yollarla danışmağının heç bir mənası yoxdur. Onların qəbul etdiyi sənədlər bizim üçün kağız parçasından başqa bir şey deyil. Bizim işimiz haqq işidir. Biz öz mövqelərimizi istənilən səviyyədə müdafiə edirik və Azərbaycan Prezidenti İlham Əliyevin bu istiqamətdəki siyasəti xalq tərəfindən birmənalı olaraq dəstəklənir.

***RƏFİQƏ HÜSEYNOVA***

**Dünya siyasətində Davos Forumu kimi mühüm hadisənin Paşinyanın iştirakı olmadan baş tutması ermənilər üçün xoşagələn hesab olunmur. Bunu Ermənistan ictimaiyyəti artıq mövcud hakimiyyətə qarşı aydın şəkildə səsləndirir. Hətta, işğalçı ölkənin mətbuat səhifələri bu barədə açıq-aşkar yazır və erməni baş nazirini çox kəskin şəkildə tənqid edərək, bunun bir səhv, bir yanlışlıq, hətta Ermənistan üçün itirilmiş bir fürsət olaraq qeyd edirlər.**




# Davos Forumu, yaxud
# ERMƏNİSTAN ÜÇÜN İTİRİLMİŞ FÜRSƏT

Hazırda rəsmi İrəvan, hətta ermənilərin böyük əksəriyyəti istənilən platformadan, istənilən fürsətdən Azərbaycan əleyhinə istifadə etmək üçün dəridən-qabıqdan çıxırlar və hər vəchlə bizə məxsus olana sahib çıxmaq, Azərbaycan həqiqətlərinə kölgə salmaq üçün bütün imkanlarını səfərbər etmək niyyətindədirlər. Belə bir "əhval-ruhiyyədə" olan cəmiyyət üçün hansısa platformanı əldən çıxarmaq fürsəti qaçırmaq hesab olunur. Məhz Ermənistanın baş nazirinin, Nikol Paşinyanın Davos İqtisadi Forumunda iştirak edə bilməməsi bu mənada ermənilərin yuxusunu ərşə çəkib və bunun heyfini ondan almaq üçün kifayət qədər fürsət axtaranlar var, əks halda erməni mətbuatı bu barədə bar-bar bağırmazdı.

AŞPA-nın qış sessiyasının başladığı ərəfədə Ermənistan nümayəndə heyətinin əldən ayaqdan getməsi özü erməni cəmiyyətinə, daxili auditoriyaya hesablanan addımdır. İndi rəsmi İrəvan elə bir təsəvvür yaratmağa şalışır ki, guya Azərbaycana qarşı sanksiyalarla bağlı qətnamələrin qəbuluna AŞPA-nı məcbur edəcək. Bəli, guya hətta məcbur edəcək və heç bir məna kəsb etməyən, heç bir təsirə malik olmayan rutin bəyənatla kifayətlənməsinə də qarşı çıxacaq. Amma reallıq bundan ibarətdir ki, Ermənistan hakimiyyəti bu yalanına heç özü belə inanmır. Paşinyan və onun hakimiyyət komandası yaxşı bilir ki, heç nəyə nail olmaq şansına malik deyil. Elə buna görə də Davos İqtisadi Forumunda iştirak etmək ağlından belə keçməmişdi, hərçənd erməni cəmiyyəti bunu itirilmiş fürsət hesab edir. Məsələ burasındadır ki, onların, yeni işğalçı qüvvələrin düşündükləri fürsət barədə söhbət belə gedə bilməzdi, amma hansısa normal danışıqlara, sülh razılaşmaları istiqamətində müsbət nəticələrə doğru hansısa danışıqlara gəlinəcəkdisə, bununla da ermənilər, bütövlükdə Ermənistan məhv olma təhlükəsindən xilas olacaqdısa, bu, həqiqətən də onlar üçün itirilmiş şans, fürsət hesab oluna bilərdi. Fəqət, erməni baş nazir yaxşı başa düşür ki, bu zamana qədər artıq erməni cəmiyyətinin beyni, düşüncəsi elə zəhərlənib ki, həmin cəmiyyət heç Nikol Paşinyanın özünə belə bu ixtiyarı vermir və bu baxımdan da o bunu fürsət hesab etməyib. Əks halda, Nikol özü bu foruma qatılmaq üçün ən azından dəridən-qabıqdan çıxardı.

Nikol Paşinyana xüsusi xatırlatmalar edilir, özü də mətbuat səviyyəsində və bildirilir ki, böyük bir fürsəti qaçırıb. Məsələn, erməni mətbuatı Ukraynanın Davosda necə işlədiyini misal çəkir, öz hakimiyyətinə nümunə göstərir. Qeyd olunur ki, çərşənbə axşamı Davosda Dünya İqtisadi Forumunda çıxış edən Ukraynanın birinci xanımı Olena Zelenskaya Çin nümayəndə heyətinə Ukrayna prezidentinin müharibəni dayandırmaq və Rusiyanın Ukraynaya təcavüzünə son qoymaq təklifləri ilə bağlı məktub göndərəcəyini bildirib. Bu "nümunə" ilə Paşinyana bildirilir ki, həmin addın çox mühüm addım idi və guya erməni baş nazir də, yaxud onun xanımı da buna uyğun addım ata bilərmiş. Amma bu yanlış bir oxşatma, bənzətmə, yaxud uğursuz nümunə hesab olunur. Əvvəla ona görə ki, Ermənistan Ukrayna ilə müqayisəyə gələ bilən deyil və tamamilə fərqli məsələlərdir. Əgər Ukrayna məsələsi Qərbin layihəsidirsə və müharibəyə də bu ölkəni Qərb təhrik edirsə, qızışdırırsa, bütün resurslarla təmin edirsə, Ermənistan bu məsələdə tamamilə fərqli müstəvidə, fərqli məqamdadır. Çünki Qərb Ukraynanın əli ilə Rusiyaya qarşı bütün planlarını ortaya qoyub və Kremli diz çökdürmək üçün bütün gücü ilə ukraynalılara dəstək göstərir. Amma Ermənistanın vəziyyəti heç də belə deyil və bu işğalçı ölkə işğal faktı, qanunsuzluqları, terrorçuluğu, separatçılığı ilə gündəmə gəlib və məqsədi də özgə torpaqlarına, başqalarına məxsus olana həyasızcasına sahib çıxmaqdır və belə bir vəziyyətdə Qərbdən dəstək gözləyərən Davos Forumda nəyə isə istədikləri şəkildə ümid etmələri axmaqlıqdır. Digər tərəfdən də axı Ukraynadakı vəziyyətdən fərqli olaraq, nə Ermənistanda müharibə gedir, nə də bu ölkənin iştiraklı ilə müharibə davam edir. Müharibə də bitib, haqq, ədalət də öz yerini tutub, BMT Qətnamələri də Azərbaycan tərəfindən icra olunub və ölkəmiz qarşısında cəmi 44 gün ərzində diz çökən işğalçı tərəf öz xahişi və qonşu ölkələrin yardımı ilə təslimçilik sənədinə, kapitulyasiya aktına imza atıb. Eyni zamanda, hər dəfə danışıqlar masasında sülh müqaviləsi barədə Ermənistan tərəfi vədlər verib. Ümumiyyətlə, Ermənistanın vəziyyətini Ukrayna ilə müqayisə etmək belə səhvdir. Bu baxımdan da Ukraynanın Davos Forumunda çıxışı tam fərqli bir məsələdir və bunu Ermənistanla müqayisə etmək ən yaxşı halda sadəlövhlükdür, ağılsızlıqdır. Bir sözlə, erməni cəmiyyətinin düşündüyü şəkildə bu hal heç də fürsət olaraq görülə bilməz.

Doğrudur, Zelenskaya oxşar məktubları Avropa Komissiyasının sədri Ursula fon der Leyen və İsveçrə prezidenti Alen Berseyə də təqdim edib. O, həmçinin forum nümayəndələrini və onların ölkələrini müharibəni dayandırmaq üçün mümkün olan hər şeyi etməyə çağırıb. O vurğulayıb ki, Ukrayna məğlub olarsa, bu müharibənin qlobal nəticələri daha da pis olacaq. Yaxşı bəs sual olunur ki, bu fonda Ermənistan tərəfinin nümayəndəsi nə deyəcəkdi? Deyə biləcəkdimi ki, Ermənistan məğlub olarsa, bu müharibənin qlobal nəticələri daha da pis olacaq? Axı deyə bilməyəcəkdi. Çünki, əvvələ müharibə elə Ermənistanın məğlubiyyəti ilə qurtarıb və heç də qlobal nəticələri pis olmayıb, əksinə, bölgədə təhşükəsizlik təmin olunub, sürətli inkişafa, tərəqqiyə zəmin yaradılıb. Bunu bütün dünya belə qəbul da edib. Digər tərəfdən də Azərbaycanın haqlı mübarizəsinə dünya ictimaiyyəti tərəfindən haqq da qazandırılıb və məsələ çoxdan bitib, heç bir məsələ, ələlxüsus Qarabağ məsələsi qalmayıb, bütün məsələlər keçmişdə qalıb. Belə olan halda Ermənistanın məhz Ukrayna kimi hansısa məsələni qaldırması ən azından gülüş və istehza doğura bilərdi və Paşinyanın da bunu başa düşərək Davos Forumuna can atmaması bu baxımdan başadüşüləndir. Yenə də aydın olur və əminlik yaranır ki, bu forumda iştirak işğalçıların düşündükləri mənada heç də fürsət deyildi və bu da bir utopiya, bu da bir cəfəng xam xəyal idi.

"Biz Avropa Sülh Fondu vasitəsilə Ukraynaya hərbi yardımımızı davam etdirəcəyik. Onların təcili olaraq daha çox silaha ehtiyacı var və mən şəxsən Ukraynaya tankların verilməsinin tərəfdarıyam", deyə Avropa Şurasının prezidenti Çarlz Mişelin Strasburqda Avropa Parlamentinin plenar iclasında bildirdikləri də işğalçıların olmayan ağıllarını da başlarından alıb. Bu işğalçı qüvvələr hələ də silahsursat yardımına bel bağlayır, ümid edir və arzuları elə ancaq silahla bağlıdır. Sual olunur ki, niyə Ermənistana silah verməlidirlər və buna işğalçı qüvvələr nə ağılla ümid edirlər? İşğalçılara, separatçılara silah verilsin ki, daha böyük miqyasda terrora hazırlaşsınlar? Silah verilsin ki, Xocalı misalında hansısa soyqırım planlasınlar? Nikol Paşinyanın Davos Forumu zamanı bunu istəməsini arzulayırdılar? Bunu itirilmiş fürsət hesab edirdilər? Əgər bunu fürsət hesab edirlərsə, bərk yanılırlar. Əksinə, işğalçıya silah verilməməsi, bunu ümumiyyətlə istəməmək doğru addımdır. Ən doğru addım sülh müqaviləsi istiqamətində atıla biləcək addım hesab olunur ki, bunun üçün Nikol Paşinyan Davos Forumuna can atmalı idi və onun da, xalqının da, ümumilikdə Ermənistanın da itirilmiş şansı məhz budur.

Bəli, Ukrayna əlindən gələni edir və bütün platformalarda mümkün fürsətləri lazımınca dəyərləndirir. Elə bu son Davos Forumunda da belə etmək şansını qaçırmadığının şahidi olduq. Ukrayna öz torpaqlarını, öz haqlarını müdafiə edir və bunun üçün bütün mümkün addımları edir ki, xilas olun. Amma Ermənistan bütün platformalarda şansını itirir və xilas olmaq istiqamətində heç bir addım atmır. Bunu dərk etmədiyi belə görünür və indi işğalçıların öz hakimiyyətlərindən tələb etdikləri, ən azından gözlədikləri belə xilas, yaxud fürsət deyil. Nikol Paşinyan üçün Davosa getmək də şərəf olardı, orada işğalçıların dedikləri yox, sülh istiqamətində əldə edə biləcəyi əsl fürsətdən istifadə də. Amma o bunu da edə bilmədi. Azərbaycan mətbuatından bu barədə işğalçıların oxuduqları, izlədikləri də əbəs yerə deyil. Ümumiyyətlə, bütün dünyanın onlar barədə ironik fikirləri də səbəbsiz sayılmır. Çünki Paşinyanın dünyaya təklif edəcəyi, ortaya qoyacağı heç nəyi yoxdur. Heç normal, ağılabatan təklifi barədə də səs-soraq eşidilmir. Hətta, son zamanlar belə bir fikir formalaşdığını erməni mətbuatı yayımlayır ki, Paşinyan birinci dəfə baş tutan görüşdən sonra Əliyevlə görüşməkdən qorxur. Niyə də qorxmasın axı? O, Azərbaycan Prezidenti ilə müqaisəyə belə gələcək dövlət rəhbəri hesab olunmur və bunu özü hamıdan yaxşı bilir. Cəmi 44 gün ərzində məğlubiyyəti də bunu bir daha əyani şəkildə təsdiqlədi. Təsdiq etdi ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev tədbirli, uzaqgörən, siyasi iradəyə və qətiyyətə sahib dövlət rəhbəridir, amma Nikol Paşinyan isə sadəcə bir avantürisdir və hakimiyyət kürsüsü naminə ancaq daxili auditoriyaya hesablanan vədlərlə erməni xalqı, Ermənistan cəmiyyəti ilə oyun oynayır. Bu arada diqqətə çatdıraq ki, Davos Forumunda Azərbaycan Prezidenti cənab İlham Əliyev iştirak edib, çoxsaylı görüşlər keçirib, nailiyyətlərə imza atıb və bunu Ermənistan mətbuatı da açıq-aşkar etiraf edir, başqa çıxış yolu da yoxdur. Çünki hər kəs görür ki, Azərbaycan Prezidenti öz gündəmini fəal şəkildə həyata keçirir. Özü də təkcə Davosda deyil, mümkün olan hər yerdə bunu etməyə qadirdir və edir də. Paşinyan haqqında eşitdiklərimiz isə yalnız çılız küçə davalarına bənzər daxili çəkişmələrlə məşğul olmaq və hakimiyyət kürsüsündən, onun səlahiyyətlərindən istifadə etməklə nəyə isə müvəqqəti nail olmaq kimi cılız addımlardır. Gah hansısa qüvvələrlə, onların fəalları ilə mübarizə edir, gah da müəyyən kompromisə gəlir və daxili auditoriyanı belə fəaliyyəti ilə aldadır ki, guya bərk məşğuldur. İndi də Paşinyan Ruben Vardanyanı "qovacağı" barədə şayə yayıb. Bunun baş verib-verməyəcəyi müzakirə mövzusu deyil. Müzakirə mövzusu onun xırda məsələlərlə məşğul olması, sülh danışıqları fonunda Ermənistanı məhv olmaq təhlükəsindən xilas etmək istiqamətində atacağı addımlar və bu mənada Davosda Ermənistan üçün fürsəti itirməsi məsələsidir. Bəli, Davos Forumu Ermənistan üçün məhz bu mənada itirilmiş fürsət sayılır və belə itirilmiş fürsət həmin ölkə üçün heç də ilk deyil, hətta sonuncu olacağına da ümudləri yoxdur.

***İnam Hacıyev***

## AVROPA PARLAMENTİ "SİYASİ ŞOU-BİZNES SƏHNƏSİ" KİMİ




Bu gün bir sıra ölkələrin müstəqil xarici siyasət yürütməsini həzm edə bilməyən bəzi qərəzli qüvvələr selektiv yanaşma sərgiləyərək "insan hüquqları" pərdəsi arxasında onlara təzyiq göstərməyə çalışırlar. Biz bu qərəzin həm işğal zamanı, həm 44 günlük müharibə dövründə, həm də müharibədən sonra Ermənistanın təcavüzkar siyasətinə göz yumularaq Azərbaycanın əsassız şəkildə ittiham olunduğu açıq bəyanatlarda, müxtəlif sənədlərdə dəfələrlə şahidi olmuşuq.

Avropa Parlamentinin cari ilin yanvar ayının 19-da qəbul olunmuş, reallıqlardan uzaq, böhtan xarakterli məsələlərin yer aldığı qətnaməsi də eyni siyasətin - ikili standartlar oyununun davamıdır. Bu bir daha onu göstərir ki, Avropa Parlamentinin timsalında bəzi beynəlxalq qurumların dəm vurduğu "demokratik dəyərlər" heç kəsdən asılı olmayan dövlətlərə qarşı təzyiq kampaniyasına xidmət edir. Belə olmasaydı, Ermənistanın vandal davranışları, ekosid və urbisid cinayətlərinə obyektiv münasibət sərgiləmək əvəzinə, Avropa Parlamenti ölkəmiz haqqında həqiqətə uyğun olmayan iddia və ittihamları ilə diqqət çəkməzdi. Sənəd Azərbaycanın guya Ermənistana hərbi təcavüz etməsi, Laçın yolunun "blokada"da olması kimi sərsəm iddialarla zəngindir. Qətnamədə Laçın yolundan humanitar yüklərin və təcili yardım maşınlarının maneəsiz keçməsi ilə bağlı faktların yer almaması onun erməni lobbisinin sifarişi əsasında hazırlandığına şübhə yeri qoymur.

Digər gülünc məqam isə tarixin arxivinə gömülən "Madrid prinsipləri"nin gündəmə gətirilməsidir. Görünür, Avropa Parlamenti müharibədən sonra yaranan yeni reallıqları dərk, qəbul və həzm edə bilmir. Və Ermənistan rəsmilərinin belə xatırlamağa çətinlik çəkdiyi bu prinsiplərin bəndlərinə istinad edərək ermənilərə vaxt qazandırmağa çalışır.

Əlbəttə, heç bir hüquqi qüvvəyə malik olmayan qətnamənin - adi kağız parçasının qəbulunun Azərbaycanın müstəqil siyasətinə və ictimai rəyə heç bir təsiri yoxdur. Beynəlxalq ictimaiyyət görür ki, özlərinin yazıb - oxuduqları belə "namə"lər fonunda Avropa Parlamenti siyasi şou-biznes səhnəsinə çevrilib. Nəhayət, Avropa Parlamenti bir qrup siyasi korrupsioner deputatın canfəşanlığı və erməni lobbisinin təşəbbüsü ilə Azərbaycan əleyhinə qərəzli "müzakirə" platformasına çevrilməklə, əslində, Avropa İttifaqına və bütövlükdə "qoca qitə"nin maraqlarına qarşı çıxış edir. Bütün bu reallıqların fonunda sual olunur: "Avropa dəyərləri" adlandırdıqları insan hüquqlarından, sivil dəyərlər üzərində bərqərar olunmuş cəmiyyətdən, qarşılıqlı hörmətdən danışan Avropa Parlamentinin və Avropanın imici nə üçün ayaqlar altına atılır? Hər halda, qurumun özü və başbilənləri bu suala cavab versələr, daha yaxşı olar. Amma bütün hallarda təkzibedilməz reallıq budur ki, Avropa Parlamenti özünü təkzib, ifşa və rəzil edir!

# Heydər Əliyev-100

# Tanrının xalqımıza bəxş etdiyi bəsirətli Şəxsiyyət





Yaşar Əhmədov
Fəlsəfə üzrə fəlsəfə doktoru,
Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin "Humanitar fənlər" kafedrasının dosenti

Bu gün dünyanın harasında yaşamasından asılı olmayaraq hər bir azərbaycanlı zamanın onun hakimiyyət illərini bizdən uzaqlaşdırmasına baxmayaraq böyük qürur və şərəf hissi ilə Heydər Əliyev ucalığını, onun dahiliyini və böyüklüyü daha aydın görür. Azərbaycanın, xalqımızın taleyində XX əsrin 70-ci illərindən bu əsrin əvvəllərinədək olan taleyüklü bir dövrdə Ulu öndər öz adını ictimai-siyasi fəaliyyəti, gördüyü işləri, atdığı cəsarətli addımları və milli vətənpərvərlik təfəkkürü ilə Azərbaycan tarixinə, xalqımızın ictimai-siyasi fikir tarixinə əbədi həkk etmişdir. Ümummilli liderin dünyaya nümunə olacaq şəxsiyyəti haqqında onun adına layiq kifayət qədər sanballı, olduqca dəyərli, dünya şöhrətli bu dahi şəxsiyyətin xalqımızın xoşbəxt gələcəyi uğrunda göstərdiyi titanik işlərin bütün çalarlarını ifadə edə biləcək layiqli sözlərin dünyaya çatdırılması missiyası hələ qabaqdadır. Ulu öndər bütün türk dünyasının qəbul etdiyi, inkaredilməz qürur mənbəyi, xalqımızın imza atdığı bütün uğurların müəllifi, xoşbəxt gələcəyimizin təməlini qoyan əvəzsiz lider, millət atasıdır.

Böyük qürur hissi ilə deyə bilərik ki, Heydər Əliyevin Azərbaycanımız, xalqımız, millətimiz, dünya azərbaycanlıları, bütövlükdə isə bütün türk, müsəlman dünyası üçün nadir şəxsiyyət olması danılmaz bir həqiqətdir. Müstəqil Azərbaycan dövlətinin memarı olan Heydər Əliyev haqlı olaraq azərbaycanlıların milli qürur və iftixar mənbəyinə çevrilmiş, Ümummilli lider adını qazanmışdır. Dünyanın zəngin tarixə malik ən qədim xalqlarından biri olan xalqımız bəşəriyyətə çox böyük dühalar, dünyanın qəbul etdiyi dahilər, nəhəng elm, poeziya, sənət korifeyləri, çox görkəmli, yenilməz, zəkalı, istedadlı sərkərdələr, nəhəng dövlət və ictimai - siyasi xadimlər bəxş etmişdir. Kifayət qədər böyük yaşı olan dövlətçilik tariximiz bu dahi şəxsiyyətlərin adlarını qoruyub saxlamış, nəsildən-nəsilə, əsrdən-əsrə keçirmiş, onlara layiq olduqları əbədiyyət abidəsi yüksəltmişdir. Bu şəxsiyyətlər xalqımızın milli-mənəvi dəyərlərinin, onun dilinin və dininin, zəngin mənəvi dünyasının qoruyucusu olmuş, onları qoruyub saxlamış və daha da inkişaf etdirmişlər-bu işləri ilə onlar adlarını tariximizə qızıl hərflərlə yazmış, əsl xalq rəhbəri, vətənpərvər lider olmuşlar. Tam məsuliyyətlə, heç bir mübaliğəsiz demək olar ki, tarixin bizə bəxş etdiyi xalqımızın bu ulu, nəhəng övladları içərisində öz möhtəşəmliyi ucа zirvədə dayanan şəxsiyyətlərdən biri də məhz Ümummilli lider statusu qazanmış Heydər Əliyev olmuşdur.

Yaşanan tarix göstərir ki, hər bir xalqın öz milli azadlığına və dövlət müstəqilliyinə qovuşması, əsasən, onun üçün yaranan tarixi şans, onun milli iradəsi və xalqı arxasınca apara bilən liderə malik olması ilə bağlıdır. Tarix gedişində liderlik funksiyasını daha çox öz şəxsi nüfuzu, yüksək təşkilatçılıq bacarığı, ictimai və siyasi fəallığı, təşəbbüskarlıq qabiliyyəti, məntiqi düşüncəsi, yaradıcılığı və enerjisi ilə digərlərindən, hətta öz opponentlərindən belə fərqlənən, xüsusi idarəçilik və xarizmatik keyfiyyətlərinə malik olan, öz əməlləri ilə xalqın böyük hörmət və sevgisini qazanan dahi insanlar yerinə yetirirlər. Bu statusu qazanan şəxslərin ictimai-siyasi fəaliyyətinin universallığı insan qruplarının, təşkilatların və hərəkatların birgə fəaliyyətinin liderə ehtiyac duyması ilə şərtlənir. Siyasi lider heç də yalnız siyasi proseslərə başçılıq edən, cəmiyyətin idarə olunması kimi mürəkkəb funksiyaları həyata keçirən, ölkədə fəaliyyət göstərən siyasi təşkilatları və hərəkatları öz ardınca aparan şəxs deyildir- o, hər şeydən əvvəl, baş verən hadisələrin gedişini dəyişdirməyə, mürəkkəb siyasi prosesləri istiqamətləndirməyə qadir olan əvəzsiz şəxsiyyətdir. Tarixin bütün mərhələlərində görkəmli şəxsiyyətlər özləri mövcud şəraiti yaradır və onu tələb olunan istiqamətə yönəltməklə qarşıda dayanan məqsədləri reallaşdırmağa nail ola bilirlər. Siyasi baxımdan naşı olanlar, siyasi səbatsızlar isə bu siyasi vəziyyətin əsirinə çevrilir, qurulan tələdən çıxa bilmir, hadisələrin axarına düşüb fəaliyyətsiz axırlar. Bəşəriyyətin tarixi gedişində hər bir xalqın tarixi əsasən ona rəhbərlik etmiş böyük siyasi kporifeylərin, parlaq tarixi şəxsiyyətlərin çoxşaxəli fəaliyyətlərində öz təsəccümünü tapmışdır.

Ümummilli lider hakimiyyətdə olduğu illərdə xalqımızı üzləşdiyi tarixin ağır sınaqlarından məharətlə çıxararaq, onu böyük inkişafa və sürətli tərəqqiyə doğru aparmışdır. Üç onillikdən artıq bir vaxtda böyük bir məmləkətə rəhbərlik etmək heç də hər dövlət və siyasi xadimə qismət olmamışdır-həm də bu illər görülən işlər öz miqyasına, əhatəliyinə görə də müqayisə olunmaz dərəcədə böyük olmuşdur. Məhz onun hakimiyyəti illərində Azərbaycan Respublikası aqrar məmləkətdən yüksək inkişaf etmiş sənaye ölkəsinə çevrilmişdir. Həmin dövrdə qısa vaxt ərzində respublika təkcə keçmiş SSRİ məkanında deyil, həm də bütün dünyada tanınmağa başladı. Bütün dünyanın Azərbaycanı və azərbaycanlıları Heydər Əliyevin timsalında tanıması da tarixi bir həqiqətdir-məhz bu baxımdan Ulu öndər sözün həqiqi mənasında Böyük Azərbaycanlı idi. "Mən həmişə fəxr etmişəm, indi də fəxr edirəm ki, mən azərbaycanlıyam "-deyən Ümummilli lider azərbaycançılığın təşəkkülündə əvəzsiz rol oynamışdır, o dilimizin, milli mədəniyyətimizin tərəqqisi, inkişafı üçün titanik işlər görmüşdür. Onun təşəbbüsü ilə Azərbaycanın görkəmli şəxsiyyətlərinə abidələr, heykəllər ucaldıldı, şair və yazıçılarımızın təkcə respublika çərçivəsində deyil, həm də ümumittifaq, ümumdünya miqyasında yubileyləri keçirilmişdir.

Böyük bəsirətlik bacarığı olan Ulu öndər imperiya müstəmləkəsi dövründə Azərbaycanın parlaq gələcəyini, onun müstəqilliyini görürdü və ona görə də öz ölkəsini dünyada tanıtmağa çalışırdı. Milli liderin böyük vətənpərvərliyi, xalqsevərliyi 90-cı illərdə özünü daha açıq göstərdi-məkrli, naqis qonşuların Vətənimizə təcavüzünə və bu təcavüzə M.Qorbaçov başda olmaqla mərkəzi hakimiyyətin dəstəyinə ilk kəskin etiraz səsini ucaldan, partiya biletindən imtina edən, heç bir siyasi təqibdən çəkinmədən, qorxmadan, milli cəsarətlə sovet hakimiyyətinə qarşı tənqidlər söyləyən də ilk öncə məhz o oldu. Bu cəsarətli çağırışla xalq ayağa qalxdı, Azərbaycan öz müstəqilliyinə qovuşdu. Belə bir mürəkkəb dövrdə müstəqil Azərbaycanın keşiyində xalqın arxalandığı böyük şəxsiyyət dayandı. Müstəqillik qazanmış Azərbaycanın başının üstünü qara buludlar aldığı, Azərbaycan parçalanmaq həddinə çatdırıldığı, ölkəmizin dünyanın siyasi xəritəsindən silinmək təhlükəsi yarandığı bir vaxtda xilaskarlıq missiyasını məhz Heydər Əliyev öz üzərinə götürmüşdür. Tariximizin Heydər Əliyev dövrü müasir Azərbaycan cəmiyyətinin formalaşması vəzifələrinin uğurla və ardıcıl olaraq yerinə yetirilməsi ilə seçilir. 90-cı illərdə ölkədə anarxiya, xaos, hərc-mərclik hökm sürürdü, böyük dövlətlərin, xain ermənilərin təbliğatına uyan bəzi daxili separatçı qüvvələr də baş qaldırmışdı - belə bir şəraitdə Heydər Əliyev xalqın təkidli tələbi ilə Azərbaycan rəhbərliyinə gətirildi. Bu hadisə Azərbaycanı, Azərbaycan xalqını böyük bəladan, dəhşətli fəlakətdən qorudu, Heydər Əliyev fenomeni, Heydər Əliyev cəsarəti və müdrikliyi qazanılan müstəqilliyin qarantı oldu. Dünyanın aparıcı dövlətlərinin Sovet imperiyasını dağıtmaqla bağlı böyük planının tərkibinə həm də yaranan yeni müstəqil, kifayət qədər iqtisadi qüdrəti olan dövlətlərin dağılması planı da daxil idi. Azərbaycanı cənubda talış, şimalda ləzgi, qərbdə erməni separatçılarının əli ilə dağıtmaq nəzərdə tutulmuşdu. Əgər bu böyük şəxsiyyət olmasaydı, Azərbaycan heç bir qüvvə qurtara bilməzdi, məhz onun fəaliyyəti, iradəsi və xalqa arxalanması, xalqın da öz müdrik liderinə güvənməsi və geniş xalq məhəbbəti bir vəhdətdə birləşdiyindən Azərbaycan dövlətçiliyi xilas oldu. Ulu öndər məhz həmin bölgələrdən olan sağlam düşüncəli, Azərbaycanı öz doğma Vətəni hesab edən adamların dəstəyi ilə ölkəmizin bütövlüyünü qoruya bildi. Ümummilli liderin gərgin fəaliyyəti nəticəsində ölkədə sabitlik yarandı, demokratik yol amalımıza çevrildi, ölkəmiz demokratiya, hüquqi dövlət quruculuğu yolu ilə irəlilədi, xalq birliyi yarandı, onun ən böyük əsəri olan azərbaycançılıq ideologiyasını dövlətin əsas ideologiyası səviyyəsinə qaldırıldı. Ulu öndərin tarixi zərurətdən irəli gələn möhtəşəm tarixi qayıdışı zərurətinin nəzəri-ideoloji əsası özünün ifadəsini güclü şəxsiyyət ideyasında tapır. Heç şübhə yoxdur ki, Azərbaycanın XX əsr tarixinin ən ecazkar hadisələrindən olan məşhur tarixi qayıdış ümummilli ictimai düşüncə səviyyəsində dərk edilən zərurət olduğundan, Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı, ilk növbədə xilaskarlıq missiyası yerinə yetirdi. Azərbaycan xalqı Heydər Əliyevin qayıdışına xilaskarlıq missiyası kimi yanaşır, ona xilaskar kimi baxırdı.

Azərbaycanın müasir tarixinin real təhlükələrin altında, sözün həqiqi mənasında, əzildiyi, ölkənin parçalanma təhlükəsi ilə üzləşdiyi bir vaxtda ictimai düşüncədə xilaskar Ümummilli lider Heydər Əliyev obrazının formalaşmasının təsadüfi olmadığını əsaslandırmağa cəhd etmək, fikrimcə artıqdır. Ulu öndərin məlum tarixi proseslərin müasiri olması faktı kifayət edirdi ki, xalq öz taleyinin xilas edilməsini ona həvalə etsin-o da ən təhlükəli anlarında Azərbaycan xalqının öz taleyini ona etibar etməkdə yanılmadığını möhtəşəm qayıdışın elə ilk aylarında sübuta yetirə bildi. Qısa bir zaman kəsiyində ölkəni bir neçə il ərzində taqətdən salan hərc-mərcliyə qətiyyətlə son qoyuldu, sabitlik və əmin-amanlıq təmin edildi, hərtərfli böhran cilovlandı, erməni təcavüzünün Azərbaycanın dərinliklərinə irəliləməsinin qarşısı alındı. Heydər Əliyevin xilaskarlıq missiyasının fəlsəfəsinə nəzər saldıqda görürük ki, onun şəxsiyyətinin əzəməti və miqyası onun tarixi qayıdışının mənasını yalnız xilaskarlıq missiyası ilə məhdudlaşdırmır-əslində, o, Azərbaycanın düçar olduğu vəziyyətdən xilasını geniş planda ölkədə nəinki yeni siyasi, həm də iqtisadi və mənəvi vəziyyətin yaradılmasında görürdü.Ümummilli lider yaxşı bilirdi ki, hər bir xalqın, o cümlədən azərbaycanlıların müasir dünyada özlərinə layiqli yer tutmasının mühüm göstəricilərindən biri məhz yüksək ədalət anlayışının ifadəsi olan hüquq prinsiplərinə və onun ali məcmusu olan qanunlara münasibəti əsaa şərtdir və öz siyasi fəaliyyətində bunu əldə əsas tuturdu. Hələ eramızdan əvvəl meydana çıxan ilk sivilizasiyalar Hammurapi qanunları, Drakon qanunları, XII lövhə qanunları kimi unudulmaz hüquqi abidələr yaratmaqla insan cəmiyyətinin mövcudluğunun və birgə yaşayışının başlıca şərti kimi qanunlara riayət etmənin ən vacib şərt olduğunun əhəmiyyətini aydın şəkildə dərk etmişdirlər. Bu proses orta əsrlərdə də davam edərək, bugünkü müasir qloballaşan dünyanın mürəkkəb ictimai-siyasi və sosial-iqtisadi münasibətlər sistemini tənzimləyən Əsas Qanuna-Konstitusiyaya qədər keşməkeşli, lakin daim inkişafda olan uzun bir yol keçmişdir. Ulu öndər öz çıxışlarında dəfələrlə xüsusi vurğulamışdır ki, Konstitusiya elə bir sənəd olmalıdır ki, demokratiyanın əsas qanununa uyğun olaraq hakimiyyətdə olan siyasi qüvvələr dəyişildikcə Əsas Qanunu da dəyişdirmək zərurəti meydana çıxmasın. Bəzi hallarda Konstitusiya qəbul etmək, yaxud onu əsaslı şəkildə dəyişdirmək cəhdləri bu və ya digər qüvvələr tərəfindən narazılıqla qarşılanır, nəticədə siyasi böhranlar yaranır-bizim günlərimizdə, postsovet məkanı dövlətlərində baş verən siyasi proseslərə diqqətlə nəzər salmaq dediklərimizi təsdiqləyir. Deyilənlərin sübutu kimi belə bir faktı da göstərmək olar ki, 1918-ci ildə Şərqdə ilk demokratik respublika şəklində meydana çıxmış Azərbaycan Xalq Cümhuriyyəti, yaxud SSRİ-nin parçalanması nəticəsində öz dövlət müstəqilliyini elan etmiş Azərbaycan Respublikasında hakimiyyətə gəlmiş iqtidar bütün cəhdlərinə baxmayaraq öz sələflərindən tamamilə fərqlənən yeni müstəqil dövlətin Konstitusiyasını qəbul edə bilmədilər. Azərbaycan Konstitusiyasının qəbul edildiyi ərəfədə ölkədə vəziyyət sabit deyildi-dövlət çevrilişi cəhdləri ara vermirdi. İlk baxışdan təsəvvür edilməsi çətin olsa da, belə cəhdlərə ölkənin yüksək vəzifəli şəxsləri - baş nazir, digər yüksək rütbəli məmurlar başçılıq edirdilər. Vətəndaş müharibəsi təhlükəsi hələ sovuşmamışdı-dövlətdə təmsil olunan yüksək vəzifəli və rütbəli şəxslər öz siyasi ambisiyalarını dövlət maraqlarından üstün tutur, öz xalqı və dövləti ilə ultimatum dilində danışmağa üstünlük verirdilər. Dövlətə sədaqətli şəxslər terror vasitəsilə aradan götürülür, vətəndaşlarda vahimə, qorxu hissləri yaradılırdı. Müstəqilliyin ilk illərində bağlanmış və hakimiyyətdə olan qüvvələrin mənafeyini əks etdirən neft müqavilələri ləğv edilmiş, yeni müqavilələrin bağlanması ərəfəsində xarici investorlar qorxudularaq ölkədən uzaqlaşdırılmışdır. Cəbhədə əldə edilmiş atəşkəs kövrək idivaxt isə gözləmirdi. Belə bir şəraitdə Konstitusiyanın qəbul edilməsi ölkədə ictimai - siyasi sabitliyin bərqərar olmasına, əhali arasında dövlətə inamın artmasına, bu proseslərdə ləngimək isə vəziyyətin daha da pisləşməsinə gətirə bilərdi. Bütövlükdə xalqın, dövlətin və hər bir vətəndaşın taleyinə birbaşa və həlledici təsir göstərən Azərbaycan Respublikasında Konstitusiya qəbulu kimi nəhəng siyasi prosesin uğurunu şərtləndirən ən mühüm amil bu prosesin müdrik dövlət rəhbəri, ümummilli lider, xarizmatik şəxsiyyət tərəfindən idarə edilməsi idi. Həmin anda Azərbaycanın yeganə ümidi, böhranlı vəziyyətdən ən etibarlı çıxış yolu dövlətin sükanı arxasında belə bir şəxsiyyətin olması idibu xalqını, onun dövlətini taleyüklü anda xilas etmək missiyasını öz üzərinə götürən ümummilli lider Heydər Əliyev idi.1995-ci ilin mayında Azərbaycan Respublikasının Milli Məclisi yeni Konstitusiya layihəsini hazırlayan komissiyanın tərkibini təsdiq etdi-komissiyaya hər üç hakimiyyət qanadının rəhbərlərindən əlavə, ictimai elmlər sahəsində tanınmış mütəxəssislər, görkəmli elm xadimləri, ictimai və yaradıcılıq təşkilatlarının rəhbərləri daxil edilmişdir. ”Bizim yeni Konstitusiyamız, şübhəsiz ki, birinci növbədə, Azərbaycan Respublikasının dövlət müstəqilliyini, bu müstəqilliyin əbədi olduğunu və dövlət müstəqilliyini qoruyub saxlamaq, yaşatmaq üçün bütün prinsipləri əks etdirməlidir. Yeni Konstitusiyamız demokratik prinsipləri özündə əks etdirməlidir. Yəni, dünya demokratiyasının əldə etdiyi bütün nailiyyətlərdən, demokratiya sahəsində inkişaf etmiş dövlətlərin Konstitusiya təcrübəsindən istifadə etməli və Azərbaycan Respublikasının özünəməxsus tarixi, milli ənənələrini əks etdirən prinsipləri özündə cəmləşdirməlidir. Bir sözlə, biz elan etmişik və mən bir daha bəyan edirəm ki, Azərbaycanda demokratik, hüquqi, sivilizasiyalı, dünyəvi dövlət qururuq. Demokratik, hüquqi, sivilizasiyalı dövlət quruculuğu proseslərini və bunu təmin etmək üçün bütün şərtləri, müddəaları Konstitusiya özündə əks etdirməlidir. Biz elə bir Konstitusiya qəbul etməliyik ki, o, müstəqil Azərbaycan Respublikasının demokratik prinsiplər əsasında uzun müddət sabit yaşamasını təmin edən Əsas Qanun, tarixi sənəd olsun. Ona görə də üzərimizə düşən vəzifə həm şərəflidir, həm də çox çətindir. Konstitusiyamız Azərbaycanda məhz demokratik, hüquqi, dünyəvi, sivilizasiyalı bir dövlət qurmaq üçün əsas yaratmalıdır, onun əsas qanunu olmalıdır”-deyən Heydər Əliyev özünü tamamilə yeni bir formada - konstitusiyaçı alim kimi göstərərək dünya konstitusiyaçılığının bütün problemlərini öyrəndiyini, görkəmli Qərb filosoflarının Konstitusiya və dövlətlə bağlı elmi irsinə də mükəmməl yiyələndiyini nümayiş etdirdi. Ulu öndər xüsusilə vurğulamışdır ki, ”Konstitusiya birinci növbədə, dövlətlə, hakimiyyətlə xalqın arasında olan münasibətləri özündə əks etdirməlidir. Hakimiyyət bölgüsü, ali icra, qanunvericilik, məhkəmə hakimiyyətləri - bunlar hamısı xalqın iradəsinə söykənməli, seçkilər yolu ilə təmin olunmalıdır. Dövlət xalqın işi olmalıdır. Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır və bu prinsiplər Konstitusiyamızın əsasını təşkil etməlidirlər. Müstəqil Azərbaycan dövlətinin Əsas Qanununda insan haqları, insan azadlıqları, insanların cəmiyyətdə bərabər hüquqa malik olması, bütün azadlıqlar öz əksini tapmalıdır”.

Ümummilli lider layihənin giriş hissəsində milli dövlətçilik ənənələrini, Azərbaycanın dövlət müstəqilliyi ilə əlaqədar fikirlərin əks olunması zərurətini qeyd edərək bu hissəsini Azərbaycanın dövlət müstəqilliyi ilə əlaqələndirməyin vacibliyini, insan hüquqları, azadlıqları haqqında olan maddələrin dəqiqləşdirilməsini, təkmilləşdirilməsini, vətəndaşların vəzifələrinin daha dəqiq ifadə olunmasını, bu maddələrin daha da genişləndirilməsini xüsusi vurğulamışdır.Hələ 1977-ci il SSRİ Konstitusiyasında Ulu öndər çox ciddi maneələrə baxmayaraq böyük əzmkarlıqla Moskvadakı partiya rəhbərliyinin iradəsinə zidd olaraq Azərbaycan dilinin respublikanın dövlət dili olduğunu Konstitusiyada təsbit edə bilmişdir. Müstəqillikdən sonra ilk qəbul olunan Konstitusiya ilə bağlı narazılıqlar artıq ölkənin daxilində idi-buna baxmayaraq son nəticədə Heydər Əliyev müdrikliyi qalib gəldi-Azərbaycan dili dövlət dili oldu, ana dilimizin haqq etdiyi tarixi adı özünə qaytarıldı. Yalnız bu işinə görə-belə işlər isə onun taleyində kifayət qədər çox olmuşdur - Heydər Əliyevin adı Azərbaycan xalqının tarixində əbədi yaşayacaqdır.

Beləliklə, 12 noyabr 1995-ci ildə Ümummilli liderin şah əsəri - 158 maddə, 12 keçid müddəası, 5 bölmə və 12 fəsildən ibarət müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası ümumxalq səsverməsi - referendum yolu ilə qəbul olundu. Azərbaycan dövlətçiliyi tarixində ən mühüm hüquqi - siyasi sənəd olan Konstitusiya bu gün də ölkəmizdə möhtərəm Prezident İlham Əliyevin həyata keçirdiyi nəhəng islahatlar prosesinin istinad etdiyi etibarlı normativ sənəddir. Müstəqil ölkəmizin ilk Konstitusiyası hüquq tariximizə qızıl hərflərlə əbədi həkk olunmuşdur-ilk Konstitusiyamız müstəqil, hüquqi və dünyəvi Azərbaycan dövlətinin əsaslarını təsbit edən mühüm və bitkin normativ sənəddir.Müstəqil Azərbaycanın bir çox aparıcı dünya dövlətlərinin onilliklər boyu keçdiyi təkamül və inkişaf mərhələlərini qısa zaman kəsiyində qət edə bilməsi heç də yalnız respublikanın zəngin təbii sərvətləri və intellektual resursları ilə şərtlənmir. Azərbaycanda bu potensialın xalqın mənafeyinə uyğun realizə edilməsi, hər kəsi qane edə biləcək milli siyasət strategiyasının həyata keçirilməsi, eyni zamanda xarici siyasət kursunun prioritetlərinin doğru-düzgün müəyyənləşdirilməsi və reallaşdırılması ilə sıx bağlıdır. Ötən əsrin sonlarında sosializm sisteminin uğursuz sonluğu və sovetlər birliyinin süqutu nəticəsində yeni dünya düzəninin formalaşması yenicə müstəqillik əldə etmiş ölkələri siyasi oriyentasiya problemi ilə üz-üzə qoymuşdu. Həmin dövrdə Azərbaycanda digər sahələrdə olduğu kimi, xarici siyasətdə də qarışıqlıq mövcud idi. Dövlətin xarici siyasət konsepsiyasında ardıcıllığın, prinsipiallığın olmaması ölkə daxilindəki problemlərin daha geniş vüsət almasını şərtləndirir, respublikanın düşdüyü gərgin vəziyyətdən çıxmasına əngəl törədirdi. Lakin dünya şöhrətli siyasətçi, siyasi gerçəklikləri dərindən analiz etmək və nəticə çıxarmaq qabiliyyətinə malik olan Ümummilli liderin Azərbaycanda hakimiyyətə tarixi dönüşü xarici siyasətdə də yeni pəncərə açdı. Məhz Heydər Əliyevin ciddi səyləri nəticəsində vəziyyəti dəyişdirmək, bölgədə və ümumilikdə, dünyada Azərbaycana münasibəti müsbətə doğru dəyişmək mümkün oldu. Dövlət başçısının xarici ölkələrə ardıcıl səfərləri, nüfuzlu beynəlxalq təşkilatların nümayəndələri ilə keçirdiyi çoxsaylı görüşlər, aparılan gərgin danışıqlar nəticəsində qısa zaman ərzində ermənilərin ərazimizə təcavüzü, ölkənin sosial - iqtisadi vəziyyəti və potensialı haqqında həqiqətlər dünya ictimaiyyətinə çatdırılmış, respublikanın xarici siyasətinin əsas prinsipləri və istiqamətləri müəyyən edilmişdir. Bu gün müşahidə etdiyimiz gerçəklikləri o dövrün çətin reallıqları ilə müqayisə etdikdə görərik ki, Heydər Əliyev ölkəmizin qarşısında duran problemlərin həllinə nail olmağı, dövləti böhranlı durumdan çıxarmağı bacarmışdır-eyni zamanda zərgər dəqiqliyi ilə müəyyənləşdirilmiş xarici siyasət kursu özünü bütün mənalarda doğrultmuşdur. Əgər ötən əsrin sonlarında qazanılmış dövlət müstəqilliyinin ilk illərində Azərbaycanın, sadəcə, siyasi kuluarlarda tanınan bir ölkə olduğunu nəzərə alsaq, bu gün aypara ulduzlu, üç rəngli bayrağın hansı dövlətin rəmzi olduğunu artıq bütün dünyanın dərk etməsinə, sadəcə, sevinməklə kifayətlənməyib, bundan həm də qürur hissi keçirməliyik. Ulu öndərin və onun siyasi kursunun layiqli davamçısı olan Prezident İlham Əliyevin siyasi və diplomatik səyləri nəticəsində Azərbaycan haqqında vaxtilə formalaşmış mənfi rəy artıq tamamilə dağıdılmışdır - indi artıq Azərbaycan üzərinə götürdüyü öhdəlikləri məsuliyyət və qətiyyətlə yerinə yetirdiyinə görə beynəlxalq təşkilatlar üçün çox önəmli tərəfdaşlardan biridir. Məhz Ulu öndərin səyi nəticəsində yenicə müstəqillik yoluna qədəm qoyan ölkəmiz Avropaya daha sıx inteqrasiya edən və daha açıq olan ölkəyə çevrilmişdir-son illər ərzində görülən müsbət işlərlə bağlı müsbət mesajlar alırıq. Bununla belə bizi tənqid edənlər də var-təəssüf ki, çox vaxt bu tənqidlər qərəzli xarakterdə olur, dini amillər də burada mühüm rol oynayır. Hakimiyyətə can atan bəzi üzdəniraq ”siyasi xadimlərin” canfəşanlığı da az deyildir-ancaq unutmaq lazım deyil ki, tənqid hər zaman var. Demokratiya baxımından ən inkişaf etmiş ölkələr də bəzən Avropa Şurası tərəfindən tənqid edilir - bu, normaldır. Tənqid obyektiv olduqda və bizim inkişafımıza xidmət etdikdə ona çox dözümlü yanaşırıq. Azərbaycan islam mədəniyyətinin mərkəzlərindən biridir və müsəlman dövlətləri ilə də fəal əməkdaşlıq edir - bu hal da Qərbdə olan siyasi oppenentləri narahat edir. Ümummilli lider özünəməxsus olan qeyri-adi istedad, yeniliyi duymaq, dövrün nəbzini tutmaq kimi keyfiyyətlərə malik olsa da, hər halda əvvəlki dövrdə, əvvəlki idarəetmə sistemində, əvvəlki iqtisadi münasibətlər şəraitində yetişib formalaşmışdır. Yeni dövrün tələblərinə uyğunlaşmaq və dövləti, cəmiyyəti bu istiqamətə yönəltmək üçün Heydər Əliyev keçmiş idarəçilik vərdişləri üzərində qələbə çalmaq, iş təcrübəsini daim yeniləşdirmək sahəsində böyük əzmkarlıq göstərirdi-zahirən hiss olunmasa da, bu yol böyük daxili dramatizmi olan ağır bir yol idi. Bəsirətli və qeyri-adi şəxsiyyət olan Ulu öndər həm zaman üzərində, həm uzun müddət sədaqətlə xidmət etdiyi bir ideologiya üzərində qələbə çalmaq üçün böyük intellektual və iradi enerji sərf etməli olmuşdur. Məhz onun iradəsi hesabına formalaşan Azərbaycan bu gün heç bir xarici dövlət üçün sınaq laboratoriyası rolunu oynamır, o öz yolunu müəyyənləşdirib və bu yolda qarşıya çıxan istənilən əngəllərlə lazımınca mübarizə aparmaq iqtidarındadır. Ümummilli liderin siyasi iradəsi nəticəsində Azərbaycan heç zaman qarşıdurma, rəqabət məkanı olmayıb və bundan sonra da olmayacaqdır. Bütün dünyada ölkəmizlə bağlı hakim düşüncə ondan ibarətdir ki, Azərbaycan dünyada əməkdaşlıq, işbirliyi, iqtisadi layihələr və sosial məsələlərin həlli üçün münbit şəraitə malikdir, eyni zamanda dünyada sivilizasiyalararası dialoqun gücləndirilməsi üçün əvəzolunmaz rol oynayır. Azərbaycanın xarici siyasətində bir tərəfdən digər ölkələrlə dostluq, qonşuluq, əməkdaşlıq münasibətlərinə ciddi önəm verilir, digər tərəfdən ölkəmizin milli təhlükəsizliyinə və milli maraqlarına zidd olan hərəkətlərə də adekvat reaksiya həmişə özünü göstərir-günümüzün reallığı məhz budur. Azərbaycanın mövqelərinin güclənməsi, beynəlxalq aləmdə çəkisinin artması və daha qüdrətli dövlət olması xarici siyasət üçün müəyyənləşdirilmiş prioritetlərdəndir. Dövlətimizin Ulu öndər tərəfindən əsası qoyulan ölkəmizin xarici siyasət strategiyası təkmilləşmiş, diplomatik əlaqələri uğurla inkişaf etmiş və Azərbaycan artıq dünyanın, o cümlədən Qərb dünyasının, xüsusilə, Avropa sivilizasiyasının ayrılmaz tərkib hissəsinə çevrilmişdir.



Müstəqil Azərbaycan Respublikasının banisi kimi Ümummilli lider dövlətçilik sahəsində böyük tarixi işlərə imza atmışdır. Həm sovet dönəmində, həm də Azərbaycanın müstəqilliyi dövründə Heydər Əliyev həmişə ziyalılara, əmək adamlarına diqqət və qayğı göstərmişdir. Azərbaycanın müstəqilliyi dövründə ölkə rəhbəri ziyalılara həm mənəvi, həm də maddi dayaq olmuş, çoxlu sayda yazıçı, şair və ədibə, artist və musiqiçilərə prezident təqaüdü ayırmışdır. Bu gün bu ənənə möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən davam etdirilir. Ümummilli lider bir insan ömrünə sığmayan titanik işlər gördü-onun dilimiz, dinimiz və tariximiz üçün gördüyü böyük işlər hələ sağlığında ikən ona heykəl ucaldılmasına əsas verirdi. Ulu öndər öz dilini sevir, ona hörmətlə yanaşırdı - onun ”Xalqımız öz tarixi, milli-mənəvi dəyərləri, doğma dili ilə islam dininə, mədəniyyətinə mənsub olması ilə fəxr edir”-ifadəsi dünyanı təmsil edən görkəmli din xadimlərini, teoloqları ovsunlamışdır. Böyük tarixi şəxsiyyətlərin bəşəriyyət qarşısındakı rolunu adekvat şəkildə qiymətləndirmək heç də asan məsələ deyildir, bu, həm də onunla əlaqədardır ki, dünya miqyaslı tarixi şəxsiyyətlərin yerinə yetirdiyi missiya əksər hallarda xronoloji çərçivələrə sığmır, inkişafın sonrakı gedişinə əhəmiyyətli dərəcədə təsir göstərir. Belə tarixi şəxsiyyətlər bir qayda olaraq lideri olduğu xalqın ictimai həyatının gələcək inkişaf konsepsiyasını və strategiyasını müəyyən etməklə onun sonrakı taleyinin də təyin edilməsi məsuliyyətini də müəyyən mənada öz üzərinə götürür. Bir sözlə, onlar sanki tarixin elə özünü yaradırlar-tarixi yaradan şəxsiyyətə isə qiymət vermək elə tarixin özünə qiymət vermək qədər məsuliyyət tələb edir. Azərbaycan dövlətçiliyinin müasir tarixinə öz adını əbədi həkk etmiş bu nadir tarixi şəxsiyyətin, fenomenal siyasi xadimin ölkəmizə rəhbərlik etdiyi illər məhz intibah, milli tərəqqi, milli oyanış, nəhayət, müstəqil dövlət quruculuğu dövrü kimi qəbul edilir. Ümummilli liderin siyasi və dövlət fəaliyyətinin ən böyük nəticəsi quruculuğuna bilavasitə rəhbərlik etdiyi və xalqımıza bəxş etdiyi mükəmməl milli dövlət, müstəqil Azərbaycan Respublikasıdır.

Bu gün Azərbaycan xalqı Heydər Əliyevin ictimai-siyasi kursunu layiqincə davam etdirən, dünya dövlətçilik təcrübəsinə dərindən bələd olan, möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi altında gələcəyə inamla gedir.

# Avropa Parlamentinin qəbul etdiyi ABSURD QƏTNAMƏ




Fransalı ifrat ermənipərəst deputatların təşəbbüsü ilə Laçın dəhlizindəki vəziyyətlə bağlı Avropa Parlamentinin sərsəm ittihamlarla dolu qətnamə qəbul etməsi təəssüf doğurur. Avropa Parlamentinin sənədində Azərbaycana qarşı olan ittihamların, hətta çağırışların belə absurd olduğu hər mənada özünü göstərir və reallıqlardan uzaq, yanlış olduğu dərhal bəlli olur. Elə bir təsəvvür yaranır ki, bu sənəd Avropa İttifaqı kimi mötəbər bir təşkilatın, dünyaca məşhur olan bir qurumunda deyil, hansısa küçə yığıncağında, özü də əsrlərlə bundan əvvəl qəbul olunub və ona görə də təəssüf hissi ilə qarşılanır.

Ən gülünc məqamlardan biri ondan ibarətdir ki, Avropa Parlamentinin Qətmanəsində nədənsə Azərbaycanın guya Ermənistana hərbi təcavüz etməsi, eləcə də Laçın yolunun son zamanlar "blokada"ya alınması və bununla da Qarabağ ərazisində yaşayan erməni əsillilərin hansısa çətinliklərlə qarşılaşdığı qeyd olunur. Avropparlamentarilər bu yalan üzərindən hələ bir Azərbaycanı Laçın yolunu açmağa da çağırıblar ki, guya əks halda bu, humanitar fəlakət demək imiş. Bir az da irəli gedən parlamentarilər rus sülhməramlıların fəaliyyətini bəyənmədiklərini bəyan edərək, BMT-yə çağırış ediblər ki, dəhlizə faktları qeydə alacaq missiya göndərsin. Hətta rus sülhməramlıların ATƏT-in beynəlxalq sülhməramlı qüvvələri ilə əvəz olunması məsələsi barədə guya də zərurətin olması qeyd olunub. Bu qədər absurd yanaşmanı kimlər, özü də harada edir deyə düşündükdə adamın tükləri biz-biz olur. Avropa Parlamenti bulaq başı deyil ki, kim hansı şayəni istəyir dövriyyəyə buraxa, kimin də ağlına nə gəlir danışa, ittiham edə. Bu yekəlikdə bir qurumun araşdırma aparmadan, həqiqətin nədən ibarət olduğuna da məhəl qoymadan nə gəldi qərar verməsi, qətnamə qəbul etməsi özü absurddur. Doğrudur, onsuz da bütün dünya bilir ki, Azərbaycan nə Ermənistana təcavüz edib, nə Laçın yolunda dırnaqarası "blokada" var, amma bu bilinsə belə, heç olmasa hansısa araşdırma qrupu yaradılardı, kimlərsə ezam olunardı ki, görək hansı "blokada"dan, yaxud hansı təcavüzdən söhbət gedir? Bu qədər cılız yanaşma və bu qədər açıq-aşkar şəkildə ermənipərəstlik olmaz axı.

Sənəddəki çağırışlarda Madrid prinsiplərinə istinad olunması isə ümumiyyətlə daha bir absurd yanaşma hesab olunur. Ona görə ki, həmin o Madrid prinsipləri artıq tarixdə qalıb və buna hansısa qurumun, özü də Avropa Parlamenti kimi bir qurumun istinad etməsi sual doğurur. Nə maraq var bu sözügedən prinsiplərin indi yenidən gündəmə gətirilməsində? Yaxud, sual oluna bilər ki, tarixin zibilliyinə atılan həmin o Madrid prinsiplərinin ortaya atılmasına parlamentariləri vadar edən nədir? Arqument tapa bilmirlər, yoxsa əsaslanmaq, istinad etmək üçün heç bir nöqtə belə gözlərinə dəymir? Elə isə nə vadar edir bu qurumu və onun parlamentarilərini? Üstəlik, parlamentarilər həmin prinsplər əsasında sülh danışıqlarının bərpası çağırışı ilə çıxış edirlər. Sülh danışıqları barədə kimə çağırış olunmalıdır? Bəlkə elə parlamentarilərin özlərinə xatırlatma edilsin ki, iki ilə yaxındır sülh danışıqlarını pozan, ən azından bunu uzadan və ləngidən Ermənistan tərəfidir? Bəlkə onların diqqətinə çatdırılsın ki, delimitasiya, demarkasiya, eləcə də sülh danışıqları ilə bağlı məsələlər bilərəkdən Ermənistan tərəfindən əngəllənir və bunun üçün ona bəzi "qardaş" və "bacıları" kömək edirlər və indi həmin o fransız bacılarının ifrat ermənipərəstliyi hesabına Avropa Parlamentinin absurd bir Qətmanə qəbul etməsi özü də sülh danışıqlarını pozmağa xidmət edir?

Hansı Madrid prinsiplərindən danışırlar parlamentarilər, Ermənistanın özünün 30 il bundan əvvəl rədd etdiyindənmi? İndi parlamentarilərə nə düşüb ki, Ermənistanın rədd etdiyi Madrid prinsipləri onlar üçün belə maraqlı olub? Bəs ermənilər və ya ermənipərəstlər özləri necə, bunun fərqindədirlərmi? Fərqindədirlərmi ki, tərəfini tutduqları ölkənin rədd etdiyi prinsiplərə istinad edərək sülh danışıqlarına çağırış edirər və bunun özü də absurddur? Bir halda ki, artıq keçmişdə qalan Dağlı Qarabağ münaqişəsi 2020-ci ilin noyabr ayında öz həllini tapdı və Azərbaycan güc yolu ilə işğal altında olan torpaqlarını işğaldan azad etdi və Ermənistan kapitulyasiya sənədini imzalamalı, razılaşmalara getməli oldu, deməli, prinsplər də həmin razılaşmalar əsasında olmalıdır. Məntiq də bunu tələb edir, qaydalar da. O zaman Avropa Parlamenti getsin razılaşmalarla tanış olsun, razılaşmaların şərtlərinə uyğun sülh danışıqları tələb etsin, özü də Ermənistandan, çünki bu danışıqları pozan məhz həmin işğalçı ölkədir. İndi də ermənipərəst parlamentarilər həmin o razılaşmaları pozan ermənilərin dəyirmanına su tökürlər ki, daha rahat pozmaq imkanları, şansları olsun. Onların Qətnamələri heç də məsələni çozməyə, süih danışıqlarına xidmət edən deyil, əksinə, daha da qızışdırıcı təsir effektinə malikdir. Çünki erməni separatçıları bircə dəstək axtarırlar ki, öz çirkin niyyətlərini bir də təkrarən ortaya atsınlar. "Təcavüz" ifadəsini dövriyyəyə buraxan parlamentarilər əslində bilməlidirlər ki, bu ifadə özü belə erməni separatçıları üçün bir qığılcım effekti verə bilər və yenə də bölgədə vəziyyəti qızışdıra bilərlər, hərçənd bu dəfə də eyni ilə bundan əvvəlki kimi özləri bunun acısını çəkməli olacaqlar.

Hansı təcavüzdən söhbət gedir və Avropa Parlamenti təcavüz dedikdə nəyi nəzərdə tutur? Axı bu zaman qədər bircə dənə beynəlxalq təşkilat Azərbaycanın Ermənistana təcavüz etməsi barədə bircə dənə də olsun fikir belə səsləndirməyib. Heç bir sənəddə ölkəmizin təcavüzü barədə təsbit olunmayıb, heç oluna da bilməz, bu ədalətsizliyin ekstremum həddi olmuş olar və bununla heç kim barışmaz. Çünki ortada belə bir fakt yoxdur, amma erməni silahlı qüvvələrinin Azərbaycanın ərazilərini işğal etməsi indi yox, hələ düz 30 il bundan əvvəl belə BMT-nin 4 qətnaməsində öz əksini tapmışdı. Həmin qətnamədə işğalçıların işğal etdikləri əraziləri tərk etməsi tələbi də yer alırdı. Azərbaycan həmin o qətnamənin tələblərinə uyğun hərəkət etdi və cəmi 44 gün ərzində BMT kimi bir mötəbər təşkilatın 30 il müddətində edə bilmədiyi, yaxud etmədiyi işi etdi, toparlarını işğalçılardan azad elədi. Deməli, bu mənada da, yəni Azərbaycanın Ermənistana təcavüz etməsi barədə Avropa Parlamentinin qətnaməsində əks olunan da absurddur və bunu elə BMT Qətmanəsi özü hər şeydən əvvəl təsdiq edir. Bu mötəbər qurum bilmirmi ki, 30 il ərzində Azərbaycanın 20% ərazisi erməni işğalı altında qalıb? Lap elə həmin o 30 il ərzində belə bilmirdimi bu barədə? Bilmirdimi ki, Azərbaycana məxsus torpaqlara soxulan erməni silahlıları müsəlman əhalinin qırğınlarını təşkil edərək əraziləri işğal ediblər? Bilirdi. Bilirdi ki, Xocalı kimi dünyada tayı-bərabəri olmayan bir insanlıq dramını da erməni silahlıları, Ermənistan tərəfi törədib. Bilirdi ki, bu ölkənin o zamankı rəhbərliyi törətdiyi əmələ görə qürrələnirdi də. Yaxşı bəs niyə Avropa Parlamenti qısa zaman kəsiyində deyil, 30 il müddətində bircə dəfə guya indi keçirdiyi kimi narahatlıq keçirdiyini bəyan etmirdi? Ekoaktivistlərin Laçın yolunda ekoloji terrora qarşı dinc aksiyasına "blokada" deyən, bunu humanitar fəlakət adlandıran Avopa Parlamenti niyə ötən əsrin 90-cı illərində erməni silahlılarının, separatçılarının işğal etdiyi Azərbaycan ərazilərində dinc sakinlərə qarşı həyata keçirilən soyqırım və etnik təmizləməyə bir ad vermirmidi və bunları görməməzliyə vururdu? Deməli, etnik təmizləmə, soyqırım deyil, Laçın yolunda ekoloji terrora qarşı dinc aksiya humanitar fəlakət deməkdir? Bu absurd yanaşma deyilmi?

Guya parlamentarilər bilmirlərmi ki, Azərbaycan Laçın dəhlizini bloklamayıb? Bilmirlərmi ki, həmin marşrutla humanitar yüklər daşıyan nəqliyyat vasitələri fasiləsiz şəkildə hərəkət edir? Lap əgər bilmirlərsə, əvvəlcə bu barədə bilgi əldə etsinlər və sonra fikir ifadə etsinlər. Bunu bilmədən etmək özü də absurddur. Amma bu qədər parlamentarinin hamısının bilməməsi də inandırıcı deyil. Hətta parlamentarilər onu da bilirlər, yaxud bilməlidirlər ki, həmin o Laçın yolu ilə erməni separatçıları Azərbaycan ərazilərinə humanitar yüklərdən əlavə minalar da daşıyıblar və 282 nəfər azərbaycanlı 44 günlük müharibə bitdikdən sonra onların daşıyıb gətirdikləri minaların qurbanına çevrilib. Niyə bu barədə parlamentarilər susurlar? Niyə bu vaxta qədər bircə dənə qətnamələrində ermənilərin basdırdıqları minalar və onların ölüm saçan təhlükəsi barədə bircə dənə də ifadə səslənmir? Bu qədər vətəndaşımızın həyatını itirməsi ilə Laçın yolunda keçirilən aksiya nəticəsində guya Qarabağdakı erməni əhalinin çətinliklə qarşılaşması müqaisəyə gələndirmi? Bunları müqaisə etmək özü də absurddur.

Baxmayaraq ki, 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatın şərtlərinə görə Ermənistan tərəfi öz qoşunlarını Azərbaycan ərazilərindən tam şəkildə çıxarılmalı idi, amma hələ də çıxarmayıb. Heç belə bir niyyətinin olduğu da görünmür. Nə də tələsmirlər öz qoşunlarını çıxarmağa. Əksinə, həmin ərazilərə silah-sursat, minalar daşımaq niyyətləri və məramları ortadadır. Bu isə sülh danışıqlarının ruhuna da ziddir, hələ bir gedişinə də, hansı ki, parlamentarilər çağırış edirlər. Bu nə şəkildə çağırışdır? Buna çağırış demək olmaz, bu ancaq ermənipərəstlikdir. Çünki Avropa Parlamenti Ermənistana çağırış etmir ki, silahlı qüvvələrini üçtərəfli bəyanatın şərtlərinə uyğun şəkildə Azərbaycan ərazilərindən geri çəksin, əksinə, Ermənistan ərazilərini boşaltmaq çağırışı ilə Azərbaycana səslənir. Bax bu da absurd şəkildə məsələyə yanaşmadır ki, bunu bütün dünya görür. Bütün dünya görür ki, Avropa Parlamenti bu dəfə ermənipərəstliyini açıq şəkildə ortaya qoyaraq Azərbaycanı absurd şəkildə, özü də ədalətsizcəsinə hədəfə aldı. Təbii ki, belə bir mövqe sərginləməsi Avropa Parlamenti üçün də, parlamentarilərin özləri üçün də nüfuz gətırəcək məqam deyil, əksinə, ilk növbədə bu qurumun nüfuzunun heçə endirilməsi deməkdir. Belə Bəyanatlar, Qətnamələr Azərbaycanı nə öz yolundan çəkindirəndi, nə də haqq işindən döndərən. Belə rutin Bəyanatlar, Qətnamələr keç zaman heç bir təsir effektinə malik olmayıb və Avropa Parlamentini nüfuzdan salmaqdan başqa bunun heç bir təsir effekti olmayacaq.

*İnam Hacıyev*





## Masallıda ərazi partiya təşkilat sədrlərinin iştirakı ilə tədbir keçirilib

Dünən Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatı aparatında 2022-ci ilin yekunu və 2023-cü ildə qarşıda duran vəzifələr ilə əlaqədar Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatının ərazi partiya təşkilat sədrlərinin iştirakı ilə tədbir keçirilib. Müşavirəni giriş sözü ilə Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev açmış, Ulu öndər Heydər Əliyevin eləcə də Şəhidlərin əziz xatirəsi 1 dəqiqəlik sükutla yad edilmişdir. Seyfəddin Əliyev məruzə edərək qeyd etmişdir: "Müasir Azərbaycan dövlətinin qurucusu, ölkəmizin milli dövlətçilik ənənələrinin qurulmasında və inkişafında misilsiz xidmətləri olan dahi rəhbər, Ümummilli Lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilən siyasi kurs bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Cənab Prezident İlham Əliyev ölkəmizə rəhbərlik etdiyi bu illər ərzində Ulu Öndər Heydər Əliyevin ideyalarına və siyasi strategiyasına daim sadiq qalaraq, onları yeni çalarlarla və müasir dövrün tələblərinə uyğun şəkildə uğurla davam etdirir. 30 ilə yaxın davam edən Dağlıq Qarabağ münaqişəsi məhz Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin qətiyyəti, cəsarəti və siyasi iradəsi sayəsində öz həllini tapıb. Bizə bu günləri yaşadan, tarixi Zəfərimizə imza atan cənab Prezidentə hər zaman minnətdarıq. Hazırda qarşıda dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə Qarabağda həyatı dirçəltmək, bərpa etmək kimi mühüm və şərəfli bir vəzifə dayanır. Əminik ki, Qarabağımız cənnətə çevriləcək, soydaşlarımız doğma torpaqlarına tam qayıdacaqlar".

Seyfəddin Əliyev bildirmişdir ki, bu gün Yeni Azərbaycan Partiyası ölkəmizdə həyata keçirilən hüquqi dövlət, vətəndaş cəmiyyəti quruculuğu, demokratik inkişaf prosesində yaxından iştirak edir, müstəqil Azərbaycan dövlətinin yüksəlişinə, tərəqqisinə öz töhfələrini əsirgəmir. 2021-ci il martın 5-də keçirilən Yeni Azərbaycan Partiyasının VII qurultayı partiyanın və ölkənin inkişafında yeni mərhələnin əsasını qoyub. Görülən işlər mütəmadi olaraq təhlil edilir, müvafiq nəticələr çıxarılır və müəyyən olunmuş vəzifələrə və perspektiv hədəflərə dair müzakirələr aparılır, fəaliyyət istiqamətləri müəyyənləşdirilir. Qurultayda qəbul edilən qərarlar partiyamızın inkişafı və müasir çağırışlara cavab verməsi ictimai-siyasi öhdəlikləri layiqincə yerinə yetirməsi üçün olduqca əhəmiyyətlidir.

Seyfəddin Əliyev qeyd etmişdir ki, Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatı əvvəlki illərdə olduğu kimi, 2022-ci il ərzində də fəaliyyətini Yeni Azərbaycan Partiyası qurultayının qarşımıza qoyduğu vəzifələri həyata keçirmək, Yeni Azərbaycan Partiyası Mərkəzi Aparatının tapşırıqlarını icra etmək və rayonumuzun bütün ictimai-siyasi həyatında yaxından iştirak etməkdən ibarət olmuşdur. Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatı öz fəaliyyətini "Yeni Azərbaycan Partiyasının yerli təşkilatları haqqında əsasnamə"sinə eləcə də rayon təşkilatının İş Planlarına uyğun olaraq qurmuş, qarşıda duran vəzifələr uğurla icra edilmişdir. Ümumi tərkibdə rayon təşkilatının qeydiyyatında 11251 nəfər partiya üzvü vardır. Onlardan 33.06%-i yəni 3720 nəfərini qadınlar, 20.86%-i yəni 2348 nəfərini gənclər təşkil edir". Müşavirədə Bədəlan ərazi partiya təşkilatının sədri Arif Mehtiyev, Ərkivan ərazi partiya təşkilatının sədri Əfrail Fərziyev, Təklə ərazi partiya təşkilatının sədri Elşən Bəşirzadə, Babaser ərazi partiya təşkilatının sədri Nərgiz Məmmədova, Masallı Dövlət regional Kollec ərazi partiya təşkilatının sədri Vidadi Nəzərov və başqalarının 2022-ci ildə gördüyü işlər dinlənilmiş və qarşıda duran vəzifələr müzakirə edilmişdir. Çıxışlardan sonra partiya həyatında fəal iştirakına görə bir qrup YAP üzvü rayon təşkilatının Fəxri Fərmanı və qiymətli hədiyyələri ilə təltif edilmişlər.

# İqor Yuşkov: "Azərbaycanla əməkdaşlıq Rusiya üçün sərfəlidir"

Rusiyanın enerji bazarı tarixinin bəlkə də ən çətin dövrünü yaşayır. Bəs Rusiya energetikası belə çətin vəziyyətə necə uyğunlaşır? Nə üçün Azərbaycanla iqtisadi sahədə əməkdaşlıq etmək onun üçün sərfəlidir? Bu barədə "Caliber" analitik mərkəzinə müsahibəsində Rusiya Federasiyası Hökuməti yanında Maliyyə Universitetinin eksperti, Milli Enerji Təhlükəsizliyi Fondunun aparıcı analitiki İqor Yuşkov maraqlı fikirlər bildirib. Müsahibəni oxucularımıza təqdim edirik.






***- İndiki şəraitdə Rusiya neft və qazının ixracı ilə bağlı vəziyyət necədir?***

- Sual qlobaldır, genişdir. Ümumiyyətlə, biz belə mənzərəni görürük: neft və kömür daşınması daha asandır, ona görə də bu sahədə satış bazarlarının transformasiyası 2022-ci ildə baş verib və hazırda qaz sektoruna nisbətən daha sürətlə baş verir. Rusiya sanksiyaları nəzərə alaraq, tədarük coğrafiyasını demək olar ki, tamamilə dəyişməli oldu. Bu kontekstdə demək olar ki, Moskva digər enerji istehsalçıları ilə satış bazarlarını dəyişir, çünki 2022-ci il avqustun 10-dan etibarən Rusiya kömürünün Avropa bazarlarına tədarükünə qadağa, dekabrın 5-dən isə kömürə qadağa qoyulub, həmçinin neftin dəniz yolu ilə Avropaya çatdırılmasına. Ona görə də, hazırda bazarların təlatümlü olduğunu deyə bilərik- demək olar ki, bütün Rusiya nefti və kömür Asiya bazarlarına gedir. Rusiya nefti hələ də neft kəməri ilə Avropaya- Macarıstan, Çexiya, Slovakiya və Serbiyaya gəlir. Buradakı həcmlər çox kiçikdir, onları Asiya istiqaməti ilə müqayisə etmək olmaz.

Digər ciddi problem odur ki, dekabrın 5-dən Rusiya neftinə embarqo tətbiq edildikdən sonra eyni vaxtda başqa bir sanksiya növü- Rusiya neftinin qiymətinin tavanı işləməyə başladı. Burada başa düşmək lazımdır ki, bu, Rusiya neftinin bir barelinin 60 dollardan yuxarı alınmasına qadağa deyil- onu istənilən qiymətə ala bilərsiniz və ABŞ və Aİ-nin idxal edən ölkələr üçün ayrıca vurğuladığı ikinci dərəcəli sanksiyalar yoxdur. Amma bu, onun daşınmasına qadağadır və əgər tanker bir barel üçün 60 dollardan yüksək qiymətə neftlə doldurularsa, belə daşımaların sığortalanmasıdır.

Hələlik biz 2022-ci ilin yazında olduğu kimi eyni effekti görürük: o zaman Amerikanın Rusiya neftinə embarqosu da aprelin 1-dən tətbiq olundu və digər ölkələr əlavə həcmdə Rusiya nefti almaqdan qorxurdular. Bu, satış bazarlarının Asiyaya istiqamətləndirilməsinin ilk dalğası idi və dərhal müqavilə bağlamaq mümkün deyildi, bu o deməkdir ki, biz Asiya bazarlarından rəqibləri sıradan çıxarmaq üçün ixracı azaltmalı və Rusiya neftinin alıcısına böyük endirim etməli olduq. bu yolla və onları bizim əvəzimizə Avropa bazarına getməyə məcbur etdik. Bu sxemin necə həyata keçirildiyi aydındır.

İndi biz təxminən eyni effekti görürük: iki növ sanksiyalar dekabrın 5-dən işə başladı və Rusiya nəhayət ki, Asiya bazarlarına üstünlük verdi. Təbii ki, bazarların belə ciddi və təcili dəyişməsinin Rusiya üçün, məsələn, çatdırılma baxımından çatışmazlıqları var. İndi buna daha çox xərcləmək lazımdır, çünki nəqliyyat nəqliyyat xərcləri əhəmiyyətli dərəcədə artır. Rusiyanın Avropa bazarlarında enerji resursları tədarükçüsü kimi əvəz edənlər üçün də təchizat xərcləri artıb- eynilə Yaxın Şərq tədarükçüləri üçün: əvvəllər Hindistana yaxınlıqdan neft gətirirdilər və bu, yaxşıdır. Və buna görə də regionlarda nəqliyyat vasitəsi kimi dəniz tankerlərinə tələbat artıb.

Rusiya hazırda mühüm məsələ ilə məşğuldur: Rusiya neftinə qiymət tavanının tətbiqi ilə əlaqədar olaraq, qiymət tavanına məhəl qoymayan və istənilən qiymətə alınan Rusiya neftini daşıyacaq öz tanker parkının yaradılmasına ehtiyac var. Belə bir donanma artıq formalaşır. Amma istənilən halda belə tankerlərin sahiblərinə pul ödənilməlidir və onlar kifayət qədər böyük məbləğlər istəyirlər, çünki bu da onlar üçün riskdir. Və belə bir donanma üçün çatdırılma dəyərinin artdığı ortaya çıxır. Beləliklə, məlum olur ki, yeni şəraitdə neft ixrac edən Rusiya şirkətləri az gəlir əldə edirlər- görürük ki, Maliyyə Nazirliyinin məlumatları göstərir ki, Rusiyanın Urals neftinin 15 dekabr 2022-ci il tarixindən orta dəyəri 2023-cü il yanvarın 15-nə kimi bir barel cəmi 46 dollar təşkil edib. Digər tərəfdən, bu, müştərilərə böyük endirim etdiyimizin göstəricisidir.

Beləliklə, düşünürəm ki, ilk sarsıntıdan sonra və 2022-ci ilin təcrübəsini nəzərə alaraq, Rusiya şirkətləri tədricən yeni təchizat zəncirləri quracaq, tanker donanması inkişaf edəcək və bu yolla Rusiya itirilmiş neft ixracı həcmlərini bərpa etməyə başlayacaq. 2023-cü ilin birinci yarısı çətin olacaq, lakin ikinci yarıda aktivlik və mənfəət yüksələcək. Bununla belə, biz görürük ki, Brent-in istinad qiyməti miqyasından aşağı düşmür- neftə qlobal tələb o qədər də yüksək deyil. İlin birinci yarısının sonuna qədər Çinin iqtisadiyyatının bərpasına təsir edən koronavirusla işi bitirməsi gözlənilir. İnanıram ki, Aİ və ABŞ-da tətbiq edilən antiinflyasiya tədbirləri də ABŞ Federal Ehtiyat Sisteminin yenidən maliyyələşdirmə dərəcəsinin mümkün azaldılmasına qədər yumşaldılacaq. Çox güman ki, bu proseslər fonunda 2023-cü ildə Rusiya hətta builki Rusiya büdcəsində nəzərdə tutulan neftin bir barelinin qiymətini 70 dollara çatdıra biləcək.

***- Konkret olaraq Rusiyanın qaz bazarında vəziyyət necədir- deyəsən, bu daha böyük təzyiq altındadır...***

- Qazla bağlı vəziyyət başqadır. Onun axınlarını Asiya bazarlarına yönləndirmək üçün ya boru kəmərləri, ya da qazın mayeləşdirilməsi zavodu və qaz daşıyıcıları parkı lazımdır. Rusiyanın belə bir infrastrukturu yoxdur və əgər Rusiya Qərbi Sibir yataqlarından Avropaya qaz verirdisə, o zaman Şərqi Sibir yataqlarından qaz Çinə "Sibirin gücü" qaz kəməri ilə gedir. Avropa bazarından Asiya bazarına çatdırılmaların bu şəkildə yenidən qurulmasında həcm fərqi çox əhəmiyyətlidir- məsələn, Aleksandr Novakın sözlərinə görə, 2022-ci ildə "Sibirin Gücü" vasitəsilə Çinə cəmi 15 milyard kubmetr, Avropa isə 2021-ci ildə təxminən 155 milyard kubmetr Rusiya qazı (Türkiyə istisna olmaqla) və 2022-ci ildə isə 80 milyard kubmetr qaz alıb.

İndi Rusiya, yeri gəlmişkən, müharibədən asılı olmayaraq, Ukrayna kəməri ilə, həmçinin, "Türk axını" xətlərindən biri ilə Avropaya qaz verir, lakin bu, illik hesablamada cəmi 28-30 milyard kubmetrdir- həcmlər çox kiçikdir. Rusiyanın Avropaya vermədiyi qaz heç yerə getmir- sadəcə qaz hasilatını azaltmaq lazımdır. Qərbi Sibir yataqlarından qaz göndərmək üçün Çinlə yeni müqavilə bağlamaq, bunun üçün ən azı üç-dörd il müddətinə "Sibirin gücü-2" kəmərini çəkmək lazımdır. Çinlə müqavilənin hələ bağlanmamasına baxmayaraq, Pekin sərt danışıq aparan tərəfdir və Qazprom ilə danışıqlar hələ də davam edir. Qaz bazarını xilas etmək üçün başqa bir variant qazın mayeləşdirilməsi zavodlarının tikintisidir.

***- Azərbaycan hazırda əsasən bu yaxınlarda tikilmiş TANAP-TAP kəməri vasitəsilə Avropaya əhəmiyyətli qaz tədarükçüsüdür. Üstəlik, Türkiyədə qaz qovşağından söhbət gedir. Bu barədə nə düşünürsünüz?***

- Azərbaycanla əməkdaşlıq, yəqin ki, Rusiyanın Avropa bazarında qalmasına, məsələn, Türkiyədə qaz qovşağı ideyasını reallaşdırmağa kömək edə bilər. Rusiya rəhbərliyinin planına görə, əgər Aİ Rusiya Federasiyasının qaz infrastrukturunun tikintisini və tranzit ölkələrin risklərini öz üzərinə götürməsində israr edərsə, biz başqa cür hərəkət etməyə hazırıq - qonşu neytral ölkəyə qaz tədarük edə bilərik və oradan avropalılar özləri götürərlər, yəni qaz kəmərləri çəkirlər və tranzit risklərini öz üzərlərinə götürürlər. Beləliklə, Türkiyə qaz qovşağına daxil olan Rusiya qazının Avropa şirkətləri üçün şəxsiyyətsizləşdirilməsi və sanksiya statusunu itirməsi gözlənilir. Və burada nə qədər fərqli qaz qarışdırılarsa, Rusiya üçün bir o qədər yaxşıdır. Və burada, bu qovşaqda Azərbaycan qazının olması təbii ki, Rusiyaya kömək edə bilərdi.

Mübadilə metodundan istifadə edən başqa, tamamilə "dürüst" variant da var - yəni "Qazprom" Azərbaycanın daxili bazarına müəyyən həcmdə "mavi yanacaq" tədarük edir və Azərbaycan da eyni həcmləri Türkiyə xətlərinə göndərir, beləliklə, bütün məsələ həll olur.

***Tərcümə - Elçin Bayramlı***



# O 44, bu 44...

MƏTANƏT

**Bu gün Xankəndi-Laçın yolunda keçirilən etiraz aksiyasının 44-cü günüdür. Bəli, bu 44 o 44-ü yada salır. İki əvvəlki 44-ü. 44-lərin hər ikisi mübarizə, mücadilə 44-ləridir. O 44 İkinci Qarabağ savaşının, bu 44 isə Qarabağ savaşından sonra torpaqlarımızda separatçı qüvvələrin özbaşınalığına, talançılığına qarşı etiraz mücadiləsidir.**

44... Bu rəqəm xalqımız üçün xüsusiləşmiş bir rəqəmə çevrilib. Bu rəqəmi harada görürüksə, onda özümüzə bir yaxınlıq, doğmalıq hiss edirik. Doğmadır, bəli, çünki minlərlə doğmamız həmin 44 gündə namus, qeyrət savaşına qalxmışdı. Doğmadır, bəli, bir doğmamızı itirsək də, bir doğmamızı geri ala bildik.

44 rəqəmi bizim üçün sevimlidir. Çünki 30 ilin hicranını 44 bizə vüsal etdi. 30 illik yaralarımızın süzülən qanı bu 44 gündə dayandı. Qaysaq qoydu yaralarımız. Deməli, sağalmağa başladı.

44 günün hər birində bir qarış addımladıq. Qarabağımızın bağrını qan, gününü qara edənlərin qara gününə çevrildik. Torpaqlarımızı qarış-qarış azad etdik. Onları doğmasına-Azərbaycana qaytardıq. Uzun illərdən bəri Qarabağ uğrunda canlarından keçən şəhidlərimizin qisasını aldıq.

44 gün üçrəngli bayrağımızın ən şad günlərindən oldu. Çünki müstəqilliyimizin bərpasından bəri bayrağımızın Qarabağa heç yolu düşməmişdi. 44 gündə Qarabağ səmasında dalğalanan bayrağımız sanki yenidən doğuldu.

44 gün Qarabağın üzünü güldürdü. 30 illik qara şalını çıxardı başından, al şal bağladı. 44 gün payız idi, birdən-birə yaza çevrildi. Şəhidimizin qanı suladı 30 illik dili-dodağı susuzdan cadar atan torpaqlarımızı. Payız bahara döndü. Qarabağa günəş doğdu. Hansı ki, igidinin ayaq səslərini eşitməyənədək Qarabağ nə qara şalını çıxaracaqdı, nə günəşini doğuracaqdı, nə də gül-çiçəyini açdıracaqdı.

44 birliyimizi, həmrəyliyimizi, Ali Baş Komandanımızın ətrafında birləşməyimizi bütün dünyaya göstərdi. Biz dəmir yumruğu bir, birlik olmaqla düşmənin başına elə endirmişik ki, hələ də ağrısı keçməyib. Elə iki ildən bəri törətdikləri bütün hadisələr də həmin yumruğun yanğısından qaynaqlanır.

Bu da bugünkü 44. Qışın şaxtalı - soyuqlu günlərində artıq 44 gündür ki, Azərbaycanın ekofəalları ermənilərin torpaqlarımızda faydalı qazıntı yataqlarının qanunsuz istismarına, ekologiyamıza vurduqları ciddi ziyana görə etiraz aksiyası keçirirlər.

Hər gün Dövlət himnimizin, Vətənimizə, torpaqlarımıza, sərvətlərimizə sahibliyimizlə bağlı şüarların səsləndirilməsi, gənclərin, ekofəalların, jurnalistlərin gecə-gündüz bu mücadiləni davam etdirməsi bizin iki il öncəki 44 gündəki mübarizəmizlə eyniyyət təşkil edir. Bu, Vətən, torpaq uğrunda mübarizənin davamıdır. O vaxta qədər də davam edəcəkdir ki, ermənilər yenə o 44-ün sonunda ağ bayraq qaldırdıqları kimi, bu dəfə də geri çəkiləcəklər. Talançılıq və özbaşınalıqlarına son qoyacaqlar.

Bu 44-lərin hər biri ermənilərin hələ də qaldıqları 30 il əvvəlki dövrdən tamamilə fərqlidir. Onlar hesab edirdilər ki, biz 30 il əvvəlki gücdəyik. 30 il əvvəlki çarəsizlikdəyik. Əsla. Çox yanılmışlar. Ölkəmizin rəhbəri, Ali Baş Komandanımızın gücü, bacarığı və qətiyyəti ilə 30 ilin başlanğıcındakıların hər birinin yerini inkişaf, intibah, birlik alıb.

44 gündə qonşuluqdan kənar olmuş qonşularımız hər şeyi yaxşı gördülər. Elə bu 44 də çox məqamların göstəricisidir. Bunu da yaxşı dərk edirlər. Bizim isə mübarizəmiz davam edir. Görək bu gün 44 günü tamam olan mübarizəmiz qarşısında dayanmağa gücləri çatacaqmı? O 44-də olduğu kimi.

SİYASİ RAKURS + AKTUAL

# Fransa "demokratiyasının" antidemokratiya siyasəti

*Sosial ədalət və hüquq tələb edən sadə fransızlar Makronun "dəyənəkləri" altında əzilirlər!*



**Fransa hakimiyyətinin pensiya yaş həddinin artırılması qərarından dərhal sonra başlayan kütləvi etirazlar artıq iğtişaşlara çevrilib. Sadə fransızlar növbəti dəfə Makron iqtidarının xalqın marağına cavab verməyən qərarlar verməsindən haqlı olaraq hiddətləniblər və nə qədər maraqlı görünsə də, digər ölkələrə demokratiya, insan haqları ətrafında dərslər keçməyə cəhd edən fransız hakimiyyəti özünə məxsus olan "demokratiya" şəklində antidemokratiya siyasəti yürüdür.**

### PKK terror təşkilatının iğtişaşlarına göz yuman fransız polisi sadə fransızları əzir!

Fakt budur ki, hadisələri təhlil edən çoxsaylı siyasi ekspertlər qruplarının təmsilçiləri də bəyan edirlər ki, Fransa polisi aksiyalara ikili standartlarla yanaşırlar. Məsələn, özünün əzəli vətəndaşlarına - fransızlara qarşı vəhşi üsullara əl atan polis və hakimiyyətin digər güc strukturları nədənsə bir çox ölkələrdə terror təşkilatı kimi tanınan PKK-nın ölkənin bir sıra şəhərlərində dağıdıcı və anarxik yürüşlər keçirən tərəfdarlarına qarşı kifayət qədər mülayim nümasibət göstərib. Belə ki, yanvarın 19-da Parisdə keçirdiyi etiraz aksiyası zamanı təxribatların qarşısını almayıb və proses kənardan izlənilib.

### Jan Mişel Brən: "Özünü demokratik adlandıran bir ölkədə polisin dəyənəkdən istifadə etməsi yolverilməzdir"

Artıq fransız cəmiyyətinin tanınmışları da zorakılığa, qəddarlığa qarşı öz etirazlarını bildirməyə başlayıblar. Misal üçün, "Özünü demokratik adlandıran bir ölkədə - Fransada polisin dəyənəkdən istifadə etməsi yolverilməzdir". "Musulmansenfrance" portalının təsisçisi, jurnalist-rejissor Jan Mişel Brən (Jean-Michel Brun) mediaya açıqlamasında bildirib ki, Fransa hökuməti əhalinin çoxsaylı etirazlarını nəzərə almayacağını bir daha elan etdi. Onun sözlərinə görə, polis zorakılığı Fransada təkrar-təkrar baş verən problemlərdən birinə çevrilib: "Keçən həftə sülh şəraitində etiraz aksiyası keçirən əhaliyə qarşı polis növbəti dəfə dəyənəklərdən istifadə etdi. Polis dəyənəyi nəticəsində yaralanaraq təcili surətdə əməliyyat olunan bir şəxs artıq məhkəməyə müraciət edib. 2020-ci ildəki etiraz aksiyaları zamanı da Fransa polisi zorakılıq aktları nümayiş etdirmişdi. O zaman ölkə prezidenti Emmanuel Makron və daxili işlər naziri polis zorakılığını nümayiş etdirən videoların sosial şəbəkələrdə geniş surətdə yayıldığını gördükdən bu hala reaksiya vermişdilər. Onlar belə halların bir daha baş verməməsi üçün müvafiq tədbirlər görəcəklərinə söz vermişdilər. Lakin təəssüflər olsun ki, bu hallara son qoyulmayıb. Özünü demokratik adlandıran bir ölkədə polisin dəyənəkdən istifadə etməsi yolverilməzdir".








Media təmsilçisinin sözlərinə görə, Emmanuel Makron əhalinin istəyinin ziddinə gedərək seçkiqabağı kampaniyasındakı proqramını hər vasitə ilə həyata keçirməyə çalışır: "Yanvarın 19-da Fransa əhalisinin təqaüd sistemindəki dəyişikliklərə etirazlarını bildirmək üçün ölkənin böyük şəhərləri olan Paris, Marsel və Lionda təşkil olunmuş nümayişlərdə etirazçıların sayı bir milyon yarımı ötüb. Etiraz aksiyalarında xüsusilə nəqliyyat işçiləri, təhsil işçiləri, enerji sahəsində çalışanlar böyük fəallıq göstərdilər. Ölkə prezidenti Emmanuel Makron bu çoxsaylı etirazlara baxmayaraq seçkilər zamanı təqdim etdiyi proqramını həyata keçirəcəyini, təqaüd sistemində nəzərdə tutulmuş dəyişiklikləri həyata keçirəcəyini bir daha təsdiq etdi. Unutmayaq ki, Emmanuel Makron prezident seçkilərinin səhərisi vətəndaşların çoxsaylı səslərini toplamasını seçkiqabağı kampaniya zamanı təqdim etdiyi proqramının olmadığını boynuna alaraq, əskinə, ekstremist sağçıların hakimiyyətə gəlməsinə mane olmaq üçün seçildiyi faktını qəbul etmişdi. Bu gün ölkə prezidentinin seçkiqabağı kampaniyasındakı proqramını hər vasitə ilə həyata keçirməyə çalışması antidemokratik siyasət yürütdüyünü göstərir".

### Fransa Makronun hesabına nəinki öz demokratiyasını itirir, hətta get-gedə özünün tarixi və qəddar, eləcə də qəsbkar idarəçilik mexanizmlərinə doğru irəliləyir

Bu gün Fransanın aparıcı mətbuat qurumları da Makronun reytinqinin xalq qarşısında çox aşağı düşdüyünü bəyan edirlər. Məsələn, Fransa prezidenti Emmanuel Makron və Baş nazir Elizabet Bornun reytinqi pensiya islahatları fonunda aşağı düşüb. Məsələn, "Lfop" ictimai rəy institutunun sorğusuna əsasən, dövlət başçısı və kabinet rəhbəri pensiya islahatının hazırlanmasına görə müvafiq olaraq iki və dörd xal itiriblər.

"Le Figaro" qəzeti isə yazır ki, Makron indi ötən ilin aprelində yenidən prezident seçildikdən sonra ən aşağı reytinqə malikdir. Belə ki, rəyi soruşulanların 34 faizi dövlət başçısının fəaliyyətindən razı qaldığını bildirib. Prezident seçkilərindən indiyədək bu, yeddi pillə azalma deməkdir.

Etirazçıların da sayı get-gedə artmaqdadır. Fransa Daxili İşlər Nazirliyi yanvarın 22-nə olan məlumatında pensiya islahatlarına qarşı 1,12 milyon etirazçının olduğunu bildirmişdi, bu gün isə etirazçıların sayının 2 milyona çatdığı qeyd olunur.

Bütün bunlar isə bir daha sübut edir ki, artıq Fransa Makronun hesabına nəinki öz demokratiyasını itirir, hətta get-gedə özünün tarixi və qəddar, eləcə də qəsbkar idarəçilik mexanizmlərinə doğru irəliləyir. Belə desək, müasir Avropanın göbəyindəki bu ölkədə orta əsrə aid olan cəza üsulları görünməyə başlayır və bundan sonra Fransada gilyantinlə edam cəzası yenidən hökmə minənsə artıq bundan təəccüblənməyə dəyməz. Çünki bu ölkənin prezidenti Makrondur...

***Rövşən RƏSULOV***

## "Nar"ın dəstəyi ilə keçirilən "Breyn Rinq" bilik yarışında mübarizə daha da gərginləşir




"Nar"ın dəstəyi ilə 20-ci mövsümü keçirilən "Breyn Rinq" intellektual oyununda mövsümün tən yarısı geridə qalıb. Yarışın yarıdan çox hissəsinin geridə qalmasına baxmayaraq iştirak edən bütün komandaların çempionluğa şansları hələ də qalmaqdadır. Bu səbəbdən də 20 komandanın iştirak etdiyi oyunda mübarizə daha da gərginləşir. Bu komandalar Azərbaycanın 10 bölgəsini və 7 universitetini təmsil edir. Mobil operatoru təmsil edən "Nar" komandası da Yüksək liqada yer alır. Ölkənin intellektual inkişafında böyük rol oynayan "Breyn Rinq" yarışını hər həftənin bazar günü saat 18:20-də İctimai Televiziyadan izləyə bilərsiniz.

Elm və təhsilin inkişafına dəstək "Nar"ın əsas KSM istiqamətlərindən biridir. Mobil operatorun həyata keçirdiyi sosial layihələr haqqında ətraflı məlumatı nar.az səhifəsindən əldə etmək olar.

"Nar" hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. "Nar" son 3 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.



# Xərçəngdən necə yaxa qurtarmalı?

**Dünya yarandığı gündən insanlar bir çox ciddi xəstəliklərdən əziyyət çəkir. Onlardan ən təhlükəlisi də "əsrin bəlası" hesab olunan xərçəng xəstəliyidir. Bildiyimiz kimi, bu xəstəlik qoca-cavan demədən günü-gündən ciddi şəkildə artmağa doğru davam edir. Bu xəstəlik bir çox hallarda körpə uşaqları ana-atasız, ana-ataları da balasız qoyur. Üstəlik bundan qurtulmaq yolu da olduqca çox maliyyə vəsaiti və bolluca əziyyət tələb edir.**

Bəs, nə etməliyik? Özümüzü bu bəladan necə qoruyaq? Ona necə qalib gələk?

SİA mövzu ilə bağlı araşdırma aparıb. Xərçəng xəstəliyinə nələr səbəb olur?

- Siqaret və spirt istifadəsi
- Radiasiyaya məruz qalma,
- Bəzi viruslar,
- Pis yemək vərdişləri,
- Qida əlavələri,
- Günəş işığına uzun müddət məruz qalma,
- Rentgen şüalarının həddindən artıq dozası,
- Bəzi kimyəvi maddələr (qatran, benzin, boyalar, asbest və s.).

Ən sıx görülən xərçəng xəstəliyi tipləri hansılardır?

Ən çox görülən xərçəng tipləri kişilər və qadınlar arasında fərqlidir. Burada əsas səbəb hormonal dəyişikliklərdir. Döş xərçəngi bu gün qadınlarda ən çox görülən xərçənglərdən biridir. İkinci yerdə ağciyər və bağırsaq xərçəngi gəlir. Kişilərdə görülmə sıxlığına görə, prostat, ağciyər və kolon xərçəngi ilk üç yerdədir. Burada diqqət çəkən ən mühüm məqamlardan biri də siqaretdən çox istifadə səbəbindən qadınlarda ağciyər xərçəngi də artmaqdadır.

Xərçəng xəstəliyinə daha çox hansı yaşlarda rast gəlinir?

Xərçəngin əmələ gəlməsi və inkişafı üçün ən mühüm risk faktoru yaşdır. Xərçəng xəstələrinin 60 faizi 65 yaş və daha yuxarıdır. Bilməlisiniz ki, yaş xərçəng xəstəliyində və müalicədə mühüm amillərdən biridir.

Gənc yaşlarda xərçəngə yoluxmaq mümkündür?

Gənclərdə ən çox rast gəlinən xərçəng növləri limfoma, sarkomalar (yumşaq toxuma və sümük sarkomaları), melanoma (dəri xərçənginin bir növü), testis xərçəngi, süd vəzi xərçəngi, kolon xərçəngi, uşaqlıq boynu və yumurtalıq xərçəngi, beyin şişlərinin olduğu bildirilir.

Xərçəng xəstəliyi daha çox hansı ölkələrdə geniş yayılıb?

Xərçəngə ən çox Avstraliya və Yeni Zelandiyada rast gəlinir. Qlobal miqyasda əhaliyə nisbətdə xərçəngə ən çox rast gəlinən ölkə 100.000 nəfərə 468 hadisə ilə Avstraliya, 438 hadisə ilə Yeni Zelandiya ikinci yerdədir.

100 min nəfərə 373 hadisə ilə İrlandiya, 368 hadisə ilə Macarıstan, 352 hadisə ilə ABŞ, 345 hadisə ilə Belçika, 337 hadisə ilə Fransa, 337 hadisə ilə Norveç və 334 hadisə ilə Hollandiya və Kanadada geniş yayılıb.

Xərçəng xəstəliyinin qarşısı alına bilər?

Xərçəngdən ölümlərin 40%-nin qarşısı alına bilər. ÜST-nin məlumatına görə, ən çox ölümlə nəticələnən xərçəng növləri ağciyər, yoğun bağırsaq, qaraciyər, mədə və döş xərçəngi olub. Ağciyər xərçəngi 1,8 milyon, kolon 935 min, qaraciyər 830 min, mədə 769 min, döş xərçəngi isə 685 min adamı öldürüb. Hər 6 ölümdən 1-nə səbəb olan xərçəng növləri 2020-ci ildə 10 milyon insanın ölümünə səbəb olub.



Xərçəngdən ölümlərin üçdə biri tütün istifadəsi, yüksək bədən kütləsi indeksi, spirt istehlakı, az meyvə və tərəvəz istehlakı və fiziki fəaliyyətin olmaması səbəbindən baş verib. Aşağı və aşağı gəlirli ölkələrdə xərçəng hadisələrinin 30 faizi insan papillomavirusu (HPV) və ya hepatit kimi infeksiyalardan qaynaqlanır.

Xərçəng hadisələrinin yüzdə 30-50-nin risk faktorlarından qaçmaqla qarşısının alına biləcəyini ifadə edən ÜST, erkən diaqnoz və uyğun müalicə ilə bir çox xərçəng növünün sağalma şansının yüksək olduğunu bildirir.

Onkoloq-cərrah İbrahim Əsədli: "Xərçəngin səbəbi son 100 ildə həyat tərzimizin dəyişməsidir. Az hərəkətlilik (bu əsasən şəhər əhalisinə aiddir), qidanın və ətraf mühitin dəyişməsi, psixoloji sıxıntılar, şəhərdə insanların sıx olması, bunlar hamısı birlikdə xərçəngin getdikcə artmasına şərait yaradır.

Özümüzü bu bəladan fərdi vasitələrlə qoruya bilərik. Çünki ictimai qorumaq, ictimai səhiyyə sistemi kapitalist sistemində, bazar iqtisadiyyat sistemində uyğun deyil. Ümumiyyətlə, bazar iqtisadiyyatı insaniyyət və bəşəriyyətə ziddir. Düzgün həyat tərzi, düşüncə və qidalanma ilə özümüzü bu xəstəlikdən qorumaq mümkündür. Bura təmiz bulaq suyu içilməsi, ət məhsullarının yeyilməməsi, çoxlu idman, müsbət düşüncə və səmərəli istirahət aiddir.

Xərçəngin ən çox yayılan növləri kişilər arasında ağciyər, qadınlarda isə süd vəzi xərçəngidir. Bu da dediyim kimi ağciyərlər ən çox ətraf mühitlə təmasda olur deyə çoxlu zədələyici təsirlər olur. Ona görə də problemlər yaranır. Bu problemlərin arasında ağciyər xəstəlikləri və onu gətirən ağciyər xərçəngi də çox yayılır. Qadınlarda isə süd vəzi xərçəngi qadınların psixoemosional və hormonal statusundan asılı olaraq ən çox narahatçılıq verən səbəblərindən biridir. Süd vəziləri ilə yanaşı uşaqlıq və qalxanvari vəzin problemlərinə rast gəlinir.

Əvvəllər insan yaşı arasında ahıl yaşının 70-80-dən çox yaşayan insanlar xərçəng idisə, təəssüflər olsun ki, son 30 ildə xərçəng getdikcə cavanlaşır və hətta uşaq onkoloji şöbələri də mövcuddur. Bu da dediyim kimi ekoloji durumdan çox asılıdır və bir səbəbi də var ki, xərçəngin müalicəsində müasir dünyada iki istiqamət var: rəsmi və doğru istiqamət. Rəsmi istiqamətdə fikir ondan ibarətdir ki, əsas problem şişdir və onu hər hansı bir yolla yandırmaq, zəhərləmək və kəsmək lazımdır. Ona görə də cərrahiyyə kimya şüa istifadə olunur.

Doğru onkologiyada fikir ondan ibarətdir ki, şiş əsas deyil, əsas bədəndə gedən şiş prosesini deyil də hər hansı bir törəmə şiş prosesinin bir təzahürüdür və tək şişin yığışdırılması ilə kifayətlənmək olmur, gərək şiş prosesi aradan götürülsün".

***Ayşən Vəli***

## "Üçtərəfli Bəyanat artıq öz əhəmiyyətini itirmiş olur"



"Avropa İttifaqının Ermənistan sərhədinə mülki patrol xidmətini gətirməklə bağlı qərara gəlməsi Praqa razılaşmasını heçə endirir. Avropa İttifaqı bu qərarla beynəlxalq hüquqa hörmətsizlik edərək Azərbaycana qarşı ikili standartlı münasibəti ortaya qoymuş oldu". Bu fikirləri Milli Məclisin deputatı Azər Badamov "Səs" qəzetinə açıqlamasında bildirdi.

A.Badamov bildirdi ki, Aİ-ın mülki missiyasının Azərbaycanın mövqeyi ilə hesablaşmadan Ermənistana uzunmüddətli gəlməsi regionda sülhün yaranmasına manedir: "Bu, həm də Ermənistanın Rusiyaya xəyanətin göstəricisidir. Çünki Rusiya Ermənistana hər zaman dayaq durmuşdu. O cümlədən Ermənistanın sərhədlərini Rusiya qoruyur, iqtisadiyyatı Rusiyanın dəstəyi ilə ayaqda saxlayır və ümumiyyətlə, bu günə qədər nəfəsi Rusiya ilə alır. Rusiyanın gücsüzləşdiyini hesab edərək imtina etməsi və dayaqlarını Qərbə yönəltməsi Ermənistanın Rusiyaya xəyanətidir. Hesab edirəm ki, Rusiya da öz növbəsində Ermənistana qarşı siyasətini dəyişəcəkdir. Bu da Ermənistanı daha da dalana sürükləyəcəkdir".

"Avropa İttifaqının mülki patrol xidmətinin Ermənistan sərhədinə yerləşdirilməsi nəticə etibarilə Rusiya ilə Ermənistan arasında qarşıdurmaya gətirib çıxara bilərmi" sualına cavabında A.Badamov bildirdi ki, Avropa İttifaqının mülkü missiyasının Ermənistana gəlməsi Azərbaycanı da öz siyasətində dəyişikliyin edilməsinə vadar edəcək: "Çünki Ermənistanın da imza atdığı Üçtərəfli Bəyanat artıq öz əhəmiyyətini itirmiş hesab olunur və biz də Laçın-Xankəndi yolunun Ermənistanla birləşdiyi yerə təcili sərhəd və gömrük məntəqələrimizi qurmalıyıq. Bu da sülhməramlıların nəzarəti altında olduğu Qarabağın dağlıq ərazisinə gələcək və çıxacaq bütün daşımalara nəzarət etmək imkanı yaratmış olacaq. Ermənistan da Azərbaycanın ərazisinin bütövlüyünü tanıdığını bəyan edib və biz öz suveren ərazimizdə bütövlükdə nəzarətimizi təcili bərpa etməliyik. Hesab edirəm ki, Ermənistanla sərhəddə nəzarət gömrük məntəqəmizin yaratması ekoloqlarımızın narahatçılığını da həll etmiş olar və monitorinqlərimizin aparılmasına imkan yaradar".

***Gülyana***

# Xarici investorlar ölkəmizdə hansı sahələrə maraq göstərir?

***Hazırda maliyyə resurslarının çatışmazlığı və müasir texnologiyalardan geri qalması şəraitində dövlətlərin qarşısında xarici investisiyaların cəlb edilməsi vəzifəsi durur. Bu məqsədlə ölkələr həm dövlət, həm də regional səviyyədə xarici kapitalın cəlb edilməsi üzərində çalışırlar. İnsan amili və investorun maraqları nəzərə alınır. Bu sahənin nəzəri və hüquqi əsasları təkmilləşdirilir.***







Böhrandan çıxmaq, region iqtisadiyyatının ilkin bərpası kimi məqsədlərə nail olmaq üçün xarici investisiyalar həyati əhəmiyyət kəsb edir. Lakin yerli maraqlar heç də həmişə xarici investorların maraqları ilə üst-üstə düşmür.

Sərmayədarlar, investisiyaların xarakterindən və formasından asılı olmayaraq, öz sərmayələrini həm natura, həm də dəyər baxımından geri qaytarmaq üçün investisiya qoymağı əsas məqsəd qoyurlar. Bu halda təbii forma məhsulun real həcmi kimi investisiyanın qaytarılmasını nəzərdə tutur. Dəyər ifadəsi pul formalarının və münasibətlərinin müxtəlif formalarını ifadə edir.

Ona görə də onların maraqlarını nəzərə almaq lazımdır. Eyni zamanda, onların hərəkətlərini cəlb etdikləri iqtisadi problemlərin həllinə yönəltmək lazımdır. SİA mövzu ilə bağlı araşdırma aparıb. Elmi tərifə görə, investisiyalar mənfəət əldə etmək məqsədi ilə iqtisadiyyatın müxtəlif sahələrinə qoyulan uzunmüddətli investisiyalardır.

## Xarici investisiyaların növləri

Real investisiyalar, yaxud birbaşa investisiyalar sənaye, ticarət, xidmət sahələrində - bilavasitə müəssisələrdə kapital qoyuluşu formasında ifadə olunur. İnvestisiya portfeli və ya maliyyə vəsaitləri xarici səhmlərin, istiqrazların və qiymətli kağızların alınmasına sərf olunur.

Sənaye və kommersiya korporasiyalarına, banklara və digər maliyyə institutlarına orta və uzunmüddətli beynəlxalq kreditlər şəklində investisiyalar da mövcuddur. Xarici investorlar həm yerli istehsala, həm də ixracyönümlü istehsala sərmayə qoyurlar.

ARAŞDIRMA

Xarici investorlar üçün regionların investisiya cəlbediciliyində ən mühüm amillər regionun nəqliyyat-coğrafi mövqeyi və regional hakimiyyət orqanlarının mövqeyidir. Əgər region təbii sərvətlərin böyük təchizatı və müxtəlifliyi ilə seçilmirsə, regionun mövcud rəqabət üstünlüklərini tam reallaşdırmağa imkan verən investorlarla məhsuldar - qarşılıqlı faydalı işə və biznes üçün rahat iş şəraitinin yaradılmasına etibar etmək lazımdır. Aİ-nın 14 ölkəsi xarici investisiyaların yoxlanılması alətlərindən istifadə edir, lakin indiyə qədər onlar struktur və əhatə dairəsinə görə fərqlənirlər. Avropa ölkələrinin ümumi nizamnaməsi var.

Belə ki, hər il martın 31-dək dövlətlər Avropa Komissiyasına nə qədər pul və kimdən cəlb etdikləri barədə hesabat verirlər. Onlar həmçinin bir-biri ilə bu cür məlumat mübadiləsi apara, mümkün risklər barədə xəbərdarlıq edə və hətta təhlükəsizlik riski olduğu halda başqa ölkədə əməliyyatı bloklaya bilirlər.

İqtisadçı-ekspert Elman Sadıqov: "İnvestisiya fəaliyyəti haqqında Azərbaycan Respublikasının qanunu 2022-ci il 22 iyun tarixində qəbul olunub. Və bu qanun layihəsində hər hansı bir investoru maraqlandıran əksər suallara cavab verilib".

Dünyada xarici investisiya necə tənzimlənir sualına sualımızı Elman Sadıqov belə cavablandırıb : "Ümumi olaraq 2 cür investisiya var: Birbaşa investisiya və portfel investisiya. Portfel investiya daha çox inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə tətbiq olunur və bu investisiyanın tətbiq olunmasının ilkin şərti həmin ölkədə birjaların olmasıdır. Faktiki olaraq partfel investisiyalarda məsələlərin birjalarda səhmlərin vəsaitlərin qoyulmasıdır. Partfel investisiyası daha çox qiymətli kağızlar bazarı vasitəsilə xarici investorların ölkəyə cəlb olunması deməkdir. Burda xaricdən gələnlər ölkədə müxtəlif layihələrdə də iştirak edə bilərlər hazır müəssələrin səhmlərini də ala bilərlər, pay sahibi də ola bilirlər".

İqtisadçı ölkəmizdə portfel investisiyanın inkişaf etmədiyini də vurğulayıb: "Təəssüf ki, hal-hazırda ölkəmizin portfel invstisiya ilə bağlı imkanları məhduddur. Bunun da əsas səbəbi ölkəmizdə qiymətli kağızlar bazarının tam olaraq inkişaf etməməsidir.

Xarici investorlar hər hansı ölkədə o sahəyə maraq göstərirlər ki, ilk növbədə o ölkənin özü həmin sahəyə xarici investor cəlb etməkdə maraqlı olsun. Bu önəmli bir şərtdir. Bütün ölkələrdə bir çox sahələr var ki, xarici investorlar üçün qapalı olur və yaxud ayrı-ayrı sahələrdə xarici investisiyalar üçün limitlər qoyulur. Bu yoldan nəzarət paketin tamamilə onların əlində olmaması üçün istifadə olunur. İkinci əsas məsələ həmin ölkədəki siyasi və iqtisadi stabillikdir. Sonrakı yerdə qanunvericilik bazası, hüquq məsələsi gəlir. Qanunvericilik bazamız hal-hazırda təkmilləşir və investorların mənafelərinə uyğun bir çox qanunlar qəbul edilməkdədir. Qanunvericilikdə tez-tez baş verən dəyişikliklər investorları ən narahat edən məsələlərdəndir. Ümumiyyətlə götürəndə investorlar daha çox nəqliyyat sisteminə marağı var. Neft- qaz sektoru, kənd təsərrüfatı sahəsi də onların maraq daxilində olan sahələrdir.

Bu sahəyə daha çox Türkiyə, Rusiya investorları maraq göstərir. Düşünürəm ki, ölkəmiz üçün ən önəmli məsələlərdən biri xidmət sektoruna investorları cəlb etməkdir. Çox arzu edərdim ki, turizm sektorunda xarici investorlarla işləyək və xidmətin keyfiyyətinin artırılması məsələlərində daha yeni nələrsə öyrənmiş olaraq. Xarici ölkələrdən investorları cəlb etmək üçün bir çox imkanlarımız var. Bizim üçün hazırda müttəfiqlərimizdən investorların cəlb olunması daha önəmlidir. Tutaq ki, İtaliyada, Türkiyədən olan iş adamları çox böyük işlər görə bilərlər. Burada yeganə önəmli olan məsələ investisiyanı qoyub pul qazanmaqdır. Ümumiyyətlə bütün dünyada hazırda intertnativ enerjiyə keçid məsələsi var".

***Havar Şəfiyeva***

ANALİTİK + ÖZƏL



## Aİ missiyası Ermənistana gəlməyinə gəlir...

### Bəs sonrakı proseslər nəyi göstərəcək?

Beləliklə, Avropa İttifaqının Ermənistana göndərdiyi missiyanın sayı 2000 nəfərə qədər çata bilər və erməni tərəfi məhz bu istiqamətdə cəhdlər göstərir. Hətta əvvəlcədən "mülki sülhməramlı" olmaq istəyənlər kifayət qədər idi. Daha dəqiq desək, 400 nəfərə yaxın avropalı Ermənistana getmək üçün hazır olduqlarını bildirmişdilər. Amma nədənsə bu bəs etmirmiş. Ermənistan necə deyərlər, öz ölkəsində əsl "hərbi-sülhməramlı missiya" görmək istəyir. Əbəs deyil ki, artıq 27 ölkəənin xarici işlər nazirləri yeni "Avropa missiyası" təsdiq etməlidirlər.

Və o da əbəs deyil ki, Ermənistanın XİN başçısı Ararat Mirzoyan Vyanada səfərdə olarkən oradan ölkəsinə deyil, birbaşa Brüsselə uçub.

### Ermənistanın iki məqsədi var

Bəs erməni tərəfinin daha bir məqsədi nədir? Məsələ ondadır ki, Ermənistan rəhbərliyi Qərb "sülhməramlılarını" nəinki silahlı toqquşmaların olduğu ərazilərdə, eyni zamanda Azərbaycanla delimitasiya olunmamış qeyri-müəyyən sərhədlər boyunca yerləşdirməyə can atır. Burada isə iki məqsəd var: Azərbaycanın Ermənistanla sərhədlərdə dəqiqləşdirmələr aparmasının qarşısını almağa cəhd etmək, eləcə də Rusiyanın Gümrüdəki 102-ci hərbi bazasını ölkə ərazisindən çıxarmaqla Ermənistandakı mövcudluğuna birdəfəlik son qoymaq. Paşinyan hökuməti bu vasitə ilə "əsrlərə söykənən qardaşlığı" pozmaq məqsədini açıq-aydın ortaya qoyub.

### Ermənistan özünün böyük bacısı Fransanın vasitəsi ilə Rusiyadan qorunmağa, qurtulmağa çalışırsa, bunu da Soros idarəçiliyinə arxalanaraq edir

Lakin bu məsələdə daha bir kənarda qalmayacaq faktor mövcuddur - Soros reallığı. Sirr deyil ki, Paşinyan hökuməti Sorosun dəstəyi ilə əvvəlki iqtidarı devirib və bu gün də Soros idarəçiliyi altında fəaliyyət göstərir. Və bu gün Ermənistan özünün böyük bacısı Fransanın vasitəsi ilə Rusiyadan qorunmağa, qurtulmağa çalışırsa, bunu da Soros idarəçiliyinə arxalanaraq edir. Nəticədə, erməni hökuməti Moskvanı çıxdaş etmək siyasətini artırmaqdadır.

Paşinyanın iqtidara gəlməsindən sonra KTMT-nin o zamankı baş katibi Yuri Xaçaturovun həbs olunması da qeyd edilənləri kifayət qədər təsdiq edir. Və bu gün Ermənistan publik şəkildə KTMT-nin planlı hərbi təlimlərinin keçirilməsinə (özü də ölkədə!) qarşı çıxır, sənədləri imzalamaqdan imtina edir və s. Hazırda cərəyan edən hadisələr isə Rusiya ilə qarşıdurma məsələsində kulminasiyanın çox yaxında olduğunu göstərir. Bu "hekayənin" sonunun isə, ümumiyyətlə, erməni dövlətçiliyi üçün faciəvi bitəcəyini bəri başdan ehtimal etmək heç də çətinlik yaratmır.

### Rusiya Ermənistanı bağışlamayacaq, bəs İran nə edəcək?

Onda növbəti sual yaranır: bəs günahkar kimdir? Çünki Rusiya son 30 ildə dəfələrlə öz erməni "qardaşlarını" xilas edib - həm iqtisadi, həm hərbi, həm də digər məsələlərdə. Ancaq bu sondur və bir daha erməni tərəfi həmin xilaskarlıqları görə bilməyəcək. Keçək daha bir məsələyə. Özü də kifayət qədər maraqlı və düşündürücü məqama. Çox maraqlıdır ki, bəs bu gün "Ermənistanın sərhədlərinin təhlükəsizliyi İranın təhlükəsizliyidir", "Zəngəzur İran üçün qırmızı xəttir" tipli boğazdan yuxarı bəyanatlar verən İran nə edəcək? Axı qardaşı Ermənistanın təkidi ilə həmin sərhədlərə regiondan kənar ölkələrin "missiyaları" gəlməkdədirlər! Bizdən hadisələri müşahidə etmək və nəticələri görmək qalır. Bu məsələdə isə Azərbaycanın mövqeyi və qətiyyəti nəinki region ölkələrinə, həmçinin Avropa İttifaqına da məlumdur...

***Rövşən RƏSULOV***

# Köhnə maşın parkımız necə təzələnəcək?

**Bir neçə ildir müzakirələr gedir ki, Azərbaycanda avtomobil parkı yenilənəcək, istismar müddətini başa vuran yararsız maşınlar utilizasiyaya göndəriləcək. Bunun əvəzində vətəndaşlara ucuz qiymətə və güzəştli şərtlərlə yeni avtomobil almaları üçün şərait yaradılacaq.**





Belə ki, "Azərbaycan Respublikasında yol hərəkətinin təhlükəsizliyinə dair 2019-2023-cü illər üçün Dövlət Proqramı"nın 7.3.7.1-ci bəndində Azərbaycan Respublikasında yol hərəkətinin təhlükəsizlik səviyyəsini yüksəltmək, ekoloji vəziyyəti yaxşılaşdırmaq, eləcə də yerli avtomobil istehsalını stimullaşdırmaq məqsədilə köhnə, texniki-təhlükəsizlik və ekoloji cəhətdən yararsız nəqliyyat vasitələrinin utilizasiya proqramının hazırlanması və tətbiqi nəzərdə tutulub. Bu il artıq bu dövlət proqramının sonuncu ilidir, lakin proses hələ də başlamayıb.

Bu layihənin həyata keçirilməsi zamanı vətəndaşları maraqlandıran məsələlərdən biri köhnə avtomobillərin hansı qaydada utilizasiyaya göndəriləcəyi, hansı şərtlərlə yeni avtomobilləri ala biləcəkləridir. İqtisadiyyat Nazirliyi bildirib ki, "Nəqliyyat vasitələrinin utilizasiyası proqramının hazırlanması və tətbiqi" layihəsi çərçivəsində nəqliyyat vasitələrinin utilizasiyasının tam könüllülük əsasında həyata keçirilməsi, o cümlədən bu istiqamətdə müəyyən stimullaşdırıcı tədbirlər nəzərdə tutulur.

Belə ki, vətəndaş könüllü şəkildə nəqliyyat vasitəsini utilizasiyaya verdikdən sonra ona təqdim ediləcək təsdiqedici sənəd əsasında yeni istehsal olunmuş avtomobil almaq istədikdə müəyyən qədər güzəşt əldə edəcək. Bundan başqa, təsdiqedici sənəd əsasında müəyyən məbləğin birdəfəlik ödəniş kimi alınması imkanı da nəzərdə tutulub.

Hazırda Azərbaycanda 1,4 milyona yaxın avtomobil var. Avtomobillərin 80 faizindən çoxunun yaşı 10 ili ötür. 20 faizinin isə yaşı 30 ildən çoxdur. Yollarda xeyli sayda istismar müddətini başa vurmuş, texniki cəhətdən yararsız və təhlükəli maşınları görmək mümkündür. Köhnə maşınların sayının çox olması ekologiyanın korlanmasına da gətirib çıxarır. Belə ki, Azərbaycanda hava çirklənməsində avtomobil sektorunun payı 80 faizdən çoxdur. Bu da dəm qazı, karbohidrogenlər, azotoksidləri və digər zərərli qazların həcmdə buxarılması deməkdir.

Köhnə və xarab maşınların yaratdığı digər təhlükəyə gəldikdə deməliyik ki, yol qəzalarının 70 faizi məhz bu avtomobillərin payına düşür. Nəticədə hər il yüzlərlə insan bu qəzalarda həlak olur, yüzlərlə insan isə ağır xəsarət alır.

Bir çox ölkələr avtoutilizasiya proqramı həyata keçirərək öz avtomobil parklarını yeniləyib və nəticədə həm yol qəzalarının sayı, həm də ekoloji çirklənmə xeyli azalıb. Məsələn, Rusiyada demək olar ki, 12 ildir köhnə avtomobillərin utilizasiyası proqramı qüvvədədir. Dövlət bu proqramın həyata keçirilməsi üçün federal büdcədən hər il böyük məbləğdə vəsait ayrılır. Məsələn, təkcə 2020-ci ildə Rusiya istehsalı olan 120 mindən çox avtomobil satılıb, dövlətin utilizasiya proqramının büdcəsi isə 45 milyard rubl (təxminən 1,2 milyard manat) civarında təşkil edir.

Dövlət texniki vəziyyəti bərbad olan maşınları münasib qiymətə alır və vətəndaşa yeni avtomobil almaq üçün güzəştli və uzunmüddətli kredit verir. Yerli avtomobillər belə vətəndaşlara daha ucuz qiymətə təklif olunur. Beləliklə, Rusiya öz vətəndaşlarını yerli markalara aid avtomobilləri almağa həvəsləndirir. Nəticədə son 10-12 ildə Rusiyanın avtomobil parkının yarıdan çoxu yenilənib.

Qeyd edək ki, Rusiyanın öz yerli avtomobil zavodları onlarla modeldə müasir avtomobillər istehsal edir və qiymətləri də çox münasibdir. Bu səbəbdən vətəndaşlar çox rahat şəkildə salondan yeni maşın ala bilirlər.

Bəs yerli avtomobil istehsalı olmayan ölkələrdə bu proses necə ola bilər? Azərbaycanda yerli model avtomobil istehsalı olmasa da, İran və Çin avtomobil modellərinin bəzilərinin yığımı mövcuddur. Lakin bu yerli istehsal sayılmadığından onların qiyməti elə də ucuz deyil. Ən ucuzlarının qiymətləri 17-20 min manat arasındadır. Bu halda vətəndaş özünün hazırda bazar dəyiri 3-5 min manat olan avtomobilini verib 4-5 qat qiymətə yeni maşın ala bilməyəcək, çünki dövlət onun köhnə maşınına uzağı 1-2 min manat ödəyəcək. Qalan fərqi hətta kreditə bölsələr belə vətəndaş uzun illər ayda 300 manatdan az olmayaraq vəsait ödəməlidir ki, bu da böyük əksəriyyət üçün mümkün deyil.

Bu halda yeganə çıxış yolu, dövlətin həmin maşınları real bazar dəyərinə alması, ölkədə yığılan maşınları və xaricdən gətirilən maşınları onlara maya dəyərinə verməsidir. Həm də faizsiz və uzunmüddətli kreditlə. Yalnız bu halda bu proqram effektli və ədalətli ola bilər. Üstəlik, həmin avtomobillərin detallarının güzəştli satışı təşkil olunmalıdır. Çünki yeni model maşınların ehtiyat hissələri çox bahadır, demək, məsələ təkcə maşını almaqla bitmir, onu saxlaya bilmək də var.

Daha bir məqamı nəzərə almaq lazımdır ki, bir sıra vətəndaşlarımız ucuz və köhnə avtomobillə yük daşıyır, xidmət göstərir, öz təsərrüfatı üçün istifadə edir və bununla dolanır. Salondan alınmış təzə maşınla o bunu edə bilməyəcək. Yeni maşının amortizasiya və təmir xərcləri dəfələrlə baha başa gəldiyindən bu maşınla həmin işi görməsi mümkün olmayacaq. Demək belə vətəndaşlara dövlət uzun müddətli kredit verməlidir ki, o ili nisbətən yeni olan və texniki cəhətdən daha yaxşı vəziyyətdə olan başqa bir işlənmiş maşın ala bilsin. Məsələn, 2-3 min manatlıq xarab maşınının əvəzinə 7-8 min manata daha yaxşı vəziyyətdə olan işlənmiş maşın ala bilsin. Bu halda dövlət onun maşınını bazar dəyərinə- 2-3 min manata qəbul etməli, ona 5 min manat krediti azı 5 il müddətinə cüzi faizlə verməlidir. Yalnız bu halda köhnə və yararsız avtomobil sahibləri bunda maraqlı ola bilərlər.

Mövzu ilə bağlı daha bir məsələ var ki, bir çox maşınların istehsal ili çox köhnə olsa da, texniki vəziyyətləri sazdır və ya demək olar ki, ideal vəziyyətdədir. Hətta yaşı 50 ildən çox olan retro avtomobillərin qiyməti çox bahadır. Dünyanın bütün ölkələrində 50-100 arası yaşı olan avtomobillər istifadə olunur, əlbəttə, texniki vəziyyətləri normal halda. Demək avtomobillərə yaşına görə yox, texniki vəziyyətinə görə yanaşılmalıdır. Əgər avtomobil texniki baxışdan keçirsə demək istifadəyə yararlıdır.

Və ya əksinə, elə maşınlar var ki istehsal ili nisbətən yenidir, amma ağır qəza keçirib və ya çox pis istifadə edildiyindən texniki vəziyyəti bərbad haldadır. Yeni, 10 ilin maşını 30 ilin maşınından daha pis vəziyyətdə ola bilər. Lakin bazar dəyəri 10 min manatdan aşağı deyil. Bu halda həmin maşın dövlət necə, hansı qiymətə qəbul edəcək? Sahibi o maşını 1-2 min manata verməyəcək. Bundansa detallarını söküb satsa dəfələrlə çox gəlir əldə edər.

Göründüyü kimi, bu proqramla bağlı hələ də aydın olmayan xeyli mürəkkəb məsələ var. Elə bir optimal yol tapılmalı və şərtlər elə ədalətli olmalıdır ki, köhnə avtomobil sahibləri bunda maraqlı olsun.

Bir neçə kəlmə də avtomobil istehsalı, idxalı və satışı haqda. Son dövrlərdə hər il ölkəyə 50 mindən çox avtomobil gətirilir. 2021-ci ildə isə avtomobil sayında 84765 artım qeydə alınıb. Lakin idxal olunan avtomobillərin 70 faizi köhnə maşınlardır. Son 5 ildə hibrid maşınların idxalı 40 dəfə artıb. Təəssüf ki, belə bir böyük bazarda yeri yığımın payı çox azdır. Əgər vaxtında burada hibrid və elektromobil yığımı təşkil olunsaydı indi yerli zavodlar on minlərlə maşın satmış olardılar. Yenə də gec deyil. Bu maşınlara böyük tələbat var. Xüsusən də, taksi sahəsində.

Yerli avtomobil sənayesinin inkişafı üçün 2 yol var. Birincisi qeyd etdiyimiz dövlət proqramının qəbul olunması, geniş miqyasda və sərfəli şərtlərlə tətbiqi, digəri isə bütün dövlət orqanlarının yalnız yerli yığım avtomobilləri almasının xüsusi qərarla məcburi xarakterə salınması. Naxçıvandakı və Neftçaladakı avtomobil zavodlarından yığılan model sayını artırmaq lazımdır.

Üstəlik, Hacıqabulda və Gəncədə yük avtomobillərinin və kənd təsərrüfatı texnikalarının yığılması bu sənayenin inkişafına təkan verir. Bu işi genişləndirmək və ölkənin tələbatını tam ödəməklə yanaşı, digər ölkələrə ixrac da etmək olar.

Ən əsası, bu proqram optimal və ədalətli şəkildə həyata keçirilsə, ölkənin avtomobil parkı 5-10 il ərzində əsaslı şəkildə təzələnə bilər. Nəticədə həm qəzaların və ölümlərin sayı azalar, həm də ekologiyamız daha az korlanar.

***Elçin Bayramlı***

ARAŞDIRMA

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Ekologiya və ətraf mühitin mühafizəsi" istiqaməti çərçivəsində hazırlanıb*

## "Azərbaycan gənci ilə qürur duya bilərik"

"Qarşıdan 2 fevral Gənclər Günü gəlir. Düşünürəm ki, sadəcə həmin gün deyil, ümumilikdə hər zaman, həyatımızın hər bir məqamında Azərbaycan gəncinə, onun bu günü və gələcəyinə dövlət yüksək səviyyədə diqqət göstərir. Azərbaycan gənci bu gün Azərbaycan dövlətinin, şəxsən Azərbaycan Prezidenti cənab İlham Əliyevin və ölkənin birinci xanımı Mehriban xanım Əliyevanın diqqəti, qayğısı və himayəsi ilə əhatə olunub". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Jalə Əliyeva bildirib.

Onun sözlərinə görə, Azərbaycan gənci öz torpağının bir qarışını belə yağı düşmən tapdağı altında qoymadan, mübarizəyə qalxan və torpaqlarını azad edən, bizə Qarabağlı Azərbaycanı bəxş edən nəsildir: "Bizim gənclərimiz bu gün böyük auditoriyalarda, elm, təhsil ocaqlarında öz sözünü deyir, Azərbaycanda bir çox elm sahələrinin inkişafında böyük nailiyyətlər əldə edirlər. Gənclərimiz dünyanın idman arenalarında Azərbaycanın üçrəngli bayrağını ucaldırlar. Eyni zamanda Azərbaycan gənci mədəniyyət, incəsənət sahəsində çox məhsuldar və istedadlı nümunələr hazırlayır. Bir sözlə, Azərbaycan gənci ilə qürur duya bilərik. Onların bu cür böyüməsində, təhsil almasında, inkişaf etməsində təbii ki, Azərbaycan ailəsinin və Azərbaycan dövlətinin, şəxsən ölkə başçısının çox böyük rolu var.



Ölkəmizin hüdudlarından kənarda təhsil alan gənclərimizə təhsillərini başa vurması üçün yaradılan şərait, dövlət tərəfindən bu istiqamətdə atılan ciddi addımlar da əlbəttə ki, gənclərin inkişafında təkan rolunu oynayır. Bütün Azərbaycan gənclərini qarşıdan gələn 2 fevral Gənclər Günü münasibətilə təbrik edir, müstəqil Azərbaycanın gəncləri olaraq əldə etdikləri nailiyyətlərin davamlı olmasını arzu edirik".

***Səbinə Hüseynli***

Səs

25 yanvar
2023-cü il

# Ronaldodan agentinə tələb: "Ya "Bavariya", ya da "Çelsi"

"Əl-Nəsr"in futbolçusu Kriştiano Ronaldonun agent Jorje Mendeş arasında əməkdaşlığın dayandırılmasının səbəbi məlum olub. Qol.az "El Mundo Deportivo"ya istinadən xəbər verir ki, portuqaliyalı hücumçu "Mançester Yunayted"dən ayrıldıqdan sonra agentindən onu "Bavariya" və ya "Çelsi"yə transfer etməyi istəyib. O, bu şərt yerinə yetirilməsə, əməkdaşlığı dayandıracaqlarını bildirib. Mendeş futbolçuya "dəli olduğunu" söyləyib. Nəticədə 37 yaşlı oyunçunun "Əl-Nəsr"ə transferi ilə agent olmadan reallaşıb.

Qeyd edək ki, Ronaldo dekabrda "Əl-Nəsr"lə 2.5 illik müqavilə imzalayıb.



# Pəhrizə başlamazdan əvvəl NƏ ETMƏK LAZIMDIR?

**"Hamı diyeta saxlayır, amma mütəxəssis məsləhəti olmadan pəhrizə başlamaq düzgün deyil. Həkim müayinəsindən keçib orqanizmə nəyin xeyir, nəyin ziyan olduğunu bilmək lazımdır. Ona görə də pəhrizə başlamazdan əvvəl mütləq diyet mütəxəssisləri ilə məsləhətləşmək lazımdır". Bu sözləri SİA-ya açıqlamasında diyetoloq Sevinc Həsənzadə deyib.**



Onun sözlərinə görə, səhər yeməyi insanı yeni günə hazırlayan ən önəmli paydır: "Səhər yeməyindən imtina etdikdə pəhrizə başlayan insanlar daha az çəki itirəcək, maddələr mübadiləsinin işi zəifləyəcək və fikirlərini bir yerə cəmləşdirməkdə çətinlik çəkəcəklər. Ona görə də, səhər yeməyini vaxtında yemək lazımdır.



Zərərli şeylərdən biri də sürətli yemək yeməkdir. Yeməyi tez-tez, yaxşıca əzişdirmədən, çeynəmədən yemək orqanizm üçün ziyandır. Unutmamaq lazımdır ki, beyinə toxluq hissi 20 dəqiqədən sonra çatır. Yemək yemə müddəti mümkün olduğu qədər uzadılmalıdır. Beləliklə, həm daha az yemək yeyəcək, həm də həzm fermentləri ifraz olunacaq. Sürətli yemək yeyəndə həzm sisteminin iş prosesi zəifləyir, bu da çəkinin artmasına səbəb olur".

Dietoloq bildirib ki, su qidaların həzm edilməsi, metabolik tullantıların atılması, maddələr mübadiləsinin sürətlənməsi və dolayısı ilə çəkinin azalması üçün lazımdır: "Gündə 2-2,5 lt su içilməlidir. Həmçinin, gün ərzində qəbul edilən qidanın pay sayını azaltmaq lazımdır. Gündə 2-3 dəfə və ya bundan az payda qida qəbul edən insanlarda nizamsız qan şəkəri ifraz olunması və daha çox aclıq hissi müşahidə olunur. Bu da kökəlməyə səbəb olur. Ona görə də, gün ərzində normada və az-az qidanı paylar şəklində qəbul etmək daha yaxşı olar.

Axşam yeməyini gec yemək də arıqlamağa mane olan şeylərdən biridir. Axşam yeməyini yatmadan 3-3,5 saat əvvəl bitirmək lazımdır. Dolu mədə ilə yatağa girmək bədənin yağlanması üçün ən yaxşı fürsətdir. Axşam yeməyindən yatana qədər keçən müddətdə az bir şey atışdırmaq olar. Bir şərtlə, qəbul edilən məhsullar həzmi asanlaşdırmalıdır. Məsələn, meyvə, qatıq və ya süd kimi yüngül şeylər istehlak edilə bilər.

Kökəlməyə meyilli insanlar həmişə şirin şeylərə üstünlük verirlər. Bunu unutmamaq lazımdır ki, şəkər orqanizmdə asanlıqla yağa çevrilə bilir. Qabdakı yeməyin hamısını yemək məcburiyyətində deyilsiz. Yemək miqdarına fikir vermək üçün boşqaba az yemək qoymağınızı məsləhət görərdim".

*Ləman Əlizadə*

# Prokuror anasını öldürən yeniyetməyə cəza istədi

Prokuror Bakıda anasını qətlə yetirməkdə təqsirləndirilən 2007-ci il təvəllüdlü İ.Məmmədzadənin 7 il 6 ay müddətinə azadlıqdan məhrum edilməsini istəyib. SİA xəbər verir ki, bu barədə dövlət ittihamçısı Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi Rasim Sadıxovun sədrliyi ilə keçirilən prosesdə elan edib. Prokuror bildirib ki, zərərçəkmiş şəxsin hüquqi varisi yeni təqsirləndirilən şəxsin nənəsi onunla barışıb, heç bir şikayət və tələbi yoxdur.

Həmçinin hakim deyib ki, zərərçəkmiş şəxsin hüquqi varisi məhkəməyə məktub göndərib. Qeyd edib ki, İ.Məmmədzadə ilə onun qanuni nümayəndəsi olan atası barışıb, ona qarşı şikayəti yoxdur. Təqsirləndirilən şəxsin vəkili müdafiə çıxışı üçün məhkəmədən vaxt istəyib. Məhkəmənin növbəti iclası fevralın 2-nə təyin olunub. Qeyd edək ki, hadisə ötən ilin aprelində paytaxtın Nizami rayonunda qeydə alınıb.

Belə ki, Bakı metrosunun "Neftçilər" stansiyası yaxınlığında 1985-ci il təvəllüdlü Ülviyyə İsmayılova oğlu, 2007-ci il təvəllüdlü İ.Məmmədzadə ilə mübahisə edib. Nəticədə oğul anasını qətlə yetirib. İ.Məmmədzadəyə qarşı Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə ittiham irəli sürülüb.



# Diqqət: Yerin yaxınlığından asteroid keçəcək

**Yanvarın 26-da Yerin yaxınlığından diametri 5-6 metr olan asteroid keçəcək. Bu barədə SİA-ya Azərbaycan Milli Elmlər Akademiyası N.Tusi adına Şamaxı Astrofizika Rəsədxanasından məlumat verilib. Bildirilib ki, müşahidə ediləcək göy cisminə müvəqqəti olaraq "2023 BU" adı verilib.**



2023 bu asteroidi yüksək parlaqlığa malikdir. Onu hətta həvəskar teleskoplarla da müşahidə etmək mümkün olacaq. Lakin asteroidi yalnız Yer kürəsinin cənub yarımkürəsinin sakinləri görə biləcəklər.

Qeyd edək ki, bu asteroid Yer üçün təhlükəli deyil, çünki o, planetdən bir neçə min kilometr uzaqlıqdan keçəcək. Daha dəqiq desək, Yerin mərkəzindən 6,200 mildən (10,000 km) az məsafədən keçəcək və Yerin orbitində fırlanan geostasionar peyklərin təxminən dörddə biri məsafəsində olacaq. Bu da onu deməyə əsas verir ki, 2023 BU asteroidi Yerlə son dərəcə yaxın, amma təhlükəsiz şəkildə keçəcəkdir. Ümumilikdə isə, əsasən diametri 150 metrdən böyük olan göy cisimləri planetimiz üçün təhlükəli hesab edilir.

Asteroidin hərəkətini izləmək üçün Virtual Teleskop keçidindən istifadə edə bilərsiniz. Keçid üzərindən canlı yayım 26 yanvar saat 23:15-də başlayacaqdır.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3600**